AZƏRBAYCAN BAROMETRİ №02(02) 2019



# STM

## Yeni imtahan modeli: islahatlar, nəticələr və gözləntilər

## ANALİTİK HESABAT

SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ



**“Azərbaycanda təhsil sisteminin təkmilləşməsinə çox böyük diqqət göstərilir. Təhsilin səviyyəsi ölkəmizin perspektivlərini müəyyən edəcəkdir".**

*Azərbaycan Respublikasının Prezidenti*
*İlham Əliyev*

# SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ

## AZƏRBAYCAN BAROMETRİ

*Xüsusi buraxılış*

№02(02), oktyabr 2019

# TAM (11 İLLİK) ORTA TƏHSİL SƏVİYYƏSİ ÜZRƏ BURAXILIŞ, ALİ VƏ ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNƏ QƏBUL İMTAHANLARININ YENİ MODELİNƏ DAİR

## ANALİTİK HESABAT

*(sosioloji sorğu-tədqiqatın nəticələri əsasında)*

**Hesabatın müəllifləri:**
Aqşin MƏMMƏDOV
İlyas HÜSEYNOV

**Tədqiqat qrupu:**
*STM-in Daxili siyasətin təhlili departamenti*
*İctimai rəyin öyrənilməsi departamenti*

Bakı 2019

Sosial Tədqiqatlar Mərkəzi (STM) Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 8 fevral tarixli 525 nömrəli Fərmanı ilə yaradılmışdır. STM ictimai münasibətlərin inkişaf dinamikasını sistemli təhlil edən, bu sahədə mövcud tendensiyaları müəyyənləşdirən və dəyişiklikləri proqnozlaşdıran, həmin dəyişikliklərin cəmiyyətə mümkün təsirlərini araşdıran, müasir informasiya texnologiyaları və elmi yanaşmalar tətbiq edilməklə ictimai fikrin öyrənilməsini və sosial tədqiqatlar aparılmasını təmin edən, həyata keçirdiyi elmi-analitik təhlilin nəticələrini dövlət orqanlarına təqdim edən publik hüquqi şəxsdir.

*“**Azərbaycan barometri**” jurnalı 06 avqust 2019-cu il tarixində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində 4247 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə daxil edilib.*

**Ünvan:**
Azərbaycan Respublikası, Bakı şəhəri, AZ1006
Yasamal rayonu, İsmayıl bəy Qutqaşınlı küçəsi, 18.
**Telefon:** (+994 12) 510-70-78; (+994 12) 510-23-75; (+994 12) 510-70-69
**E-poçt:** info@stm.az
**İnternet ünvanı:** www.stm.az

**Elmi redaktor:**
Tahirə ALLAHYAROVA,
*fəlsəfə üzrə elmlər doktoru, professor*

**Redaktor:**
Aqşin MƏMMƏDOV,
*filologiya üzrə fəlsəfə doktoru*

Çapa imzalanmışdır: ______.2019
Format:______. Fiziki çap vərəqi 8.5
Sifariş _____. Tiraj 1000

© Sosial Tədqiqatlar Mərkəzi, 2019

# TƏŞƏKKÜRLƏR

Tədqiqat qrupu aşağıdakı şəxslərə hesabatın ərsəyə gəlməsində göstərdikləri dəstəyə görə xüsusi təşəkkür edir:

1. Milli Məclisin Elm və təhsil komitəsinin üzvlərinə – Kamilə Əliyeva, Sona Əliyeva, Pərvin Kərimzadə, Musa Qasımlı və Asim Mollazadəyə – *müsahibə (keyfiyyət intervüsü) metodundan istifadə etməklə keçirilmiş sorğuda fəal iştirak etdiklərinə görə.*
2. Təhsil Nazirliyinə, Bakı Şəhər Baş Təhsil İdarəsinə və Nazirliyin Sumqayıt, Gəncə, Bərdə, Şəki, Şirvan, Xaçmaz, Göyçay, Lənkəran və Mingəçevirdə yerləşən təhsil şöbələrinin rəhbərlərinə – *respublikanın şəhər və rayonlarında ictimai rəy sorğusunun təşkilində göstərdikləri dəstəyə görə.*
3. Təhsil Nazirliyinin Təhsilin inkişafı proqramları şöbəsinin müdiri Emin Əmrullayevə – *müsahibə (keyfiyyət intervüsü) metodundan istifadə etməklə keçirilmiş sorğuda fəal iştirak etdiyinə görə.*
4. Dövlət İmtahan Mərkəzinə (DİM) – *imtahanların şəhər və rayonlar üzrə keçirilmə yeri və tarixi ilə bağlı məlumat dəstəyinə və sosioloji sorğu-tədqiqatın nəticələri əsasında hazırlanmış analitik hesabata rəy verdiyinə görə.*
5. DİM-in Mətbuatla iş və elektron kommunikasiya sektorunun müdiri Xanlar Xanlarzadə – *müsahibə (keyfiyyət intervüsü) metodundan istifadə etməklə keçirilmiş sorğuda fəal iştirak etdiyinə görə.*
6. Azərbaycan Respublikasının Təhsil İnstitutuna – *sosioloji sorğu-tədqiqatın nəticələri əsasında hazırlanmış analitik hesabata rəy verdiyinə görə.*
7. Təhsil ekspertlərinə – Nadir İsrafilov, Şahlar Əsgərov, Kamran Əsədov və Elşən Qafarova – *müsahibə (keyfiyyət intervüsü) metodundan istifadə etməklə keçirilmiş sorğuda fəal iştirak etdiklərinə və sosioloji sorğu-tədqiqatın nəticələri əsasında hazırlanmış analitik hesabata rəy verdiklərinə görə.*
8. Psixoloq İlahə Dadaşovaya və sosioloq Cavid İmamoğluna – *müsahibə (keyfiyyət intervüsü) metodundan istifadə etməklə keçirilmiş sorğuda fəal iştirak etdiklərinə görə.*
9. Bakı, Sumqayıt, Gəncə, Bərdə, Şəki, Şirvan, Xaçmaz, Göyçay, Lənkəran və Mingəçevirdə ictimai rəy sorğusunda fəal iştirak etmiş bütün abituriyentlərə, valideynlərə, müəllimlərə və bu prosesdə əməyi keçən hər bir insana.

# MÜNDƏRİCAT


**I. TƏDQİQATIN ÜMUMİ MƏSƏLƏLƏRİ**

I.1. Tədqiqatın əhəmiyyəti və aktuallığı ..... 5
I.2. Tədqiqatın məqsədi və vəzifələri ..... 7
I.3. Tədqiqatın metodoloji prinsipləri ..... 8
I.4. Beynəlxalq təcrübənin təhlili ..... 9

**II. SORĞUNUN NƏTİCƏLƏRİNİN TƏHLİLİ**

II.1. Demoqrafik göstəricilər ..... 13
II.2. Buraxılış, ali və orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanlarının yeni modelinə dair məlumatlılıq səviyyəsi ..... 14
II.3. Yeni modelin tətbiqində əsas məqsəd ..... 16
*II.3.1. Azərbaycanın təhsil sistemi üçün yeni modelin faydalılıq səviyyəsi* ..... 17
II.4. Yeni tədris proqramının (kurikulumların) "sınaq" imtahanı: 10 illik təcrübə və gözləntilər özünü doğrultdumu? ..... 19
II.5. Yeni modelin tətbiqi: test üsulunun sonu, yoxsa yeni mərhələyə keçid? ..... 21
*II.5.1.Test üsulu ilə qəbul əzbərçi nəsil yetişdirirmi?* ..... 22
*II.5.2. Test üsuluna inam səviyyəsi* ..... 23
II.6. Abituriyentlərin imtahana hazırlıq prosesi ..... 25
*II.6.1. İxtisas qrupu seçimi* ..... 25
*II.6.2. Repetitor hazırlığı* ..... 25
*II.6.3. Sınaq imtahanlarında iştirak: sınaq imtahanlarının az sayda keçirilməsi yeni modeli mənimsəməkdə çətinlik yaradıbmı?* ..... 27
II.7. Buraxılış və yaxud qəbul imtahanlarının çətinlik səviyyəsi ..... 28
*II.7.1. Fənlərin bölgüsü* ..... 30
*II.7.2. Tapşırıqların mürəkkəblik səviyyəsi* ..... 31
II.8. Azərbaycan testologiyasında ənənə və yenilik ..... 32
*II.8.1. Açıq tipli test tapşırıqları: yeniliyi həzm etməyə qarşı təpki, yoxsa çətinlik? Problem haradan qaynaqlanır?* ..... 32
*II.8.2. Açıq tipli test (situasiya, mətn və mənbə əsaslı) tapşırıqlarının qiymətləndirilmə meyarları: insan müdaxiləsi olan yerdə obyektivlikdən danışmaq mümkündürmü?* ..... 34
*II.8.3. Xarici dillər üzrə dinləmə qurğusunun tətbiqi* ..... 37
II.9. 2018-ci və 2019-cu illərdə keçirilən imtahanların müqayisəli təhlili: "700 bal" problemi, aşağı göstəricilərin səbəbləri, yeni modellə əvvəlki modelin mürəkkəblik səviyyəsi ..... 38
II.10. Buraxılış və qəbul imtahanlarının keçirilmə vaxtına münasibət: Təhsil ili başa çatmamış imtahanların keçirilməsi nə dərəcədə düzdür? DİM nə deyir? ..... 41
II.11. Apellyasiya Komissiyasının fəaliyyətinə münasibət ..... 42
II.12. Qəbul imtahanlarında iştirakla bağlı ödənişin məbləğinə münasibət ..... 44
II.13. İmtahan prosesinin abituriyentlərin mənəvi-psixoloji vəziyyətinə təsirləri. Psixoloq və sosioloq rəyi ..... 44
*II.13.1. DİM-in həyata keçirdiyi psixoloji xidmət layihəsi* ..... 49

**NƏTİCƏ: tamam, yoxsa davam/ənənə, yoxsa yenilik** ..... 51

**TƏKLİFLƏR** ..... 55

**ƏDƏBİYYAT** ..... 57

**ƏLAVƏLƏR** ..... 58

# I. TƏDQİQATIN ÜMUMİ MƏSƏLƏLƏRİ

## I.1. Tədqiqatın əhəmiyyəti və aktuallığı

XX əsrdə informasiya və ya şəbəkə cəmiyyəti (D.Bell, O.Toffler, Y.Masuda, M.Kastels), postmodern cəmiyyəti (J.Liotar, U.Eko), istehlak cəmiyyəti (P.Draker, P.Xatkins, T.Xusen) və s. mövzularda müxtəlif konsepsiyalar ortaya qoyuldu. Təbii ki, təhsilin (öyrənmənin) təbiəti, yeni təhsil paradiqması və qlobal təhsil trendləri ilə bağlı məsələlər də daha ciddi müzakirə müstəvisinə çıxarıldı, gələcəkdə sosiuma təsir edəcək dəyərlər sırasında ön planda qeyd olundu. Bu qənaətə gəlindi ki, innovativ və təşəbbüskar iqtisadi sistemin yaradılması “təhsil əsri” adlandırılan XXI əsrdə daha çox insan kapitalının inkişafı ilə əlaqəli olacaq. Artıq təhsil yüksək insan kapitalı və texnologiyalar vasitəsilə iqtisadi artımın drayverinə çevrilməkdədir. Məsələyə XXI əsrdə artıq baş verən və baş verəcək metadəyişikliklər, yeni dünya və yeni insanı formalaşdırmaq hədəfi kontekstindən yanaşanda dünya təhsil sistemində özünəməxsus həlqəni təşkil edən ümumi, ali və orta ixtisas təhsili sisteminin üzərinə ağır yük düşür.

1991-ci ildə dövlət müstəqilliyini əldə edən Azərbaycan Respublikasında təhsil sosial siyasətin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdir. Azərbaycanın iqtisadi-siyasi sahədə sistem transformasiyası prosesinə başlaması bütün sahələrdə olduğu kimi təhsildə də köklü islahatları zəruri etmiş və onun yeni cəmiyyətin tələblərinə uyğun yenidən qurulmasını qarşıya vəzifə kimi qoymuşdur. Qeyd edək ki, ölkənin təhsil sistemində aparılan islahatların başlıca missiyası təhsilin koqnitiv funksiyasını yeni dünya nizamına uyğunlaşdırmaq və texnoloji cəhətdən inkişaf etmiş sivilizasiyanın təhdidlərini özünəməxsus yaradıcı “filtr”dən keçirə bilmək olmuşdur.

Azərbaycanda təhsil sistemində köklü dəyişikliklərə 15 iyun 1999-cu il tarixində Ümummilli lider Heydər Əliyevin sərəncamı ilə təsdiq edilmiş, mahiyyətində “yaddaş məktəbi”ndən “təfəkkür məktəbi”nə keçidi saxlayan “Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı” ilə təkan verildi. 90-cı illərdə ümumi təhsil sahəsində yerli və beynəlxalq ekspertlərin birgə apardıqları tədqiqatlar nəticəsində Azərbaycandakı mövcud tədris proqramlarının hazırkı tələbləri ödəmədiyi, əsasən fənlər üzərində qurulduğu, şagirdlərin təfəkkür və düşüncə tərzini lazımi səviyyədə inkişaf etdirmədiyi, dərsliklərin lüzumsuz materiallarla yükləndiyi, uşaqlarda həyati bacarıqların, tədqiqatçılığın, müstəqilliyin formalaşdırılmasına zəif diqqət yetirildiyi, əzbərçiliyə üstünlük verildiyi və s. bu kimi məsələlər nəzərə alınaraq yeni təhsil proqramının (kurikulumların) tətbiqinə başlanıldı. 2006-cı ildə “Azərbaycan Respublikasında ümumi təhsilin konsepsiyası (Milli Kurikulumu)” Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq edildi, həmin sənəd 2010-cu ildə “Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)” adı ilə təkmilləşdirildi. Ümumi təhsilin fənn kurikulumları (I-IV siniflər üçün) isə 2007-ci ildə Azərbaycan Respublikası Təhsil nazirinin əmri ilə təsdiqləndi və pedaqoji ictimaiyyətin istifadəsinə verildi.

Yeni tədris proqramı və təlim üsulları əsasında şagird qəbulu ilk dəfə 2008-ci ildə həyata keçirildi. Beləliklə, respublikanın ümumtəhsil müəssisələrində yeni təhsil proqramlarının (kurikulumların) tətbiq olunması ilə yeni məzmun standartlarına uyğun hazırlanmış dərsliklərdən istifadə edilməyə başlanıldı və təbii ki, tədris prosesində yeni qiymətləndirmə vasitələrinin tətbiq olunması zərurəti yarandı.

2012-ci ildə ölkə Prezidentinin müvafiq sərəncamına əsasən o zamankı TQDK-nın Əsasnaməsində dəyişiklik edilməklə, monitorinq imtahanlarının keçirilməsi onun vəzifələrinə daxil edildi. Dövlət İmtahan Mərkəzi (keçmiş TQDK) 2013-cü ildən başlayaraq (yeni təhsil sistemilə ilk təhsil alan şagirdlər o zaman V sinifdə oxuyurdular) respublikanın ümumtəhsil müəssisələrində monitorinq imtahanları keçirməyə başladı. Bu illər ərzində respublikanın bütün coğrafi regionlarını əhatə edən məktəblərdən reprezentativ seçmə yolu ilə V–X siniflərdə təhsil alan 60 minə yaxın şagird üçün monitorinq imtahanları keçirildi. Qeyd edək ki, monitorinq imtahanlarının keçirilməsində əsas məqsəd yeni tapşırıq modelləri üzrə qiymətləndirmə mexanizminin formalaşdırılması ilə yanaşı, təhsil sahəsində dövlət standartlarının təmin edilməsi üçün aparılan islahatların, o cümlədən yeni təhsil proqramlarının (kurikulumların) tədris prosesinə təsirinin müəyyən edilməsi, şagirdlər tərəfindən bu proqramlar üzrə materialların mənimsənilməsi, onlarda müvafiq bacarıq və vərdişlərin formalaşdırılması səviyyəsinin ölçülməsi, tədris prosesində müəllimlərin üzləşdiyi çətinliklərin aşkara çıxarılması idi. 2015-ci ildən etibarən bilik və bacarıqların qiymətləndirilməsi istiqamətində əməkdaşlığın təmin edilməsi üçün Təhsil Nazirliyi və DİM-in mütəxəssislərindən ibarət birgə İşçi qrup yaradıldı. Bu işçi qrupun iclas və müzakirələrində monitorinq imtahanlarının nəticələri və yeni modelin hazırlanması məsələləri müzakirə olunmuşdu. Bun-

ları nəzərə alaraq, 2017-ci ildə ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə təhsilalanların biliyinin yekun qiymətləndirilməsi imtahanı DİM tərəfindən yeni qaydalar əsasında keçirildi. Beləliklə, ilk dəfə olaraq, yeni təhsil proqramlarının (kurikulumun) tələblərinə uyğun IX siniflərin yekun attestasiya imtahanlarında şagirdlərin mətn üzərində iş, mətnin əsas ideyasını və mətndə baş verən hadisələrin səbəb-nəticə əlaqələrini müəyyənetmə, mətnin kontekstinə uyğun olaraq sözlərin mənasını izah etmə, tənlik qurma ilə müxtəlif həyati situasiyalara aid riyazi tapşırıqları yerinə yetirmək bacarıqları yoxlanıldı. Yeni imtahan modelinin hazırlanmasında məhz monitorinq imtahanlarının nəticələrinin elmi-statistik təhlili başlıca rol oynadı. Bəzi ekspertlər bu imtahanları ümumtəhsil sistemi ilə bağlı 10 illik islahatların ilk rəsmi qiymətləndirilməsi hesab edirlər.

Daha sonra buraxılış imtahanlarının nəticələrinin kompleks təhlili aparıldı və informasiya bazası toplanıldı. 2017-ci ilin oktyabrında DİM-in məsul işçiləri ilə Təhsil Nazirliyinin nümayəndə heyəti arasında keçirilən görüşdə 2019-cu ildə tətbiqi nəzərdə tutulan tam (11 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanlarının, ali və orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanlarının yeni modelinin yekun müzakirəsi keçirildi. Yeni model ictimaiyyətə təqdim olundu. Qeyd edək ki, 2019-cu ildə tətbiq edilən yeni qəbul modelində nəzərdə tutulan dəyişikliklər abituriyentlərin biliklərinin daha dəqiq şəkildə üzə çıxarılmasına hesablanmışdı. Belə ki, ilk növbədə I-IV ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul olmaq üçün müsabiqə zamanı abituriyentlərin buraxılış imtahanından əldə etdikləri nəticələri də nəzərə alınır və qəbul imtahanından toplanılan balın üzərinə əlavə olunur. Yeni qaydalara görə, I mərhələdə (buraxılış imtahanında) abituriyentlər 3 fəndən (ana dili, riyaziyyat, xarici dil) maksimum 300 bal, II mərhələdə (qəbul imtahanında) isə 3 fəndən (ixtisas qruplarına uyğun) maksimum 400 bal olmaqla cəmi 700 bal toplaya bilərlər. Beləliklə, abituriyentlər buraxılış və qəbul imtahanlarında topladıqları balların cəminə əsasən ali təhsil müəssisələrinin müsabiqəsində iştirak edə bilirlər. Bununla da buraxılış imtahanlarının nəticələri yekun attestasiya, V ixtisas qrupu və orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün əsas olmaqla yanaşı, I-IV ixtisas qrupları üzrə də müsabiqənin bir komponentinə çevrilmiş olur. Burada qəbul imtahanı fənlərinin saylarının azaldılması da vurğulanmalıdır. Belə ki, əvvəlki illərdə olduğu kimi abituriyentlər 3 buraxılış və 5 qəbul imtahanı fənni deyil, 3 buraxılış və 3 qəbul imtahanı fənni üzrə imtahan verirlər. Abituriyentlərin imtahan yükü daha da azaldılmışdır. Bundan əlavə, yeni qaydalarla qəbul imtahanlarının birinci mərhələsinin (buraxılış imtahanlarının) nəticələrinin iki il qüvvədə olması, yeni cari və növbəti tədris illərində abituriyentə ali təhsil müəssisələrinə keçirilən tələbə qəbulu müsabiqəsində iştirak etmək hüququnun (birinci mərhələdə iştirak etmədən abituriyent imtahanın ikinci mərhələsini verir) verilməsini nəzərdə tutur. Bu imtahanlarda abituriyentlərin özləri tərəfindən yazılı şəkildə cavablandırılması tələb olunan müəyyən sayda tapşırıqlardan da istifadə olunur. Yeni model tapşırıqlarının sayı da ümumi imtahan suallarının sayına nisbətdə çox azdır. Hələlik qəbul imtahanlarında hər fənn üzrə cəmi 3 belə tapşırığın istifadə olunması nəzərdə tutulub, bu tip tapşırıqlardan istifadə kurikulum standartlarının tələbidir.

Beləliklə, 2019-cu ilin fevral ayından etibarən həm kağız daşıyıcıları, həm də onlayn sınaq imtahanlarının, mart ayınından etibarən isə buraxılış və qəbul imtahanlarının keçirilməsinə start verildi. Belə ki, Bakı şəhəri və bölgələr üzrə IX siniflər üçün buraxılış imtahanlarının birinci mərhələsi martın 3, 10 və 17-də, ikinci mərhələsi isə iyunun 2, 9 və 16-da keçirildi. Əvvəlki illərin məzunları üçün ümumi (9 illik) orta təhsil bazasında kolleclərə qəbul imtahanının birinci mərhələsi martın 31-də, ikinci mərhələsi isə iyunun 30-da keçirildi. XI siniflər üzrə buraxılış imtahanları aprelin 7, 14 və 21-də təşkil olundu. Əvvəlki illərin məzunları üçün I-IV qruplar üzrə qəbul imtahanının birinci mərhələsi, eləcə də V qrup üzrə ali təhsil müəssisələrinə və tam (11 illik) orta təhsil bazasında kolleclərə qəbul imtahanı aprelin 28-də keçirildi. Ali təhsil müəssisələrinə I və IV ixtisas qrupları üzrə birinci (yaz) qəbul imtahanı mayın 12-də, II və III ixtisas qrupları üzrə mayın 19-da keçirildi. I və IV ixtisas qrupları üzrə ikinci imtahan (yay imtahanı) isə iyunun 23-də, II və III ixtisas qrupları üzrə iyulun 7-də keçirildi. I-V ixtisas qrupları və tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə abituriyentlərin ərizələrinin qəbulu martın 15-dən aprelin 15-dək internet vasitəsilə aparıldı.

Rus bölməsinin abituriyentləri üçün Azərbaycan dili imtahanı (ali təhsil müəssisələrinin bakalavriat səviyyəsi və orta ixtisas təhsili müəssisələri üçün birinci imtahan) mayın 5-də keçirildi. Birinci imtahanda "qeyri-məqbul" qiymət alan və ya iştirak etməyən abituriyentlər üçün qeydiyyat mayın 8-dən 14-dək aparıldı. Qeydiyyatdan keçmiş abituriyentlər üçün 2-ci imtahan isə mayın 26-da baş tutdu. Jurnalistika ixtisasını seçən abituriyentlərin qeydiyyatı iyulun 22-dən 25-dək aparıldı. Bu ixtisası seçən abituriyentlərin qabiliyyət imtahanı isə avqustun 1-də keçirildi. Xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə elektron qeydiyyat V qrup üzrə (bədən tərbiyəsi ixtisası) iyunun 24-dən 28-dək aparıldı. V qrup üzrə bədən tərbiyəsi ixtisası istisna olmaqla qeydiyyat iyunun 24–dən başlanıldı və iyulun 3-dək davam etdi. Xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə qabiliyyət imtahanları

I qrup üzrə iyulun 12-dən 17-dək, V qrup üzrə (bədən tərbiyəsi ixtisası) iyulun 1-dən 7-dək, V qrup üzrə (bədən tərbiyəsi ixtisası istisna olmaqla) iyulun 7-dən avqustun 2-dək keçirildi.

Ümumi imtahan prosesi başa çatdıqdan sonra DİM I, II, III və IV ixtisas qrupları üzrə müsabiqədə iştirak etmək hüququ qazanmış abituriyentlər üçün "İxtisas seçimi zamanı nələrə diqqət yetirməli?" adlı kitabçalar nəşr etdi. Abituriyentlər ixtisas seçimini iyulun 24-dən avqustun 6-dək olan müddətdə həyata keçirdilər. İxtisasların siyahısı "Abituriyent" jurnalının 4-cü buraxılışında təqdim olundu. Jurnalda, həmçinin ali təhsil müəssisələrinə tələbə qəbulu müsabiqəsində iştirak etmək üçün ixtisas seçimi elanı, "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"nin doldurulma qaydası, ali təhsil müəssisələrinə qəbul aparılan ixtisasların kodları, dövlət sifarişi ilə tələbə qəbulunun proqnozu verildi.

Qeyd edək ki, buraxılış imtahanlarında 100 minə yaxın, dörd qrup üzrə qəbul imtahanlarında 70000-ə yaxın abituriyent iştirak edib. Ali təhsil müəssisələrinin müsabiqəsində isə 58300 nəfərə yaxın abituriyent iştirak edib. Əsas və əlavə qəbuldan sonra 43780 nəfər (o cümlədən 4774 subbakalavr) ali təhsil müəssisələrinə qəbul olunub. 17947 nəfər (o cümlədən 632 subbakalavr) dövlət sifarişi əsasında, 25533 nəfər (o cümlədən 4142 subbakalavr) isə ödənişli əsaslarla təhsil almaq hüququnu əldə edib.

Xatırladaq ki, bu il 3 nəfər incəsənət, 3 nəfər dünya fənn olimpiadası, 21 nəfər respublika fənn olimpiadası, 71 nəfər idman sahəsi üzrə beynəlxalq yarışların qalibi olduğu üçün, 1 nəfər isə beynəlxalq səviyyədə akkreditasiya olunan "International Baccalaureate" təhsil proqramı üzrə təhsil aldığı üçün müsabiqədənkənar ali təhsil müəssisələrinə qəbul olunub.

SAT imtahanının nəticələrinə əsasən, 104 abituriyent ADA Universitetinə qəbul olunub. Bundan əlavə, I ixtisas qrupu üzrə 139 abituriyent Azərbaycan-Fransız Universitetinə (UFAZ), IV ixtisas qrupu üzrə 125 abituriyent İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialına, 128 abituriyent (I-IV ixtisas qrupları üzrə) M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialına qəbul olunub.

Ali təhsil müəssisələrinin boş qalan (vakant) plan yerlərinin siyahısı "Abituriyent" jurnalının 8-ci nömrəsində dərc olunub. Həmin yerlərə ixtisas seçimi avqustun 15-dən 19-dək internet vasitəsilə aparılıb. Abituriyentlər elektron ərizədə ali təhsil müəssisələrinin boş qalan plan yerlərinin ixtisasları ilə yanaşı, orta ixtisas təhsili müəssisələrinin (kolleclərin) ixtisaslarının da kodlarını göstərmək imkanına malik olub. Orta ixtisas təhsili müəssisələrinin qəbul aparılan ixtisasları "Abituriyent" jurnalının 5-ci nömrəsində dərc olunub.

DİM 2019/2020-ci tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin boş qalan plan yerlərinə yerləşdirmənin nəticələrini avqustun 20-də açıqlayıb. Müsabiqə nəticəsində ali təhsil müəssisələrinin boş qalan plan yerlərinə 1359 nəfər (o cümlədən 1232 nəfər subbakalavr) qəbul olunub. Birinci mərhələdən sonra isə ali təhsil müəssisələrinə 42 min 62 nəfər (o cümlədən 3542 subbakalavr) qəbul olunmuşdu. İlk mərhələdən sonra qəbulolma faizi 88,06 idi.

Hər iki mərhələdən sonra ali təhsil müəssisələrinə 43 min 480 (o cümlədən 4774 subbakalavr) nəfər qəbul olunub. 17 min 947 (o cümlədən 632 subbakalavr) nəfər dövlət sifarişi əsasında, 25 min 533 (o cümlədən 4142 subbakalavr) nəfər isə ödənişli əsaslarla təhsil almaq hüququ əldə edib. Nəticədə ali təhsil müəssisələrinə qəbulolma faizi artaraq 91,03 olub.

Qeyd edək ki, tələbə qəbulu aparılan 42 ali təhsil müəssisəsinin 7-də plan yerləri 100 faiz, 20 ali təhsil müəssisəsində 90 faizdən, 9 ali təhsil müəssisəsində 80 faizdən çox olub. Ümumiyyətlə, qəbul aparılan ixtisasları xüsusi qabiliyyət tələb edən Bakı Xoreoqrafiya Akademiyası istisna olmaqla, digər ali təhsil müəssisələrinin plan yerləri 70 faizdən çox dolub.

Beləliklə, DİM tərəfindən buraxılış və qəbul imtahanlarında 2019-cu ildə tətbiq olunan model həm forma, həm də məzmunu ilə əvvəlki illərin qəbul modelindən fərqləndi. Buraxılış və qəbul imtahanları prosesində aparılan araşdırmalar sübut edir ki, bu modelin tətbiqinə cəmiyyətdə münasibət heç də birmənalı deyil, fikir müxtəlifliyi müşahidə edilir. Bu yeni modelin müsbət və mənfi tərəfləri ətrafında müzakirələr bu gün də davam edir. Belə bir məqamda bu amilləri nəzərə alaraq ictimai rəy sorğusunun keçirilməsi zərurəti aktuallıq kəsb edir. Sosial Tədqiqatlar Mərkəzi buraxılış və qəbul imtahanlarında bu il tətbiq olunan yeni modelin müsbət və mənfi tərəflərini, ümumilikdə Azərbaycanın təhsil sisteminin bugünkü vəziyyətini və cəmiyyətin bu yeniliklərə münasibətini araşdırmaq üçün Milli Məclisin Elm və təhsil komitəsinin üzvləri, Təhsil Nazirliyinin, Dövlət İmtahan Mərkəzinin nümayəndələri, abituriyentlər, valideynlər, müəllimlər və təhsil ekspertləri arasında ictimai rəy sorğusu keçirib. Nəticələr ölkəmizdə təhsilin səviyyəsini, imtahanların forma və məzmununu öyrənmək, təhlil etmək və konkret təkliflər əsasında təkmilləşdirmək üçündür.

### I.2. Tədqiqatın məqsədi və vəzifələri

- Keçirilmiş sosioloji tədqiqatın **əsas məqsədi** seçilmiş 10 şəhər və rayonda (Bakı, Sumqayıt, Gəncə, Bərdə, Şəki, Şirvan, Xaçmaz, Göyçay, Lənkəran, Mingəçevir) müxtəlif hədəf qruplarının, maraqlı tərəflərin, peşə kateqoriyalarının nümayəndələrinin (abituriyentlərin, valideynlərin, müəllimlərin, millət vəkillərinin, Təhsil Nazirliyinin və DİM-in nümayəndələrinin, təhsil ekspertləri, psixoloq və sosioloqların) dövlətin

sosial siyasətinin tərkib hissəsi olan təhsilin müasir vəziyyətini öyrənməyə əsas verən buraxılış və qəbul imtahanlarının yeni modeli ilə bağlı fikirlərini, bəzi vacib mövzular və məsələlər haqqında rəyini, qiymətləndirmələrini və münasibətini, baxış və təkliflərini öyrənmək, bunun əsasında təhlil aparmaq, müvafiq təklif və tövsiyələr hazırlamaqdır.

- Sosioloji tədqiqatın **xüsusi vəzifələri** aşağıdakılardır:

1. Sorğuya cəlb edilmiş hədəf auditoriyanın buraxılış və qəbul imtahanlarının yeni modeli ilə bağlı məlumatlılıq səviyyəsini, yeni modelin mahiyyətinin anlaşılmasını və bu sahədə biliklərin mövcud dərəcəsini öyrənmək;
2. Hədəf qrupların buraxılış və qəbul imtahanlarının forma və məzmunu ilə bağlı tətbiq edilmiş dəyişikliklərə münasibətini öyrənmək: respondentlər bu yenilikləri necə qavrayır və qiymətləndirir (dəyişikliklər yaxşılaşmaya, yoxsa pisləşməyə doğrudur)?
3. Azərbaycanın təhsil sistemi üçün yeni modelin faydalılıq səviyyəsini öyrənmək;
4. Yeni tədris proqramının (kurikulumların) abituriyentlər tərəfindən mənimsənilmə dərəcəsini öyrənmək: gözləntilər özünü doğrultdumu?
5. Buraxılış və qəbul imtahanlarının ayrı-ayrılıqda müqayisəli təhlilini aparmaq;
6. Yeni modellə əvvəlki modelin üstünlüklərini və çatışmazlıqlarını müəyyənləşdirmək;
7. DİM-in nəzdində fəaliyyət göstərən Apellyasiya Komissiyasının fəaliyyətinə respondentlərin münasibətini aydınlaşdırmaq;
8. İmtahan prosesinin abituriyentlərin mənəvi-psixoloji vəziyyətinə təsirlərini müəyyənləşdirmək və çıxış yollarını araşdırmaq.

### I.3. Tədqiqatın metodoloji prinsipləri

Məlumatların toplanması və qiymətləndirilməsi prosesində kəmiyyət və keyfiyyət tədqiqat metodlarından istifadə edilmişdir

**1. Respondentlərin seçimi**

- Dörd qrup üzrə qəbul imtahanlarında 70000-ə yaxın abituriyent, STM tərəfindən keçirilən ictimai rəy sorğusunda isə 539 respondent (o cümlədən 400 abituriyent, 139 valideyn və müəllim) iştirak etmişdir. Bundan başqa, 12 nəfər ekspertlə keyfiyyət tədqiqatı aparılmışdır.
- İmtahan tam başa çatdıqdan sonra imtahan keçirilən binadan çıxan hər 3 abituriyentdən birinə yaxınlaşaraq sorğuda iştirak etmək təklif olunub. Təklifi qəbul edən abituriyentlərlə insanların sıx toplaşmadığı yaxın ərazidə sorğu aparılıb. Bu zaman imtahan başa çatdıqdan sonra eyni anda məktəbdən çıxan abituriyentlərin sayının çoxluğunu nəzərə alaraq sahədə intervüyerlərlə yanaşı, əlavə işçi heyəti olub. Məktəbdən çıxan abituriyentləri əlavə işçilər sorğuya dəvət edib və sorğu intervüyerlər tərəfindən keçirilib.
- Valideynlərlə (onların bəziləri həm də müəllim olub) sorğu isə imtahan keçirilən müddətdə öz övladlarını gözlədikləri ərazidə təsadüfi seçmə üsulu ilə aparılıb.
- Sorğu seçilmiş bölgələrdə bir neçə məktəb üzrə aparılıb.
- Abituriyent seçməsində statistik xəta əmsalı 5%-ə yaxındır.
- Valideyn və müəllim respondentlərin sayı az olduğundan abituriyent seçməsinə nisbətdə reprezantivlik nisbətən aşağı səviyyədə təmin edilib.
- Sorğu DİM-in regional mərkəzləri əsas götürülərək aşağıdakı şəhər və rayonlarda həyata keçirilmişdir: Bakı, Sumqayıt, Gəncə, Bərdə, Şəki, Şirvan, Xaçmaz, Göyçay, Lənkəran, Mingəçevir.
- Genişmiqyaslı tədqiqatdan öncə Bakıda 60 respondent arasında sınaq tədqiqatı keçirilib. Sınaq nəticəsində anketdə lazımi düzəlişlər edilib.

**2. Sorğu anketi**

Sorğu anketi abituriyentlər üçün 36 (5 demoqrafik, 31 spesifik), valideyn və müəllimlər üçün 34 (3 demoqrafik, 31 spesifik) sualdan ibarət olub. Suallar buraxılış və qəbul imtahanlarında bu il tətbiq edilən model haqqında məlumatlılıq səviyyəsi, təhsil sistemi üçün faydalılıq dərəcəsi, imtahan prosesi, məzmundakı yeniliklərə münasibəti öyrənmək istiqamətində hazırlanıb.

**3. Təlimat**

- İntervüyerlər üçün təlimat qaydaları hazırlanıb.
- İntervüyerlər işə başlamazdan əvvəl Mərkəzin əməkdaşları tərəfindən müvafiq təlimdən keçirilib.
- Təlim zamanı intervüyerlər anket və təlimatlarla ətraflı tanış olaraq, sorğunun keçirilməsi üçün tam hazır olublar.
- Sorğu anketindəki hər bir sual üzrə geniş izahatlar verilib və intervüyerlər tərəfindən test sorğusu aparılıb.
- **4. Sorğunun aparılması üsulu**

Sorğunun aparılmasında "üz-üzə" müsahibə və anketin paylanılması üsullarından istifadə olunub. Sorğuların keçirilməsində müasir texnologiyalar tətbiq edilib. Belə ki, sorğular ənənəvi üsul olan kağız formatında deyil, planşetlər vasitəsilə həyata keçirilib. Son illər ABŞ-da və Böyük Britaniyada daha geniş tətbiq olunan və müasir sorğu proqramı kimi qəbul olunan *SurveyToGo* proqramından istifadə edilib. Bu proqram geniş coğrafiyalarda sahəvi işə nəzarət etmək, sorğu prosesinə onlayn müşahidəni əldə saxlamaq və etibarlı informasiya almaq baxımından çoxlu üstünlüyə malikdir.

**5. Sahə işi**

Sahə işi 2019-cu ilin iyunun 23-dən iyulun 25-dək olan dövrdə keçirilib. Sorğu 2 mərhələdə aparılıb: 1-ci

mərhələ əvvəlcədən hazırlanmış anket sualları əsasında iyunun 23-də (I və IV ixtisas qrupları üzrə ikinci imtahan) və iyulun 7-də (II və III ixtisas qrupları üzrə ikinci imtahan) abituriyentlər, valideynlər və müəllimlər arasında; 2-ci mərhələ isə müsahibə (keyfiyyət intervüsü) metodundan istifadə etməklə Milli Məclisin Elm və təhsil komitəsinin üzvləri, Təhsil Nazirliyi və Dövlət İmtahan Mərkəzinin nümayəndələri, təhsil ekspertləri, psixoloq və sosioloqlar arasında keçirilib.

**6. Məlumatların işlənməsi və təhlili**

Sorğu başa çatdıqdan sonra birbaşa bazaya yığılan məlumatlar xüsusi proqram SPSS – Statistical Package for the Social Sciences (Sosial Elmlər üçün Statistik Paket) vasitəsilə təhlil edilib. Təsviri analizlərlə yanaşı, dəyişənlər arasında bir sıra korelyasiyalar (əlaqələr) müəyyənləşdirilib.

## I.4. Beynəlxalq təcrübənin təhlili

Dünyanın demək olar ki, bütün ölkələrində ali məktəblərə qəbul imtahanlarının şəffaf və maksimum obyektiv keçirilməsi üçün bir çox yerli xüsusiyyətlər nəzərə alınır. Burada əsas diqqət tapşırıqların düzgün tərtib olunmasına, imtahanların vaxtında və düzgün keçirilməsi üçün konkretləşdirilmiş mühitin yaradılmasına və s. məsələlərə yönəldilir. Sadaladığımız şərtlər nəticələrə təsir edən əsas amillər hesab olunur. Məsələn, əgər imtahan yalnız testlərdən ibarət olduqda, o zaman abituriyentlər diqqət, yaddaş və məntiqi təfəkkür kimi zehni xüsusiyyətlərin aktivləşdirilməsini maksimum dərəcədə artırmalıdırlar. Əgər imtahan şifahi şəkildə keçirilərsə, onda yaddaşa, ritorikaya və aktyorluq sənətinə aid olan keyfiyyətlərin inkişaf etdirilməsi tələb olunur. Dünya ölkələrinin hər birində bütün bu məsələlərə fərqli yanaşılır. Tədqiqatın bu hissəsində digər ölkələrdə keçirilən imtahanlara nəzər salmağa çalışacağıq.

### Çin Xalq Respublikası

"Qaokao" – Çində dövlət imtahanları bu cür adlanır. Ənənəvi olaraq, imtahanlar bütün Çin məktəblərində eyni gündə və eyni saatda keçirilir. Şagirdlərə yalnız ən zəruri əşyaları götürməyə icazə verilir, yəni qələm, karandaş, pozan, xətkeş və pərgar. Digər əşyaları imtahan zalına keçirmək qadağandır. Hətta şüşə qablarda içməli suyun da imtahan zalına keçirilməsinə icazə verilmir. İmtahan otaqlarında detektorlar, kameralar, mobil siqnalları dəf edən qurğular yerləşdirilir. İmtahanların gedişatını məktəb müəllimləri müşahidə edə bilmirlər, onları kənardan dəvət olunmuş müəllimlər əvəz edirlər. Bundan əlavə, imtahanları təhsil idarəsindən olan əməkdaşlar və digər rəsmi şəxslər izləyirlər. İmtahanlar iki gün davam edir. Birinci günün ilk yarısı ədəbiyyat və çin dili, günortadan sonra isə xarici dil və riyaziyyat üzrə verilən sualların cavablandırılmasına 2,5 saat vaxt ayrılır. İkinci gündə isə daha bir icbari fənn, habelə ali təhsil müəssisəsinin tələbəsi tərəfindən seçilmiş fənlərdən biri üzrə imtahan verilir. Nəticələr yalnız kompüter tərəfindən yoxlanılır və müəyyən edilir. Bu, insan amilini aradan qaldırmaq üçün edilir. Çində keçirilən imtahanlarda ən diqqət çəkən məqam ondan ibarətdir ki, hər hansı bir aldatma, "şparqalkadan" köçürmə və ya bu cür fırıldaqçı hərəkətlər müəyyən edildikdə bu halları törədənlərə imtahanı yenidən vermək üçün ikinci şans verilmir. Ali təhsil müəssisəsinə pul bahasına daxil olmaq məsələsi yaxına da buraxılmır. Yeri gəlmişkən, bütün imtahan biletlərinin məxfi saxlanılması üçün Çin hökuməti tərəfindən büdcədən xüsusi vəsait ayrılır.

### Amerika Birləşmiş Ştatları

Amerika Birləşmiş Ştatlarında buraxılış imtahanları müəyyən səbəblərdən çox asan keçirilir. Aparılmış tədqiqatlar göstərir ki, Amerikada 12-ci sinif şagirdləri üçün riyaziyyat fənni üzrə buraxılış imtahanları çətinlik səviyyəsinə görə Avropada 7-8-ci sinif şagirdləri üçün keçirilən imtahanların səviyyəsinə bərabərdir. ABŞ-dakı universitet və kolleclərə qəbul olunmaq üçün bütün məzunlar istisnasız olaraq standartlaşdırılmış test imtahanından keçməlidirlər. Əsasən, tapşırıqlar üç hissədən ibarətdir: riyaziyyat, mətn təhlili və inşa yazmaq. Burada beş mümkün variantdan ibarət suallar təqdim olunur. Hər bir fənn üzrə 200-dən 800-ə qədər bal toplamaq mümkündür. Bu ballar abituriyentin şəxsi "hesabına" daxil olur, o da gələcəkdə bu balları seçdiyi ali məktəbə daxil olmaq üçün istifadə edir. Test imtahanlarının ildə altı dəfə keçirildiyini nəzərə alsaq, Amerikanın ali məktəblərinə daxil olmaq istəyən şəxslər əldə etdiyi nəticələr onları qane etmədiyi təqdirdə yenidən imtahanlarda iştirak etmək hüququna malikdirlər. Dolayı yollarla imtahan vermək məsələsinə gəlincə, bu sahədə amerikalı abituriyentlərin "bacarıqları" çox yaxşı inkişaf etmişdir. Belə ki, imtahanları asanlaşdırmaq üçün onlar köçürmə metodundan, müxtəlif cihazların (planşetlər, telefonlar) köməyindən, "şparqalka"dan, müxtəlif saytların xidmətlərindən, hətta beyin fəaliyyətini stimullaşdıran xüsusi dərmanlardan istifadə edirlər. Amerikalı abituriyentlər üçün də ən böyük cəza imtahanlara növbəti dəfə buraxılmamaq ola bilər.

### Finlandiya

Finlandiyada abituriyentlər inanılmaz dərəcədə şanslıdırlar. Onlar istəsələr ümumiyyətlə imtahan verməzlər, çünki peşə məktəblərinə daxil olmaq üçün sədəcə olaraq məktəbi bitirmək haqqında attestatı təqdim etmək kifayət edir. Yalnız üç il gimnaziyada oxuduqdan sonra finlandiyalı şagirdlər ali məktəbə

daxil ola bilirlər. Bunun üçün fin dili, isveç dili, xarici dil, riyaziyyat və təbiət elmlərindən cəmi bir ümummilli imtahandan keçmək tələb olunur. Bu, olduqca sadə imtahan hesab olunur və məzunların böyük əksəriyyəti onu problemsiz keçir.

İmtahan təxminən bu cür keçirilir: abituriyentin bütün şəxsi əşyalarını özü ilə imtahan zalına keçirməməsi üçün cəmi iki müəllim prosesə nəzarət edir. Gərəkli olan hər şey əvvəlcədən artıq auditoriyada yerləşdirilib. Yalnız hər hansı bir lüğətin və soraq kitabçasının imtahan zalına keçirilməsinə icazə verilir. Kiminləsə məsləhətləşmək və ya köçürmək qəti qadağandır, əks halda abituriyent imtahan zalından qovulmaqla cəzalandırılır. Maraqlıdır ki, bu imtahanların nəticələri ali məktəbə qəbula heç bir şəkildə təsir etmir, ali təhsil müəssisəsinə qəbul olmaq üçün əlavə qəbul imtahanları vermək lazımdır.

Yeri gəlmişkən, 2016-cı ildən etibarən Finlandiyada əksər gimnaziyalar elektron buraxılış imtahanları sisteminə keçmişdir.

**İsrail**

İsraildə imtahanla bağlı vəziyyət olduqca maraqlıdır. Bu ölkədə ali məktəblərə qəbul olunmaq üçün abituriyentlər psixometrik imtahandan keçməlidirlər. Bu imtahanların nəticəsi 7 il ərzində etibarlı hesab olunur. İmtahanlarda bir neçə dəfə iştirak etmək mümkündür, ancaq cəhdlər arasında fasilə ən azı altı ay olmalıdır. İmtahanlar İsrailin İmtahanlar və Statistika Mərkəzinin mütəxəssisləri tərəfindən keçirilir.

İmtahan 165 tapşırıqdan ibarətdir və aşağıdakı keyfiyyətləri yoxlamağa yönəlib:

- Ana dilində məntiqi düşünmə qabiliyyəti (sualların 40%-i)
- İngilis dilini bilmə səviyyəsi (20%)
- Riyazi qabiliyyətlər (40%)

İmtahan üç əsas istiqamət üzrə testlər toplusundan ibarətdir: ingilis dili, riyazi qabiliyyət və verbal düşüncə. Fərqli abituriyentlər üçün müxtəlif dillərdə imtahan keçirilir: ispan dili üzrə (ildə 1 dəfə), fransız dili üzrə (ildə 1 dəfə), ərəb dili üzrə (ildə 4 dəfə), rus dili üzrə (ildə 2 dəfə), ivrit dili üzrə (ildə 5 dəfə).

Kifayət qədər əlverişli şərtlərə baxmayaraq, israilli abituriyentlər dəfələrlə hiylə yolu ilə imtahanlardan keçməyə cəhd göstəriblər. Məsələn, 2010-cu ildə şagirdlər sinif rəhbərlərinin elektron poçtunu ələ keçirərək, onun adından testlərin cavablarının göndərilməsi haqqında Təhsil Şöbəsinə məktub yazıblar.

**Cənubi Koreya**

Bu ölkədə buraxılış imtahanları yoxdur, orta təhsil isə hamı üçün bir zəmanət rolunu oynayır və demək olar ki, hər kəsə diplom verilir. Cənubi Koreyada təhsil demək olar ki, həyatın tələbi olduğuna görə abituriyentlərin çoxu ali məktəblərə daxil olmaq niyyətində olur və vahid dövlət imtahanı tipli imtahanlarda əksəriyyət iştirak edir.

Dövlət özü buna böyük diqqətlə yanaşır. Məsələn, imtahanlar zamanı abituriyentlərin diqqətinin yayınmaması üçün təyyarələrin yerə enişi qadağandır və səhər, həmçinin günorta vaxtı bütün uçuşlar yarım saat təxirə salınır, bütün ölkə üzrə tikinti işləri dayandırılır. İmtahanların özünə gəldikdə isə əsas dörd fənn üzrə keçirilir: koreya dili, ingilis dili, tarix və riyaziyyat, habelə üç müxtəlif seçmə fənn. İmtahanlarda yalnız kənardan dəvət olunmuş müəllimlər iştirak edir və paketlərdə olan suallar bütün ölkə üzrə eyni vaxtda açılır. Abituriyent özü ilə yalnız şəxsiyyət vəsiqəsi, qələm, karandaş və pozan götürə bilər. Nə planşet, nə də telefonla imtahan zalına keçmək olar.

Ölkənin müxtəlif bölgələrində imtahanlardan uğurlu nəticə qazana bilməyən məzunların intihar etməsi halları dəfələrlə qeydə alınıb. Bu, abituriyentlərin təhsilə son dərəcə ciddi münasibətini göstərir, çünki burada təhsil həqiqətən də gələcəyə aparan yoldur.

**Digər ölkələrdə keçirilən imtahanlar haqqında qısa məlumat:**

- **Norveçdə** məzunlar və abituriyentlər hiyləgərliyə imkan verməyən xüsusi proqram təminatı ilə təchiz edilmiş təhsil noutbuklarında imtahan verirlər.
- **Braziliyada** ENEM-də (vahid dövlət imtahanı) iştirak istəyə görə mümkündür. Bunun üçün altı ay üçün qeydiyyatdan keçmək və imtahanda iştirak haqqını ödəmək lazımdır. Bəzi ali məktəblərə qəbul olmaq üçün adi məktəb imtahanından keçmək kifayətdir. Yeri gəlmişkən, bu ali məktəblərdə yalnız pulsuz təhsil verilir.
- **İsveçrə, İslandiya, Filippin** və **Kiprdə** hər məktəbdə fərqli imtahanlar keçirilir.
- **Yaponiyada** ali məktəbə daxil olmaq üçün əvvəlcə məktəb, sonra isə universitet imtahanından keçmək lazımdır. Hətta fərqlənmə diplomu ilə bitirənlər də bu sınaqlardan keçməlidirlər.
- **Almaniyada** ali məktəblərə qəbul olmaq üçün məzunlar 28 kursu bitirdikdən sonra iki adi və iki yüksək səviyyəli imtahandan keçməlidirlər.
- **Tailand** və **Honkonqda** iki imtahan verilir: biri mərkəzləşdirilmiş, digəri hər bir orta məktəbdə.
- **Kanada, İtaliya, Skandinaviya ölkələri, Almaniya** və **Avstriyada** həm şifahi, həm də yazılı imtahanların verilməsi tələb olunur.

**Müqayisəli təhlil**

Ali məktəblərə qəbul imtahanlarında hədəflər və məqsədlər aşağıdakı kimi formalaşdırılır:

✓ Abituriyent – öz biliklərini təsdiq etməyə çalışır;

✓ Məktəb – tədrisin səviyyəsini nümayiş etdirməyə can atır;

✓ Ali məktəb – öz sıralarında ən yaxşı tələbələri görməyə təşəbbüs göstərir;

✓ Dövlət – bütövlükdə təhsil sisteminin keyfiyyətini qiymətləndirmək istəyir.

Digər ölkələrin məktəblərinin məzunlarını gələcəkdə nə gözlədiyinə və hansı imtahan sisteminə üstünlük verdiklərinə qısa şəkildə nəzər salaq.

***Mərkəzləşdirilmiş, yoxsa fərdi?***

Kolumbiya, Çin, İran və dünyanın digər 16 ölkəsində tam mərkəzləşdirilmiş imtahanlar keçirilir. Bu o deməkdir ki, abituriyentlər hamı üçün vahid dövlət imtahanından keçməlidirlər. Bu yanaşma bir tərəfdən rahatdır – bütün məzunlar üçün bərabər şərait yaranır, digər tərəfdən isə bəzən bu, tamamilə doğru olmur, çünki elə lap başlanğıcdan abituriyentlər eyni imkanlara malik olmurlar (müqayisə üçün Pekindəki nüfuzlu bir məktəblə Çinin əyalət məktəbini misal çəkmək olar). Tailand və Honkonqda təhsil almış məzunlar təhsilin sonunda bir mərkəzi və daha bir fakultativ (Yaponiyada şagirdlər üçün imtahanların sayı 5-ə bərabərdir) imtahan verməlidirlər. İsveçrə, İslandiya, Kirp və bir sıra digər ölkələrdə hər məktəb öz şagirdlərinin hansı imtahanları verəcəyinə özü qərar verir. Ali məktəbə qəbul olan zaman vahid şəraitin təmin edilməsi məqsədilə abituriyentlər seçdikləri universitetin tələblərinə uyğun olaraq əlavə imtahan verməyə məcburdurlar. Böyük Britaniya və Amerika Birləşmiş Ştatlarının məktəblərində buraxılış imtahanlarını kənar təşkilatların ixtisaslaşdırılmış nümayəndələri keçirirlər. Fransada imtahanlar məktəbin özündə keçirilir, lakin imtahan götürənlər digər təhsil müəssisələrindən dəvət olunur.

***Yazılı, yoxsa şifahi?***

Dünyanın əksər ölkələrində imtahanların yazılı şəkildə keçirilməsi geniş yayılıb, lakin bəzi təhsil sistemlərində imtahan edən cavabları şifahi şəkildə qəbul edir. Məsələn, Yaponiya, Cənubi Afrika Respublikası və Sinqapurda imtahanlar yalnız yazılı şəkildə keçirilirsə, Almaniya, Kanada, İtaliya, Skandinaviya ölkələri və Avstriyada şifahi formada cavablar verilir. Yeri gəlmişkən, İsveçrədə yazılı şəkildə olan imtahanda uğursuzluğa məruz qalan abituriyent şifahi şəkildə keçirilən imtahana ümid edə bilər.

***Buraxılış, yoxsa qəbul?***

Yuxarıda qeyd edildiyi kimi, elə ölkələr var ki, ali məktəbə qəbul olunmaq üçün məktəb buraxılış imtahanlarının nəticələri kifayət deyil. Ali məktəbə qəbul olunmaq üçün qəbul imtahanları da vermək lazımdır. Məsələn, Yaponiyada tələbə olmaq istəyən məzunlar iki imtahan mərhələsindən keçirlər: birinci – Təhsil Nazirliyi tərəfindən keçirilən ümumdövlət imtahanı, ikinci – universitet imtahanı.

***Kəmiyyət, yoxsa keyfiyyət?***

Müxtəlif ölkələrdə buraxılış imtahanlarının sayı da dəyişkəndir. Fransada cəmi 2-3 fənn olursa, Almaniyada məktəblilər 4 imtahanda birləşdirilmiş 28 (!) fənn üzrə akademik biliklərini nümayiş etdirməlidirlər.

Lakin Amerika imtahan testlərinin məqsədi nəinki əsas fənlər üzrə abituriyentin biliklərini qiymətləndirmək, eyni zamanda onun ali məktəbdə təhsil almaq imkanlarını və hazırlığını proqnozlaşdırmaqdır. Bu cür yanaşmanın nəzərəçarpan üstünlükləri var, çünki yüksək səviyyəli bir mütəxəssis olmaq üçün təkcə nəzəriyyə ilə kifayətlənmək yetərli deyil. ABŞ-da intizamlı, yaradıcı, uğurlara köklənmiş və öz gücünə inamlı olmaq əsas meyarlar sırasındadır.

**Qonşu dövlətlərin təcrübəsi**

**Türkiyə**

Türkiyədə ali təhsil orta məktəb məzunlarının müvafiq ixtisaslara sahib olmasını və yüksək səviyyəli mütəxəssis kimi yetişməsini təmin edir. Türkiyə Respublikası 1923-cü ildə qurulan zaman təhsil sistemində Almaniyanı özünə model seçərək öz təhsil sistemində bəzi dəyişikliklər etdi. 1974-cü ilə qədər universitetlər tələbələrini özləri qəbul edirdi. Türkiyədə ali təhsilin bütün səviyyələrində mərkəzi idarəetmənin olmaması səbəbindən bu sahədə ciddi gerilələr müşahidə edilirdi. 1974-cü ildə bu qarışıqlığın qarşısını almaq üçün imtahanların vahid mərkəzdən aparılması qərarı verildi. Bu tarixdə Universitetlərarası Tələbə Seçmə və Yerləşdirmə Mərkəzi (ÖSYM) yaradıldı və təşkilati işləri yerinə yetirməyə başladı. Bu mərkəz 1981-ci ilə qədər fəaliyyətini davam etdirdi. 1974-cü və 1975-ci illərdə universitet imtahanları iki seansda olmaqla səhər və günorta, 1976-1980-ci illərdə eyni gündə və mərkəzləşdirilmiş şəkildə, 1981-ci ildən etibarən isə ikipilləli imtahan sistemi tətbiq edildi. Eyni zamanda, 1981-ci ildə ali təhsil sahəsində aparılan islahatlardan sonra Türkiyə Respublikası Ali Təhsil Komitəsi yaradıldı və bütün ali təhsil müəssisələri bu qurumun tabeliyinə verildi. İkimərhələli imtahanın birincisi apreldə (ÖSS), ikincisinin isə iyun ayında (ÖYS) keçirilməsinə qərar verildi. 1987-ci ildə ixtisasa görə lazımi testlərin cavablandırılması sisteminin tətbiqinə başlanıldı. 1999-cu ildə ÖYS ləğv olundu və ÖSS adı altında vahid imtahana çevrildi. Elə həmin il OBP (Ortaöğretim Başarı Puanı) tətbiqi ilə lisey sahəsinə görə tələbələrə ali təhsil almaq hüququ verildi. Bundan sonra sistemə bir çox kiçik düzəlişlər edildi. Ancaq sonuncu və ən əhəmiyyətli dəyişiklik 2006-cı ildə iki hissədən ibarət olmaqla vahid imtahan sisteminə keçid oldu. Bu dəyişiklik nəti-

cəsində namizədlər ümumi və sahə üzrə testlərə cavab vermək hüququ əldə etdilər.

Türkiyədə ali təhsil almaq üçün 2 əsas nəticəyə diqqət yetirilir:

1) SAT – riyaziyyat (ingilis dilində) və ingilis dili. Hər 2 aydan bir rəsmi imtahan keçirilir.

2) YÖS – məntiq və riyaziyyat. İmtahana qeydiyyat yanvar-mart aylarında aparılır. İmtahan, adətən, aprel-may aylarında, 80-100 sualdan ibarət olmaqla keçirilir. Tibb üzrə qəbul olmaq üçün 90-dan, hüquq və mühəndislik ixtisaslarına qəbul olmaq üçün 80-dən yuxarı bal toplamaq lazımdır.

Hazırda ölkənin ali təhsil müəssisələri sırasında universitetlər, institutlar, konservatoriyalar, peşə ali məktəbləri daxildir. Türkiyədə 118-i dövlət, 65-i özəl olmaqla 183 universitet fəaliyyət göstərir.

1974-cü ildən etibarən həyata keçirilən dəyişikliklər köklü problemləri həll edə bilmədi. Universitetlər qəbul imtahanlarının daha dəqiq və qərəzsiz olması üçün dəyişikliklərə məruz qalır, lakin hər dəyişiklik yeni ehtiyacları və nəzərdə tutulmayan müxtəlif problemləri üzə çıxarır.

**Rusiya**

2009-cu ildən bəri Rusiyada biliklərin qiymətləndirilməsinin əsas forması olan Vahid Dövlət İmtahanı (VDİ) yeganə bir metoddan istifadə edilməklə qiymətləndirmə aparır. Lakin 2015-ci ildən bəzi dəyişikliklər olunub. Bu dəyişikliklər aşağıdakılardan ibarətdir:

VDİ-ni hətta minimal bal toplayan da yenidən verə bilər.

➢ VDİ-ni apreldən iyunadək vermək olar, yəni erkən və əsas imtahan olmaq şərti ilə keçirilir.

➢ VDİ-ni iyuldan sonra vermək mümkün olmur.

➢ 2015-ci ilin məzunları VDİ-ni vermək üçün esse yazmalıdırlar.

➢ Rusiyada keçirilmiş sorğulara əsasən məlum olub ki, yeni dəyişikliklərə münasibət mənfidir. Çünki bu sistem əslində abituriyentin biliklərini obyektiv qiymətləndirməyə imkan vermir. Bir çox hallarda ali məktəblərə qəbul məsələsi digər yollarla həll olunur. VDİ-nin keçirilməsi zamanı bəzi hallarda nəticələrin dəyişdirilməsi müşahidə olunub.

**Qazaxıstan**

Qazaxıstanda ali məktəbə daxil olmaq üçün məktəb məzunları vahid milli test (VMT) şəklində buraxılış və qəbul imtahanları verir və ya ötən illərin məzunları abituriyentin kompleks testləşməsindən (AKT) keçir. Qazaxıstan vətəndaşları müsabiqə əsasında "Bolaşak" beynəlxalq təqaüdü sayəsində xaricdə təhsil almaq hüququna malikdir. Ali məktəbi bitirən məzun bakalavr (4 il), mütəxəssis (5 il) və ya magistr (6 il) dərəcəsi alır. Qazaxıstanda ikinci ali təhsili yalnız ödənişli əsaslarla sürətləndirilmiş qaydada (2-3 il) almaq mümkündür.

VMT könüllü əsasda aparılır, nəticələrinə görə məzun Qazaxıstanın ali təhsil müəssisələrinə daxil ola bilər. VMT-nin qaydaları Qazaxıstan Respublikası Təhsil və Elm nazirinin 5 dekabr 2011-ci il tarixli 506 nömrəli əmri ilə müəyyən edilib. İlk dəfə VMT 1999-cu ildə tətbiq edilib.

VMT aşağıdakı şəxslər üçün keçirilir:

Cari tədris ilində Qazaxıstan Respublikasının universitetlərinə daxil olmaq istəyən məzunlar;

✓ Cari ilin ümumi təhsil fənləri üzrə məktəbli və respublika elm olimpiadalarının qalibləri;

✓ Ümumi orta təhsil haqqında "Altın Belgi" sertifikatı ilə mükafatlandırılanlar və ümumi orta təhsili fərqlənmə attestatı ilə bitirənlər.

VMT-də iştirak etmək üçün ərizələr martın 10-dan aprelin 25-dək qəbul edilir və təhsil aldıqları məktəbdə məzunlar tərəfindən müstəqil şəkildə doldurulur. Bütün test iştirakçıları əvvəlcədən cədvələ uyğun olaraq qruplara bölünür və hər qrup 1 iyun-15 iyun aralığında müəyyən olunmuş bir gündə imtahandan keçir.

VMT beş fənn üzrə aparılır:

Tədris dili (rus və ya qazax);

- Riyaziyyat;
- Qazaxıstanın tarixi;
- Qazax dilində təhsil alan məktəblilər üçün rus, rusdilli orta məktəblərdə təhsil alanlar üçün qazax dili;
- Seçmə fənn (fizika, kimya, dünya tarixi, ədəbiyyat, xarici dil, coğrafiya).

Test tapşırıqları Milli Test Mərkəzi tərəfindən tərtib edilir və yalnız 1-11-ci siniflərdə keçilmiş tədris planı çərçivəsində tərtib olunmuş suallar daxil edilir. Testlər hər il 25% yenilənir. Hər fənn üzrə sualların sayı 25, cəmi isə 125 olur. İmtahan 210 dəqiqə (3,5 saat) davam edir.

İmtahan məktəblərdə deyil, VMT-nin xüsusi məntəqələrində keçirilir, əməkdaşlar binaya xüsusi rejim qaydasında daxil olurlar. Test imtahanlarının keçirildiyi binada imtahanlar üçün istifadə olunmayan bütün otaqlar və auditoriyalar bağlı saxlanılır. Əsas giriş istisna olmaqla, binanın bütün giriş və çıxışları bağlanır və möhürlənir. Abituriyentlər auditoriyaya bir-bir daxil olur, şəxsiyyət sənədi ilə müəyyən edilirlər. İmtahan zalına qələm və kağız parçasından başqa, kalkulyator, şparqalka, dərslik və kitablar, mobil telefon, noutbuk və digər əşyaların gətirilməsi qadağandır. Kənar əşyalar aşkar edildikdə imtahan nəzarətçiləri tərəfindən akt tərtib edilir və həmin şəxsin nəticələri ləğv edilir.

VMT başa çatdıqdan sonra abituriyentlərə ümumi orta təhsil haqqında attestat və sertifikat verilir. Sertifikat imtahan keçirildikdən 3 təqvim günü ərzində VMT-ni keçirən məntəqə tərəfindən təqdim olu-

nur. Sertifikatda hər bir imtahan verilən fənn üzrə və ümumi bal qeyd olunur.

2016-cı ildən başlayaraq VMT-ni uğursuz verən məzunlara təkrarən testdən keçmək üçün ikinci şans verilir. Qeyd olunan imtahan Təhsil və Elm Nazirliyi tərəfindən təyin olunan universitetdə keçirilir.

Təkrar keçirilən test imtahanında dörd fəndən imtahan vermək lazımdır:

- Tədris dili; riyaziyyat; Qazaxıstan tarixi; seçmə fənn.

**Gürcüstan**

Gürcüstanda tələbə olmaq üçün 2005-ci ildən etibarən abituriyentlər Vahid Milli İmtahanda (VMİ) dörd imtahandan keçməlidirlər. Bunlardan üçü məcburidir – gürcü dili və ədəbiyyatı, ümumi biliklər, xarici dil və bir imtahan seçim əsasında ola bilər. Ədəbiyyat, riyaziyyat, tarix, coğrafiya, kimya, fizika, biologiya, təsviri və tətbiqi incəsənət və ya vətəndaş təhsili.

Qeyd etmək lazımdır ki, hazırda Gürcüstanda böyük bir təhsil islahatı həyata keçirilir. Ekspertlər bütün sahələri əhatə edən 10 islahat paketi hazırlayıblar. İslahatlar 4 il davam edəcək. Təhsil Nazirliyinin ən ciddi qərarlarından biri məktəblilər üçün buraxılış imtahanlarının ləğv edilməsidir. Bundan əlavə, 2020-ci ildən etibarən abituriyentlər dörd yox, üç imtahan verəcəklər. Ölkə məktəblərində tədris olunmayan ümumi biliklər fənninin VMİ-dən çıxarılması təklif olunur.

Gürcü dili və ədəbiyyatı, xarici dil üzrə imtahanlar abituriyentlər üçün əvvəlki qaydada məcburi olacaq. Daha öncə abituriyentlər tərəfindən seçilən üçüncu məcburi fənnə gəlincə, bu fənn tədris planına uyğun olaraq universitet tərəfindən müəyyənləşdiriləcək. Yəni texniki istiqamət üzrə imtahan verən abituriyentlər riyaziyyatdan, humanitar istiqamət üzrə isə tarixdən imtahan verəcəklər.

## II. SORĞUNUN NƏTİCƏLƏRİNİN TƏHLİLİ

### II.1. Demoqrafik göstəricilər

Sosioloji sorğunun 1-ci mərhələsi 2019-cu ilin iyun ayının 23-də və iyul ayının 7-də təxminən 400 nəfər abituriyent arasında Bakı (150 nəfər), Sumqayıt (26 nəfər), Gəncə (49 nəfər), Bərdə (25 nəfər), Şəki (29 nəfər), Şirvan (24 nəfər), Xaçmaz (13 nəfər), Göyçay (20 nəfər), Lənkəran (40 nəfər) və Mingəçeviri (24 nəfər) əhatə etməklə anket sorğuları əsasında keçirilmişdir. Abituriyentlərin 370 nəfəri (92,5%) Azərbaycan bölməsində, 30 nəfəri (7,5%) isə rus bölməsində təhsil almışdır. Onlardan 173 nəfəri (43,2%) I qrupa, 74 nəfəri (18,5%) II qrupa, 104 nəfəri (26%) III qrupa, 49 nəfəri (12,3%) IV qrupa sənəd vermişdir.

Abituriyentlərin 221 nəfəri (55,2%) kişi, 179 nəfəri (44,8%) qadın olmuşdur. Sorğuya cəlb olunan abituriyentlərin yaş aralığı 15-25 olmuşdur.

Valideyn və müəllim respondentlərin sayı 139 nəfər (61,8%-i kişi, 38,2%-i isə qadın), yaş aralığı isə 31-64 olmuşdur.






Cədvəl 1. Respondentlərin müxtəlif kriteriyalar üzrə qruplaşdırılması

| Kriteriyalar | Respondent sayı / hədəf qruplar üzrə | Faizlə |
|---|---|---|
| | Abituriyentlər | |
| Kişi | 221 | 55,2 |
| Qadın | 179 | 44,8 |
| | Respondentlərin qruplar üzrə bölgüsü | |
| I qrup | 173 | 43,2 |
| II qrup | 74 | 18,5 |
| III qrup | 104 | 26 |
| IV qrup | 49 | 12,3 |
| | Respondentlərin şəhər və rayonlar üzrə bölgüsü | |
| Bakı | 150 | 37,5 |
| Sumqayıt | 26 | 6,5 |
| Gəncə | 49 | 12,2 |
| Bərdə | 25 | 6,3 |
| Şəki | 29 | 7,3 |
| Şirvan | 24 | 6 |
| Xaçmaz | 13 | 3,2 |
| Göyçay | 20 | 5 |
| Lənkəran | 40 | 10 |
| Mingəçevir | 24 | 6 |
| | Respondentlərin bölmələr üzrə bölgüsü | |
| Azərbaycan bölməsi | 370 | 92,5 |
| Rus bölməsi | 30 | 7,5 |
| | Müəllimlər və valideynlər | |
| Kişi | 86 | 61,8 |
| Qadın | 53 | 38,2 |

### I.2. Buraxılış, ali və orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanlarının yeni modelinə dair məlumatlılıq səviyyəsi

Yeni modelin tətbiqi ilə bağlı aparılan müzakirələrdə səsləndirilən əsas iradlardan biri abituriyentlərin yeni modelin mahiyyətini tam mənimsəyə bilməməsi ilə bağlı idi. Anket sorğularının nəticələri göstərir ki, buraxılış və ali təhsil müəssisələrinə qəbul imtahanlarında 2019-cu ildə tətbiq olunan yeni model ilə bağlı abituriyentlərin 67%-i (267 nəfər) tam məlumatlı, 24%-i (98 nəfər) qismən məlumatlı olmuş, 9%-nin (35 nəfər) isə bu haqda heç bir məlumatı olmamışdır.

Valideynlər və müəllimlər arasında aparılmış sorğunun nəticələrinə görə, respondentlərin 42%-i bu il keçirilən imtahanlarda tətbiq olunan yeni model ilə

bağlı tam məlumatlı, 40%-i qismən məlumatlı olub, 18%-i isə bu barədə heç bir məlumata malik olmayıb.

Ekspertlər bu fikirdədirlər ki, DİM abituriyentlərin yeni modeli mənimsəyə bilmələri üçün sınaq və monitorinq imtahanları keçirib.

Ümumilikdə sorğunun nəticələrinin təhlili bu qənaətə gəlməyə əsas verir ki, DİM tərəfindən bu istiqamətdə bir sıra tədbirlər həyata keçirilsə də, təhsil sisteminin öz daxilindən qaynaqlanan bir sıra səbəblərdən yeni modelin mənimsənilmə səviyyəsi bütün abituriyentləri əhatə edə bilməmişdir. Açıq tipli tapşırıqlarla bağlı verilən suallardan da görünəcək ki, abituriyentlərin bir çoxu yeni təhsil proqramını tam mənimsəyə bilmədiklərindən bu tip sualları cavablandırmaqda çətinlik çəkiblər

**Respondentlərin 85%-dən çoxu yeni imtahan modeli barədə məlumatlıdır.**

Bu məsələ ilə bağlı DİM-in mövqeyi belədir ki, Azərbaycanda müasir testologiyaya uyğun test modelinin tətbiqi, onun abituriyentlər və bütövlükdə cəmiyyət tərəfindən mənimsənilməsi üçün Mərkəz tərəfindən 2012-ci ildən etibarən müvafiq tədbirlər həyata keçirilib, respublikanın əksər ümumtəhsil məktəblərini əhatə edən monitorinq və sınaq imtahanları, keçən ilin sonlarından başlayaraq imtahanlarda tətbiq ediləcək yeni qaydalar və modellər haqqında müxtəlif fənlər üzrə hazırlıq kursları və elmi-metodiki seminarlar keçirilib. Seminarlarda həmçinin "Buraxılış imtahanlarının proqramları, tapşırıq nümunələri və qiymətləndirmə meyarları" mövzularında məruzələr dinlənilib. Müzakirələr nəticəsində dərsliklərdəki mübahisəli məqamlar, səhvlər və uyğunsuzluqlar barədə tövsiyələrin hazırlanması, tövsiyələrin test bankının təkmilləşdirilməsində və yeni tapşırıqların tərtibində nəzərə alınması haqqında qərarlar qəbul olunub.

Bundan başqa, imtahanların məzmunu formalaşdırılarkən ənənəvi test tapşırıqları ilə yanaşı, yeni tipli, o cümlədən açıq tipli test tapşırıqlarının tətbiqi xətti davam etdirilib. Şagird və abituriyentlərin yeni tipli test modelləri haqqında təsəvvürlərini genişləndirmək və bunlarla işləmək vərdişlərini inkişaf etdirmək üçün belə testlərin fənlər üzrə nümunələri ilin əvvəlində "Abituriyent" jurnalında dərc olunub, sınaq imtahanlarında yoxlamadan keçirilib, siniflər üçün test toplularına daxil edilib. Hər bir ixtisas qrupunun test blokuna açıq tipli test tapşırıqları daxil edilib.

Açıq tipli testlər abituriyentlərin bilik və bacarıqlarının hərtərəfli üzə çıxarılmasına, əldə olunmuş biliklərin praktikada tətbiqi mexanizmlərinin inkişaf etdirilməsinə, mənimsəmənin dörd səviyyəsinin – bilik, anlama, tətbiqetmə və bacarığın yoxlanılmasına, xüsusilə də qiymətləndirmədə yüksək hazırlıqlı abituriyentlərin fərqləndirilməsinə imkan verib.

Şagirdləri (gələcək abituriyentləri) və müəllimləri yeni təhsil proqramları (kurikulum) əsasında hazırlanmış qiymətləndirmə vəsaitləri ilə təmin etmək məqsədilə 2 hissədən ibarət kitablar nəşr edilib. Kitabların I hissəsində müvafiq sinif və fənlər üzrə qapalı (çoxseçimli) və açıq tipli test tapşırıqları, II hissəsində isə yeni təhsil proqramı (kurikulum) üzrə qiymətləndirmə tapşırıqları təqdim edilib. DİM-in Naxçıvan, Gəncə, Şəki, Lənkəran, Xaçmaz, Göyçay, Şirvan və Bərdə şəhərlərində fəaliyyət göstərən regional bölmələrinin xətti ilə görülən işlərin həcmi xeyli artıb. Bölmələrin səmərəli fəaliyyəti sayəsində rayonlarda çalışan müəllimlər yalnız təşkilati tədbirlərə deyil, elmi-metodiki işlərə də cəlb ediliblər.



Qəbul imtahanlarına hazırlıq ərəfəsində gənclərin öz bilik səviyyələrini yoxlamaları, test imtahanının texnologiyasına bələd olmaları və imtahana psixoloji cəhətdən alışmaları üçün respublikanın bütün bölgələrini əhatə etməklə sınaq imtahanları keçirilib.

DİM-in regional bölmələrində, həmçinin Azərbaycan Universiteti, Bakı Biznes Universiteti, Qərbi Kaspi Universiteti, Odlar Yurdu Universiteti və Kooperasiya Universitetində ali və orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq istəyən abituriyentlərə kömək məqsədilə ödənişsiz əsaslarla martın 15-dən etibarən "Abituriyent məsləhət mərkəzləri" yaradılıb. "Abituriyent məsləhət mərkəzləri"ndə xüsusi treninq keçmiş əməkdaşlar abituriyentlərə tələbə qəbulu qaydaları, ali və orta ixtisas təhsili müəssiələrinə ərizə qəbulu, "Abituriyentin elektron ərizəsi"nin doldurulma və təsdiqedilmə qaydası və bu zaman qarşıya çıxa biləcək texniki problemlərin həlli, müsabiqə şərtləri, ixtisas seçimi zamanı diqqət yetirilməli olan məsələlər və s. haqqında ödənişsiz kömək göstərilib.

Qeyd edək ki, qəbul imtahanının 1-ci mərhələsində (buraxılış imtahanı) 3 fənn üzrə imtahan verilir və maksimal 300 bal toplamaq mümkündür. Tədris dili fənni üzrə 30 tapşırıqdan 20-si qapalı tipli tapşırıqlardır. Bu tapşırıqlardan 50.00 bal toplanıla bilər.

Riyaziyyat fənni üzrə 25 tapşırıqdan 18-i qapalı və cavabının kodlaşdırılması tələb olunan açıq tipli tapşırıqlardır. Bu tapşırıqlardan 56.25 bal toplanıla bilər. Xarici dil fənni üzrə 30 tapşırıqdan 23-ü qapalı tipli tapşırıqlardır. Bu tapşırıqlardan 62.16 bal toplanıla bilər. Bu mərhələ üzrə abituriyentlər toplaya biləcəkləri 300 baldan 168.41 balı uzun illərdir istifadə olunan qapalı və cavabının kodlaşdırılması tələb olunan açıq tipli tapşırıqlardan əldə edirlər.

Qəbul imtahanının 2-ci mərhələsində 3 fənn üzrə imtahan verilir və maksimal 400 bal toplamaq olar. Hər bir fənn üzrə qapalı və cavabının kodlaşdırılması tələb olunan açıq tipli 27 tapşırıqdan (22 qapalı + 5 ənənəvi açıq) 81.82 bal toplamaq mümkündür. İmtahanda 3 fənn və 2 əsas fənn üzrə çəki əmsalının 1.5 olduğunu nəzərə alsaq ümumilikdə 327.28 bal toplamaq olur. Yəni abituriyentlər imtahanın ikinci mərhələsində toplaya biləcəkləri 400 baldan 327.28 balı qapalı və cavabı kodlaşdırıla bilən açıq tipli tapşırıqlardan əldə edirlər.

Beləliklə, abituriyentlər imtahanın hər iki mərhələsi üzrə toplaya biləcəkləri 700 baldan 495.69 balı uzun illərdir istifadə olunan qapalı və cavabı kodlaşdırıla bilən açıq tipli tapşırıqlardan əldə edirlər. Onlar yeni növ, yəni yazılı cavab vermək tələb olunan açıq tipli tapşırıqlardan isə 204.31 bal toplaya bilərlər.

### II.3. Yeni modelin tətbiqində əsas məqsəd

Valideyn və müəllimlər arasında keçirilmiş sorğunun nəticələrinə görə, respontentlərin 16,3%-nin fikrincə, imtahanlarda yeni modelin tətbiqi orta məktəblə ali təhsil arasındakı əlaqəni gücləndirməkdir. Bu fikirlə respondentlərin 14%-i razı, 32,5%-i isə qismən razı olub. Respondentlərin 16,2%-i bu fikirlə razı deyil, 14%-i heç razı deyil, 7%-i isə cavab verməkdə çətinlik çəkdiyini qeyd edib.

"İmtahanlarda yeni modelin tətbiqi orta məktəblə ali təhsil arasındakı əlaqəni gücləndirməkdir" fikri ilə müsahibədə iştirak edən Milli Məclisin Elm və təhsil komistəsinin üzvləri arasında da müxtəliffikirlilik müşahidə edilir: "Bu, bilavasitə qəbul imtahanlarının ali məktəblərlə əlaqəsi ilə bağlı deyil, əsasən kurikulum proqramının tətbiqi ilə əlaqədar yeni imtahan modelinə keçidlə bağlıdır. Ona görə ki, yeni proqram başqa tələblər ortaya qoyur. Ümumiyyətlə, bu təhsil



proqramının əsas tərəflərindən biri uşaqların düşüncəsini, təfəkkürünü inkişaf etdirmək, onlara hazır biliyi deyil, biliyi özünün əldə etməsini öyrətməkdir. Bu baxımdan indiki sualların modeli də dəyişib. Düşündürücü, açıq, daha çox məntiqə və düşüncəyə əsaslanan, özünün şəxsi fikirlərini ortaya qoyan bir imtahan modelidir. Düzdür, orada da imtahan müəyyən kriteriyalarla yoxlanılır, müəllimlərə yoxlama üçün tövsiyələr verilib. Ancaq hər bir halda bu, bilavasitə yeni təhsil proqramının orta məktəblərdə tətbiqi ilə əlaqədar idi. Çünki ilk dəfə həmin proqrama uyğun imtahan modeli tətbiq edildi" *(Sona Əliyeva);* "Ali təhsil müəssisələrinə qəbulda orta ümumtəhsil müəssisələrində buraxılış və qəbul imtahanlarının ballarının toplanması hər iki təhsil müəssisəsinin bir-biri ilə əlaqəsinin vacibliyini bir daha gündəmə gətirdi. Yeni model son illərdə yaranan "şagird orta məktəb proqramına uyğun hazırlaşmaqla, yəni heç bir repetitor yanına getmədən ali məktəbə daxil ola bilməz" fikrinin yanlışlığını ortaya qoydu. Belə ki, şagirdlərin buraxılış imtahanında topladığı nəticələrin qəbul imtahanlarında nəzərə alınması birbaşa orta məktəblə ali təhsil arasındakı əlaqənin gücləndirilməsinə xidmət edir. Buraxılış və qəbul imtahanlarının modelinin dəyişdirilməsi ən başlıcası orta məktəblərdə təhsilin keyfiyyətinin yüksəldilməsinə, mövcud nöqsanların aradan qaldırılmasına xidmət edir. Şagirdlərin buraxılış imtahanında topladığı nəticələrlə qəbul imtahanlarında topladığı nəticələrin cəmlənməsi orta ümumtəhsil məktəbləri ilə ali təhsil müəssisələri arasında əlaqəni daha da gücləndirdi. Həmçinin yeni model orta ümumtəhsil müəssisələrində tədrisə daha məsuliyyətlə yanaşılması tələbini qarşıya qoymaqla yanaşı, attestat imtahanlarının statusunu da qaldırdı. Yeni model orta məktəblərin nüfuzunu qaldırdı, buraxılış imtahanlarının nəticələrinin ali məktəblərə qəbul zamanı nəzərə alınması şagirdlərin buraxılış imtahanlarına məsuliyyətini artırdı" *(Pərvin Kərimzadə).*

**Respondentlərin 60%-dən çoxu bu fikirdədir ki, yeni modelin əsas hədəfi orta məktəblə ali təhsil arasındakı əlaqəni gücləndirməkdir.**

Bu məsələ ilə bağlı **Təhsil Nazirliyinin** mövqeyi belədir: "Yeni model özündə daha çox biliyə əsaslanan təhsili ehtiva edir və bacarıqların köhnə modellə ölçülməsi bir o qədər mümkün deyil, yəni bir qədər fərqli yanaşma tələb edirdi. Bu da ikinci zərurət idi. Birinci zərurət ondan ibarətdir ki, bir tərəfdən məzunlar yeni proqramla oxuyublar və bu proqramı bitirəndə yeni modelə, ölçmə alətlərinə ehtiyac yaranır. Eyni zamanda da bazarın, cəmiyyətin, dövrün tələbləri dəyişir və həmin tələblərin, dəyişikliklərin ölçülməsi yeniliklərə zərurət yaradır. Məlumdur ki, 11-ci sinfi bitirən uşaqlar iki dəfə imtahan verirdilər. Buraxılış imtahanı onların sonrakı həyatlarına o qədər də təsir etmirdi. Sonra isə qəbul imtahanları əsasında ali təhsil müəssisələrinə qəbul olunurdular. Yeniliklərdən sonra buraxılış imtahanları qəbul imtahanlarının bir hissəsi hesab edilir. Ümumilikdə, bu dəyişikliyin əsas nəticələrindən biri də odur ki, məktəbin müəyyən mənada rolu artır. Çünki buraxılış imtahanlarında əldə olunan nəticələr məzunun ali təhsil müəssisələrinə qəbulunda rol oynamağa başlayır. Təbii ki, birinci ildir və müəyyən çətinliklər var. Ancaq ümumilikdə istiqamət düzgündür və tədricən müəllimlər, şagirdlər, valideynlər və ictimaiyyət bu dəyişikliyə öyrəşəcək. İmtahanlar, yaxud ölçmə və qiymətləndirmə məzmuna uyğun olmalıdır. Yəni məzmun dəyişirsə, ölçmə və qiymətləndirmə də dəyişir".

Beləliklə, həm anket, həm də müsahibə sorğularının nəticələri göstərir ki, ümumilikdə yeni modelin tətbiqi orta məktəblə ali təhsil arasındakı əlaqəni gücləndirir, həmçinin orta ümumtəhsil müəssisələrinin müəyyən mənada rolu artır və xüsusilə məktəblərdə yeni proqramın – kurikulumların tədrisinə daha məsuliyyətlə yanaşılması tələbini qarşıya qoyur.

### II.3.1. Azərbaycanın təhsil sistemi üçün yeni modelin faydalılıq səviyyəsi

Respondenlərin 52%-i (203 nəfər) builki yeni qəbul modelini Azərbaycanın təhsil sistemi üçün heç faydalı hesab etmir, 35%-i (138 nəfər) qismən faydalı hesab edir, 13%-i (50 nəfər) isə çox faydalı hesab edir.

Sorğuda iştirak edən valideyn və müəllim respondentlərin yalnız 10%-i yeni qəbul modelini Azərbaycanın təhsil sistemi üçün çox faydalı hesab edir, 32,5%-i qismən faydalı hesab edir. 42,5% respondent bu fikirdədir ki, yeni modelin təhsil sistemimiz üçün heç bir faydası yoxdur, 15% respondent bu suala cavab verməkdə çətinlik çəkib.

Sorğunun nəticələrindən belə aydın olur ki, respondentlərin ümumilikdə 50%-dən çoxu yeni modeli təhsil sistemimiz üçün faydalı hesab etmir.

Müsahibədə iştirak edən MM-in Elm və təhsil komitəsinin üzvləri ümumilikdə yeni modelin faydalılığı haqqında fikir yürütməyin hələ tez olduğu qənaətindədirlər: "Azərbaycan təhsilində də müvafiq olaraq beynəlxalq standartlara cavab verən bir sistem olmalıdır. Bu modelin faydalı olub-olmaması haqqında danışmaq hələ ki tezdir. Çünki bu model birinci dəfədir ki, tətbiq olunub və hansı nəticələri verəcəyi hələ bilinmir" *(Kamilə Əliyeva);* "Təhsilin keyfiyyətinin yüksəldilməsi, inkişafı, nöqsanların aradan qaldırılması təkcə təhsil sahəsində çalışanları, elmi işçiləri, dərslik müəlliflərini, valideynləri narahat et-

mir. Təhsil sistemi və onun məzmunu ölkənin gələcəyinə xidmət etdiyi üçün bu sahə bütün ictimaiyyəti narahat edir, düşündürür, çıxış yolları axtarmağa məcbur edir. Ümid edirik ki, yeni qəbul modelində aparılan axtarışlar, islahatlar tədrisin keyfiyyətinin yüksəldilməsinə xidmət edəcək. Gələcəkdə daha da təkmilləşdirilərək ölkəmizin gələcəyi olan gənclərin bilikli və bacarıqlı olmalarına, qəbul imtahanlarında yüksək nəticələrin əldə edilməsinə yeni töhfələr verə biləcək" *(Pərvin Kərimzadə);* "Orta məktəblərin buraxılış imtahanlarında şagirdlərin topladıqları balın ali məktəblərə qəbul imtahanlarında toplanan ballarla birgə hesablanması ideyasını faydalı hesab edirəm. Bu, orta məktəblərdə təhsilin keyfiyyətinə müsbət təsir edə, şagirdlərin ali təhsil almağa həvəsini artıra bilər *(Musa Qasımlı);* "Bu model müəllimlər, uşaqlar və məktəblər, hətta DİM üçün də bir yenilikdir. Bu sistemi indi işləyib hazırlayırıq, ona görə də onun çox səmərəli və ya faydalı olduğunu deyə bilmərəm. Zaman bu modeli ya yaxşı bir şəkildə sistemə oturdacaq, ya da yaxşı olmayan tərəflərini rəndələyəcək, düzəldəcək. Biz hansı yol alacağımızı zamanla görəcəyik. Ancaq yüksək nəticə göstərən uşaqların nəticəsinə təsir göstərməyəcək. İstedadlı uşaqlar yenə ali məktəblərə qəbul olacaq, yəqin ki, ballar keçənilkinə nisbətən aşağı olacaq. Hər bir halda bu zaman keçid balları da aşağı olacaq. Düşünmürəm ki, bu, ümumiyyətlə sırf universitetə qəbula hər hansı təsir göstərsin. Ola bilər ki, prezident təqaüdü alanların, 700 bal toplayanların sayı az olsun. Ancaq ümumi formada hər hansı zərərli təsiri olmayacaq" *(Sona Əliyeva).*

DİM-in Direktorlar Şurasının sədri Məleykə Abbaszadə bu ilin iyun ayında APA-ya verdiyi müsahibəsində qeyd etmişdi ki, "yeniliklər mütləq olmalıdır. Hər bir canlı sistem müəyyən müddətdən sonra dəyişməlidir. O ki qaldı, imtahan və qəbul sisteminə, hər bir model minimum 2 il, maksimum 5 il işlək olur. 5 ildən sonra onu təftiş etmək və yenidən baxmaq lazımdır. Hər 5 ildən bir müəyyən dəyişikliklər baş verə bilər. Zaman dayanmır, zamanın tələbləri də dəyişir. Əgər biz qlobal müstəvidə dünyada gedən yarışa qoşulmaq istəyiriksə, dəyişikliklər qaçılmazdır. Tarix XX əsrin 80-ci illərində və 90-cı illərin əvvəllərində bizə çox ciddi dərslər verib. O dərslərin acı nəticələrini biz hələ də hiss edirik və yaşayırıq. Gərək baş verənlərdən nəticə çıxaraq və bir daha təkrarlanmaması üçün daha çox çalışaq".

**50%-dən çox respondent yeni imtahan modelini Azərbaycanın təhsil sistemi üçün faydalı hesab etmir.**

Təhsil Nazirliyinin ekspertinin fikrincə, Azərbaycanın təhsil sistemi üçün bu imtahan modeli birmənalı olaraq faydalıdır: "Təhsil getdikcə beynəlmiləlləşir. Bu nə deməkdir? Sistemlər bir-biri ilə çox yaxınlaşır. Məsələn, Azərbaycan beynəlxalq qiymətləndirmədə iştirak edir və lakin orada nəticələrimiz elə də yüksək deyil. Çünki bizim müəllimlərin yanaşması və məktəbədəki tədrisin məzmunu həmin o standarta uyğun deyil. Biz inanırıq ki, uşaq 1-ci sinifdə dodaqlanan və dodaqlanmayan saitləri bilməlidir. Beynəlxalq standarlara görə, uşaq 1-ci sinfin sonunda təxminən 100-150 sözdən ibarət mətni oxuyub anlamalı və bununla bağlı suallara cavab verməlidir. Biz deyirik ki, 1-ci sinfin sonunda istəsək də, istəməsək də, bizi bu testlə ölçəcəklər. Bunun ağır olması isə emosional mövqedir. Reallıq odur ki, əgər beynəlxalq qiymətləndirmədə iştirak etmək qərarı veririksə, özümüzü buna



uyğunlaşdırmalıyıq. Çünki bu, bizim arzumuza bağlı deyil, müəllimin yanaşması dəyişməlidir".

Təhsil ekspertləri də belə fikirdədirlər ki, yeni imtahan modeli ideal olmasa da, hazırda optimal model sayıla bilər və bu sahədə təkmilləşmə prosesi də, şübhəsiz ki, qaçılmaz xarakter alacaq.

Onu da əlavə edək ki, ABŞ-ın Azərbaycandakı səfirliyinin dəstəyi ilə həyata keçirilən "İngilis dili mütəxəssisi" proqramı çərçivəsində DİM tərəfindən ingilis dili fənni üzrə bilik və bacarıqların qiymətləndirilməsi istiqamətində görülən işlərə kömək göstərmək məqsədilə Bakıya gələn amerikalı mütəxəssis **Neytn Kar** qeyd edib ki, "müşahidələrimin, eləcə də aparılan müzakirələrin nəticəsi olaraq deyə bilərəm ki, Azərbaycanda imtahan üçün müasir testologiyaya uyğun olan test modeli tətbiq edilir. Azərbaycanın ərazi baxımından böyük olmadığını və test hazırlanması üzrə mütəxəssislərin o qədər də çox olmadığını nəzərə alaraq, bu günədək müvafiq istiqamətdə görülən işlər xüsusi alqışlanası bir haldır".

### II.4. Yeni tədris proqramının (kurikulumların) "sınaq" imtahanı: 10 illik təcrübə və gözləntilər özünü doğrultdumu?

Builki yeni imtahan modelini Azərbaycan təhsil sistemində 2008-ci ildən tətbiq dilən yeni tədris proqramının – kurikulumların ikinci daha geniş "sınaq" imtahanı kimi də qeyd etmək olar. Məsələ ondadır ki, 2017-ci ildə yalnız 9-cu siniflərin buraxılış imtahanında tətbiq edilən bu model bu il ümumrespublika səviyyəsində "sınaqdan" keçirildi. Bu kontekstdə onu da əlavə edək ki, 2006-cı ildə Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən "Azərbaycan Respublikasında ümumi təhsilin konsepsiyası (Milli Kurikulumu)" təsdiq edildi, həmin sənəd 2010-cu ildə "Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)" adı ilə təkmilləşdirildi. Sənəddə ümumi təhsilə yönəlmiş əsas tələblər kimi nəticəyönümlülük və inteqrativlik prinsiplərinin tətbiqi, şagirdlərin potensialının aşkarlanması, müstəqil həyatda lazım olan zəruri biliklərin və əqli, informativ-kommunikativ bacarıqların aşılanmasının təmin edilməsi nəzərdə tutulur. Yeni dövlət standartlarına görə, ümumi təhsilin idarə olunması hesabatlılıq, məsuliyyətin bölüşdürülməsi və inkişafın monitorinqi prinsipləri əsasında həyata keçirilməli, hesabatlılıq nəticə etibarilə ümumi təhsilin həyata keçirildiyi müəssisədə kollektivin hər bir üzvünün cavabdehliyini təmin etməlidir.

Eyni zamanda, sənəd ümumi orta təhsili başa vurmuş şagirdlərin nələri bacarmalı olduqlarını da ətraflı müəyyən edir. Təhsilin bu pilləsinə gəlib çatmış uşaq dinlədiyi və oxuduğu müxtəlif üslubda və janrda olan mətnləri təhlil etməyi, onların məzmununu yığcam, həm də qismən geniş formada başqasına çatdırmağı, nitqin monoloq və dialoq formalarından istifadə etməyi, plan, tezis, layihə və rəy hazırlamağı, nümunələr və dəlillər vasitəsilə fikirlərini məntiqi cəhətdən əsaslandırmağı, müxtəlif fikirlərdə ifadə olunan başlıca məqamları ümumiləşdirməyi, hesablamalar və proqnozlaşdırma aparmağı, riyazi dildən istifadə etməyi, alqoritmlər qurmağı, ehtimallar irəli sürməyi, təlim prosesində yaradıcılıq tələb edən işləri müstəqil yerinə yetirməyi, xarici dildə ünsiyyət qurmağı və s. bacarmalıdır.

Bundan başqa, Prezidentin 24 oktyabr 2013-cü il tarixli sərəncamı ilə təsdiq edilmiş "Təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın strateji hədəfləri kimi şəxsiyyətyönlü təhsil məzmununun yaradılması, təhsil sahəsində insan resurslarının müasirləşdirilməsi, təhsildə nəticələrə görə cavabdeh, şəffaf və səmərəli idarəetmə mexanizmlərinin yaradılması kimi mühüm istiqamətlər müəyyən edilib. Bu hədəflər çərçivəsində təhsilverənlərin peşəkarlığının yüksəldilməsi, təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsi üzrə yeni sistemlərin qurulması, təhsilalanların istedadının aşkar olunması, bütün təhsil pillələri üzrə kurikulumların inkişaf etdirilməsi, təhsilin keyfiyyətinin təminatı və idarə olunması üzrə yeni məlumat və hesabat sistemlərinin yaradılması kimi istiqamətlərin reallaşdırılması nəzərdə tutulur.

Bəs yeni tədris proqramlarının 10 illik təcrübəsi ilə bağlı ölkədə real mənzərə necədir? Abituriyentlər kurikulumların mahiyyətini mənimsəyə biliblərmi?

Sorğuda iştirak edən respondentlərin 29%-i (117 nəfər) bu qənaətdədirlər ki, yeni qəbul imtahanının məzmunu onlara tədris olunan fənlərə və yeni proqrama (kurikulumlara) tamamilə uyğun tərtib edilib, 32% (127 nəfər) uyğun tərtib edildiyi, 29% (117 nəfər) qismən uyğun tərtib edildiyi fikrindədir. Abituriyentlərin 6%-i (22 nəfər) yeni qəbul imtahanının məzmunun onlara tədris olunan fənlərə və yeni proqrama (kurikulumlara) uyğun tərtib edilmədiyini, 4% isə (17 nəfər) heç uyğun tərtib edilmədiyi düşüncəsindədir.

**Respondentlərin 90%-ə yaxını bu fikirdədir ki, yeni qəbul imtahanının məzmunu onlara tədris olunan fənlərə və yeni proqrama (kurikulumlara) uyğun tərtib edilib.**

Valideyn və müəllimlər arasında keçirilmiş sorğunun nəticələrinə görə isə, respondentlərin 7,1%-nin fikrincə, yeni qəbul imtahanının məzmunu şagirdlərə tədris olunan fənlərə və yeni proqrama (kurikulumlara) tamamilə uyğun tərtib edilib, 16,7%-nin fikrincə, uyğun tərtib edilib, 47,6%-nin fikrincə isə qismən




uyğun tərtib edilib. Respondentlərin 26,2%-i "uyğun tərtib edilməyib", 2,4%-i isə "heç uyğun tərtib edilməyib" fikrini səsləndiriblər.

Beləliklə, rəyi soruşulan abituriyentlərin 90%-i, valideyn və müəllimlərin 71,4%-i yeni qəbul imtahanının məzmununun orta ümumtəhsil müəssisələrində tədris olunan fənlərə və yeni proqrama (kurikulumlara), demək olar ki, uyğun tərtib olunduğu qənaətindədirlər.

Maraqlıdır ki, valideynlərlə müsahibə metodu ilə aparılan sorğu nəticəsində məlum olub ki, onların əksəriyyəti orta məktəblərdə kurikulum sisteminin tətbiqindən narazılıq edirlər. Onların fikrincə, açıq tipli suallar haqqında şagirdlər məktəblərdə tam məlumat əldə edə bilmədiklərindən, yəni ümumilikdə kurikulumun mahiyyətini tam dərk edə bilmədiklərindən bu tip sualları cavablandırmaqda çətinlik çəkir, vaxtlarını düzgün bölüşdürə bilmirlər.

Qeyd edək ki, rəsmi izaha görə, yeni milli kurikulumun tətbiqi ümumtəhsil məktəblərində tədris olunan fənlərin cəmiyyətin tələbatına uyğun təkmilləşdirilməsini, təlimdə interaktivliyi təmin etməli, şagirdlərdə düşünmə və təfəkkürü inkişaf etdirməklə onları əzbərçilikdən uzaqlaşdırmalı idi. Yeni sistem qruplarda mükaliməyə və "beyin həmləsi"nə əsaslanan qarşılıqlı müzakirələrin təşkilinə, hər bir şagirdin həm qrup daxilində, həm də fərdi əsaslarla təlim prosesinə cəlb olunmasına imkan yaratmalı idi. Ənənəvi mexanizmlərdən imtina şagirdlərin biliyinin qiymətləndirilməsi ilə də bağlı yeni mexanizmlər və fərqli məzmun standartı ortaya qoydu.

Rəsmi izahlarda biliyin qiymətləndirilməsi üçün təklif olunan yeni üsulların öncəki (ənənəvi) metodlardan fərqləri də önə çəkilir. Məsələn, ənənəvi dəyərləndirmənin əsasən şagirdlərin biliklərini, yeni mexanizmin isə nailiyyətlərini qiymətləndirdiyi vurğulanır. Yaxud əvvəlki sistemin yalnız gündəlik və yekun ölçməyə əsaslandığı, yeni sistemin isə tədris prosesinin bütün mərhələləri üzrə diaqnostik (şagirdin ilkin bilik və bacarığının ölçülməsi), formativ (şagirdin zəif və güclü tərəflərini qiymətləndirmək üçün bütün tədris boyu monitorinq) və summativ (son nəticəni ölçmək üçün daxili və xarici dəyərləndirmə) qiymətləndirməni həyata keçirdiyi bildirilir.

Yeni məzmun standartına görə, şagirdlərin qazandığı biliklər praktik çalışmalarda tətbiq ediləcəksə, onların məntiqi düşünmə qabiliyyəti daha da güclənəcək. Eyni zamanda, şagirdlərin gördüyü təsvirlər haqda mühakimələrə şərait yaradılması, çıxışlarında bədii təsvirlərdən və emosional fəaliyyətlərdən (şərh etmək, reaksiya vermək, rəqs etmək) geniş istifadə, nitq qabiliyyətinin gücləndirilməsi məzmun dəyişikliklərinin əsas hədəfləri sırasında idi.

Elm və təhsil komitəsinin üzvləri orta ümumtəhsil müəssisələrində tətbiq olunan yeni proqramla (kurikulumlarla) bağlı problemlərin hələ də qaldığı qənaətindədirlər: "Kurikulumlarla əlaqədar böyük və kiçik summativlərin miqdarının çoxluğu narahatlıq doğurur. Təhsil Nazirliyi tərəfindən bu sahədə bir sıra problemlər qismən aradan qaldırılsa da, vəziyyət hələ də qənaətbəxş deyil, summativlərin sayı azaldılmalıdır. Çünki bu, uşaqlarda psixoloji problemlər yaradır" *(Kamilə Əliyeva)*; "Ümumiyyətlə, proqram yaxşıdır, ancaq fənn kurikulumlarında müəyyən səhvlər var ki, Təhsil Nazirliyi onların üzərində yenidən işləyir. Təhsil elə bir sahədir ki, biz hansısa modeli özümüzdə tətbiq edə bilmərik. Mütləq zaman keçdikcə onu özümüzə uyğunlaşdırmalıyıq. Harada bizim milli-mənəvi dəyərlərimizə, mentalitetimizə uyğun olmayan tərəflər varsa, onlar sıradan çıxacaq. Çünki hər bir millətin hətta təhsilalma səviyyəsində də özünün spesifik xüsusiyyətləri var. Düşünmürəm ki, fənn kurikulumları

tam olaraq bizim üçün əla oldu. Bunun müəyyən tərəfləri var, ancaq bunun mənfi tərəfləri daha çox ondan ibarətdir ki, tətbiq etmədə bizim öz problemlərimiz var. Çünki müəllimlərin əksəriyyəti kurikulumların fəlsəfəsini dərk etmir və onlar kurikulum adı altında uşaqlara ancaq hazır bilik verməyə çalışırlar. Burada müəllim sanki öz biliyini göstərir və nəticədə onların arasında rəqabət ortaya çıxır. Ona görə də bunun üzərində işləmək və müəllimlərin düşüncə tərzini dəyişmək lazımdır. Çünki uşaqların yaş xüsusiyyətləri həm fizioloji, həm də intellektual olaraq elədir ki, onlara nəyi, necə versək, elə də qavrayacaqlar. Ona görə də tədrisdə olan problemləri uşaqlarda deyil, müəllimlərdə və tədris proqramlarının tətbiqində axtarmaq lazımdır. Məsələn, elə məktəblər var ki, çox yüksək nəticə verir, elə məktəblər də var ki, yaxşı nəticə vermir. Ümumiyyətlə, fənn kurikulumlarını hər il təkmilləşdirmək lazımdır. Hər il monitorinqlər keçirilməli və bunun əsasında da tədqiqatlar aparılmalıdır. Ümumilikdə, proqramın fəlsəfəsini bəyənsəm də, təbii ki, ideal deyil. Proqramın səmərəli olması üçün müəllimlərlə işləmək, onlara treninq və təlimlər keçmək lazımdır. Aparılacaq tədqiqatlar nəticəsində proqramın harada və niyə səmərə vermədiyini tapmaq lazımdır. Düşünürəm ki, monitorinq əsasında həm də proqramı təkmilləşdirmək mümkün olacaq" *(Sona Əliyeva);* "Bu gün Azərbaycan təhsili dünya təhsilinə inteqrasiya edir. Vaxtilə sovet hökuməti qurulanda Almaniya təhsil modeli bəyənildi və tətbiq edildi. Lakin tətbiq edilən zaman həmin model identifikasiya olundu. Müstəqillik dövründə dünyanın inkişaf etmiş ölkələrinin ən qabaqcıl təhsil sistemlərindən bəhrələnərək milli təhsil modelimizi yaratdıq. On ildən artıqdır ki, Azərbaycan təhsilində kurikulum sistemi tətbiq edilir. Bu müddət ərzində kurikulum islahatları da yeniləndi, günün tələblərinə uyğun inkişaf etdi. Sözsüz ki, iş olan yerdə nöqsanlar da olar. On il ərzində aparılan islahatlar, alınan nəticələr kurikulum islahatlarının müsbət və mənfi cəhətlərinin olduğunu sübut etdi" *(Pərvin Kərimzadə);* "Orta məktəblərin səviyyəsi bizi qane etmir. Təhsil və tədris prosesinin üzərində çox ciddi işləmək lazımdır" *(Asim Mollazadə);* "Tədris proqramı bu və ya başqa adlar altında və səviyyədə məktəblərin əsası qoyulandan bəri daim olub. Kurikulum elə tədris proqramı deməkdir. Onsuz təhsil olmaz ki? Mən süni şəkildə, yerli şəraiti nəzərə almadan hər hansı bir formanın tətbiqinin daim əleyhinə olmuşam. Hər hansı bir sistem və ya formanın tətbiqi üçün ilk növbədə yerli şərait, imkan və kadrlar nəzərə alınmalıdır. Hər şeyi kadrlar həll edir. Təhsil sistemində inqilab olmur. Hər şey tədricən, islahatlar yolu ilə, təkamüllə getməlidir. Nələr fayda vermirsə, hay-küysüz, sakitcə islah edilməlidir" *(Musa Qasımlı).*

Təhsil Nazirliyinin eksperti yeni tədris proqramı ilə bağlı problemləri köhnə sistemdən yeni sistemə keçidlə əlaqələndirib: "Bu, bir keçid dövrüdür. Bu cür dəyişikliklər çox qısa müddətdə olmur. 90-cı illərdə test sistemi adı altında mövcud sistem tətbiq ediləndə insanların müəyyən narahatlığı var idi. Ancaq 28 il sonra bu gün hər yerdə test tələb olunur. Zaman etibarilə dəyişikliklərə hamı uyğunlaşır, əsas odur ki, düzgün dəyişikliklər düzgün istiqamətdə getsin. Bu gün bu sualın cavabı odur ki, bəli uyğunlaşır. Eyni zamanda, uyğunlaşma get-gedə daha da təkmilləşəcək".

Təhsil ekspertləri isə daha sərt mövqedən çıxış edirlər: "2008-ci ildən kurikulum tətbiq edildikdən sonra yazılan dərsliklərdə varislik və vahidlik prinsipi gözlənilmədi. Bu da nəsillər arasında əlaqələri pozdu, əvvəlki illərdə məzun olanlar yeni kitabları oxuyub anlamaqda çətinlik çəkməyə başladılar. Dərslik fikir laboratoriyasıdır, tapşırıqlarda əlavə göstərişlər olmalı, şagirdə seçim imkanı verilməlidir. O zaman şagird riyaziyyatı yox, riyaziyyatın köməyi ilə həyatı öyrənəcək. Hesab edirəm ki, hazırda orta məktəb şagirdləri üçün nəzərdə tutulmuş dərs vəsaitləri 6-17 yaşında olan insanın beyninə uyğun deyil. Dərsliklərin məzmunundan belə məntiq çıxır ki, bu dərslikləri oxuyub başa vuran şagirdin elmi dərəcəsi olmalıdır. Çünki dərsliklərə demək olar ki, bakalavr, magistr pilləsində keçilən mövzular daxil edilib" *(Kamran Əsədov).*

Onu da əlavə edək ki, DİM tərəfindən 2019-cu ilin yanvar ayından yeni təhsil proqramı (kurikulum) əsasında qiymətləndirmə vasitələrinin işlənməsi və onların meyarlar əsasında yoxlanılmasına dair hazırlıq kurslarına qeydiyyat aparılıb. Kursu müvəffəqiyyətlə başa vuran iştirakçıların şəxsi məlumatları Mərkəzin elektron "Məlumat bazası"na daxil edilib, onlara sonda sertifikat verilib. Onlar müqavilə əsasında ekspert və ya marker kimi Mərkəzlə əməkdaşlığa cəlb olunublar. Hər fənn üzrə kursun müddəti 2 ay olub. Kurslar Bakıda, Mərkəzin Naxçıvan, Gəncə, Şəki, Lənkəran, Xaçmaz, Bərdə, Göyçay, Şirvan və Şəmkir regional bölmələrində təşkil edilib. Hazırlıq kurslarında fənn kurikulumlarına dair məlumatı olan müəllimlər, metodistlər və pedaqoji yönümlü ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinin müvafiq fənn üzrə təhsil alan axırıncı kurs tələbələri və həmin müəssisələrdə təhsil alan magistrlər də iştirak etmək imkanı əldə ediblər.

### II.5. Yeni modelin tətbiqi: test üsulunun sonu, yoxsa yeni mərhələyə keçid?

"Buraxılış və qəbul imtahanlarında yeni modelin tətbiqini "test üsulunun sonu" kimi qəbul etmək olarmı?" fikri ilə respondentlərin 17%-i (68 nəfər) tam razı, 22,5%-i (90 nəfər) razı, 30,5%-i (122 nəfər) qismən razıdır. Respondentlərin 21,5%-i (84 nəfər) bu fikir ilə razı deyil, 8,5%-i (31nəfər) isə heç razı deyil.




**50%-dən çox respondent yeni modelin tətbiqini "test üsulunun sonu" kimi qəbul edir.**

Valideyn və müəllim respondentlərin 7,5 %-i tam bu qənaətdədir ki, yeni modelin tətbiqini test üsulunun sonu kimi qəbul etmək olar, 22,5% bu fikirlə razı, 30%-i qismən razıdır, 32,5% razı deyil, 7,5%-i heç razı deyil.

MM-in Elm və təhsil komitəsinin üzvlərinin bu mövzuya münasibəti belə olub: "Sovet dövründəki qəbul imtahanlarının yenidən bərpa olunmasının tam əleyhinəyəm. Məncə, test üsulu yaxşı bir üsul idi ki, o da tətbiq olundu. İmkansız ailələrin uşaqları test üsulu ilə ali məktəblərə daxil oldular, tam obyektivlik bərpa olundu. Fikrimcə, test üsulu daha da təkmilləşdirilməlidir. Hər bir abituriyent üçün ali məktəbə qəbul əlçatan olmalıdır, təhsilin də keyfiyyəti yüksəlməlidir. Biz yalnız bu yolla savadlı mütəxəssislərin hazırlanmasına nail ola bilərik. Sirr deyil ki, respublikada ali təhsil ocaqlarına qəbul ola bilməyən abituriyentlər qonşu və ya xarici ölkələrə üz tuturlar, yalnız attestatla ali təhsil almağa gedirlər. Bu həm ölkədən valyuta axınına, həm də sonradan həmin diplomların tanınmasında problemlərin yaranmasına, o cümlədən valideynlərin etirazına səbəb olur. Hansısa ölkədə ali məktəbi bitirən və diplomu Təhsil Nazirliyində tanınmayan tələbələrin valideynləri mənə dəfələrlə müraciət edirlər. Onlar çox vaxt bu barədə ya məlumatlı olmurlar, yaxud da bilərəkdən diplom almaq xatirinə övladlarını xaricdə təhsilə göndərirlər. Bu baxımdan da valideynlərin maariflənməsi də vacibdir. Bütün bu axının qarşısını almaq üçün qəbul prosesi asanlaşmalıdır. Yəni hər kəs ali məktəbə daxil ola bilər, ancaq əsas məsələ onu oxuyub bitirməkdir" *(Kamilə Əliyeva)*; "Mən test üsulunun nə vaxtsa ləğv olunacağı düşüncəsində deyiləm. Ona görə ki, testin özündə də çox düşündürücü məqamlar var. Məsələn, müxtəlif fənlərdə – tarixdə, coğrafiyada elə məsələlər var ki, uşaqlar onları özləri həll edərək tapmalıdırlar və orada əzbərçilik yoxdur. Test üsulu bütün dünyada tətbiq olunan bir imtahan üsuludur. Ancaq hər bir halda bu, yeni yanaşmadır, zamanla təkmilləşəcək *(Sona Əliyeva)*; "Yeni model test üsulunun sonu deyil, lakin daha da mükəmməl bir sistemi formalaşdırmağa ehtiyac var" *(Asim Mollazadə)*.

Bəzi təhsil ekspertləri bu qənaətdədirlər ki, "test üsulundan daha yaxşı bir sistem ortaya qoya bilmədiyimiz üçün bu model seçilib." *(Elşən Qafarov)*.

### II.5.1.Test üsulu ilə qəbul əzbərçi nəsil yetişdirirmi?

"Test üsulu ilə qəbul əzbərçi nəsil yetişdirir" fikri ilə respondentlərin 25,5%-i (102 nəfər) tam razı, 15%-i (59 nəfər) razı, 22,5%-i (90 nəfər) qismən razıdır. Respondentlərin 21%-i (83 nəfər) bu fikir ilə razı deyil,16%-i (64 nəfər) heç razı deyil.

Valideyn və müəllim respondentlərin 20%-i bu fikirlə tam razı, 20%-i razı, 22,5%-i isə qismən razıdır. 15% razı deyil, 22,5% heç razı deyil.

''Test üsulu ilə qəbul əzbərçi nəsil yetişdirir" fikri ilə razılıq dərəcəsi III qrupu seçən abituriyentlər arasında digər qruplara nisbətdə daha geniş müşahidə edilib.

Maraqlıdır ki, valideynlərlə müsahibə metodu ilə aparılan sorğuda onların bəziləri test üsulunun müsbət tərəfləri ilə yanaşı, şagirdlərdə əzbərçilik yaratdığı, yazı və digər vərdişlərinin zəif inkişaf etməsinə mənfi təsir göstərdiyini qeyd ediblər. Hətta bəzi valideynlər dərslərin sovet dövründəki kimi keçirilməsinin daha




uyğun olduğunu bildiriblər. Bu cür düşünən valideynlərin fikrincə, belə olan halda şagirdlər həm savadlı, həm də xətləri də gözəl olar.

MM-in Elm və təhsil komitəsinin üzvləri bu fikirdədirlər ki, test üsulu əzbərçiliyə gətirib çıxarır, imtahanlarda açıq tipli sualların salınması bu problemin aradan qaldırılmasına kömək edəcək: "Uşaqlar qapalı testləri demək olar ki, əzbərləmişdilər və əzbərçilik baş alıb gedirdi. Yüksək bal yığanların əksəriyyəti də ildən-ilə düşən imtahan suallarının formalarını artıq bilirdilər. Təbii ki, yüksək biliyə malik uşaqlar yüksək nəticə göstərirdilər. Orta səviyyədə olan uşağın yüksək nəticə göstərməsi qeyri-mümkündür. Ancaq hər bir halda qapalı testlər əzbərçiliyə gətirib çıxarırdı. Yeni modelin əhəmiyyəti odur ki, o, uşaqları düşünməyə vadar edir, əzbərçilikdən yayındırır. Ancaq bu modelin yaxşılaşdırılması üçün bizə bir qədər vaxt lazımdır" *(Sona Əliyeva)*; "Test üsulu ilə ali məktəbə qəbul olan abituriyentlər yazı yaza bilmir, onların şifahi nitqi yoxdur. Gələcək nəslin yazılı və şifahi nitqinin inkişafı olduqca vacibdir" *(Pərvin Kərimzadə)*.

**Respondentlərin 60%-dən çoxu bu fikirdədir ki, test üsulu ilə qəbul əzbərçi nəsil yetişdirir.**

Təhsil ekspertlərinin fikrincə, "test əsasən məntiqi təfəkkürü inkişaf etdirdiyindən və daha çox əzbərçiliyə meyil yaratdığından yazı vərdişlərini inkişaf etdirmək üçün imtahanlara qapalı testlərlə yanaşı, açıq tipli tapşırıqlar da salınıb. Bu da imtahan verənlərə lazımi vərdişlərə yiyələnmədikləri üçün müəyyən çətinliklər yaradıb və bir sıra hallarda onların toplayacaqları ballara da təsirsiz ötüşməyib. Yaranan narazılıqlar təbiidir, bu istiqamətdə təkmilləşdirmə və optimallaşdırma işlərinin aparılacağı da qaçılmazdır. *(Nadir İsrafilov)*; "Yalnız qapalı test üzrə qəbul imtahanlarının aparılması düzgün deyil. Bu təhsilin göstəricisi deyil, ona görə də zamanla açıq və situasiya tipli sualların sayı artırılmalıdır. Daha düşüncəli, yaradıcı gəncləri ali məktəblərdə görmək istəyiriksə, qapalı tipli sualların sayı 40 faizdən çox olmamalıdır" *(Elşən Qafarov)*.

Göründüyü kimi, sorğuda iştirak edən əksər respondentlər "Test üsulu əzbərçi nəsil yetişdirir" fikri ilə razı olduqlarını, bunun qarşısını almaq üçün açıq tipli sualların sayının artırılmasının vacib olduğunu bildiriblər.

Əlavə edək ki, test üsulu geniş bir anlayışdır və özündə müxtəlif növ tapşırıqları ehtiva edir. Builki qəbul modelindən də göründüyü kimi, yeni tədris proqramının tələblərinə uyğun olaraq abituriyentlərin bilik və bacarıqlarını ölçmək üçün açıq tipli sualların sayı artırılıb. Bu səbəbdən test üsulu ilə bağlı respondentlərə verilmiş hər iki sual əsasən qapalı tipli suallarla bağlı olub.

### II.5.2. Test üsuluna inam səviyyəsi

Sorğunun nəticələri sübut edir ki, respondentlərin əksəriyyəti test üsulunun qalması, lakin onun təkmilləşdirilməsinin tərəfdarıdırlar. Test üsuluna inam səviyyəsinin yüksək olmasına, heç şübhəsiz, sovet dövründə qəbul prosesində mövcud olmuş bürokratik əngəllər və test üsulu ilə qəbul prosesində insan faktorunun minimum səviyyədə olması təsir edir. Test üsulu ilə qəbul cəmiyyətin bütün üzvləri üçün ali məktəblərə qəbulu əlçatan edib. Bu səbəbdəndir ki, respondentlərin 86%-i test üsulunu qəbul edir, 7%-i qismən qəbul edir, qalan 7%-i isə qəbul etmir.

Təhlillərə əsasən, abituriyentin Azərbaycanın təhsil sistemi üçün yeni modelin faydalılıq səviyyəsinə




münasibəti onun ənənəvi test üsuluna inam səviyyəsindən heç bir formada təsirlənmir.

Valideyn və müəllim respondentlər arasında da test üsuluna inam səviyyəsi abituriyentlərə nisbətən aşağı olsa da, ümumilikdə yüksəkdir. Belə ki, respondentlərin 60%-i test üsulunu qəbul edir, 28%-i qismən qəbul edir, 12%-i qəbul etmir.

**Respondentlərin 90%-dən çoxu test üsulunu qəbul edir.**

MM Elm və təhsil komitəsinin üzvləri də ümumilikdə test üsulunu ali və orta ixtisas məktəblərinə qəbul üçün mütərəqqi bir üsul hesab edirlər: "Test üsulu dünyanın ən inkişaf etmiş ölkələrində tətbiq olunan mütərəqqi bir üsuldur. Test imtahanının əsas üstünlükləri insan faktorundan asılılığın minimum səviyyədə olması, qiymətləndirmə prosesində nəticələrin müəyyən mənada insan faktorundan asılı olmayaraq həyata keçirilməsidir." *(Pərvin Kərimzadə);* "Test üsulu ilə qəbul imtahanlarının keçirilməsini imtahanların digər formalarından mütərəqqi və uğurlu hesab edirəm. Sovet dövründəki sistem bəlli olan bütün mənfiliklər üçün şərait yaradırdı. Test imtahanlarında isə insan amilinin təsiri azdır, bilikli olanlar keçir. Test imtahanlarını daha səmərəli etmək üçün abituriyentə heç bir bilik və bacarıq verməyən, məntiqi cəhətdən düşündürməyən, "tapmaca" sualların yerinə analitik, məntiqi düşüncə aşılayan suallar daxil edilsə, yaxşı olar" *(Musa Qasımlı).*

Təhsil Nazirliyinin ekspertinin bu məsələyə yanaşması belədir: "Bu proses, təbii ki, daha da təkmilləşəcək. Burada vərdişlər də böyük rol oynayır, hamının öyrəşdiyi bir model var. Düşünürəm ki, cavab və mətnlərin yazılmasında müəyyən təkmilləşmələr olacaq".






## II.6. Abituriyentlərin imtahana hazırlıq prosesi

### II.6.1. İxtisas qrupu seçimi

Sorğunun nəticələri göstərir ki, abituriyentlərin 68%-i (299 nəfər) ixtisas qrupunu özü, 19%-i (85 nəfər) valideynlərin məsləhəti ilə, 9%-i (39 nəfər) müəllimlərin məsləhəti ilə, 3%-i (12 nəfər) qohumların/tanışların məsləhəti ilə, 1%-i (7 nəfər) internetdə apardığı araşdırmalar nəticəsində seçdiklərini bildiriblər.

**68% respondent ixtisas qrupunu özü seçib.**

Maraqlıdır ki, II qrupda ixtisasını özü seçənlərin payı (74%) digər qrupdakılardan daha çoxdur. IV qrupda isə ixtisasını özü seçənlərin payı ən aşağıdır. Belə ki, bu qrupu seçən abituriyentlərin 33%-i valideynlərinin məsləhəti ilə bu qərarı veriblər. Gender cəhətdən isə abituriyentin kişi və ya qadın olması onun ixtisas qrupunu seçməsinə əhəmiyyətli dərəcədə təsir etmir.

Valideyn respondentlərin 70,2%-nin fikrincə, övladı ixtisas qrupunu özü seçib. 13,8%-i valideynlərinin məsləhəti ilə, 10,4%-i müəllimlərinin məsləhəti ilə, 4,6%-i qohumların/tanışların məsləhəti ilə, 1%-i internetdə apardığı araşdırmalar nəticəsində seçdiyini bildirib.

### II.6.2. Repetitor hazırlığı

Azərbaycan cəmiyyətində təhsillə bağlı müzakirələrdə ən çox toxunulan mövzulardan biri də repetitor hazırlığı ilə bağlıdır. Ümumrespublika kampaniyası xarakteri alan repetitor fəaliyyətinin məktəblərdə tədris səviyyəsinin bütün fənlər üzrə eyni keyfiyyətdə olmaması, müəllimlərin əmək haqlarının azlığı, hətta bu üsulun bir növ adət halını alması və s. səbəblərlə əlaqələndirirlər. Sorğunun nəticələri də sübut edir ki, abituriyentlərin əksəriyyəti repetitor xidmətindən istifadə edib. *"İmtahanlara necə hazırlaşmısınız?"* sualına abituriyentlərin 86%-i repetitorun yanına getməklə, 8%-i məktəbdə keçirilən dərslərlə, 6%-i isə "özüm hazırlaşmışam" cavabını verib.

Valideynlərin 94%-i bildirib ki, övladları repetitor xidmətindən istifadə edib, yalnız 6% valideyn bildirib ki, övladı imtahanlara özü fərdi şəkildə hazırlaşıb.

Bəzi təhsil ekspertləri də bu fikirdədirlər ki, "bu il ali məktəbə daxil olan təqribən 45 min abituriyentin əksər hissəsi repetitor və kursların məhsuludur. Ümumtəhsil məktəblərində tədrisin aşağı səviyyədə olmasının nəticəsidir ki, bu gün bütün insanlar valideynlərinin maliyyəsi hesabına ancaq kölgə təhsilindədirlər" *(Elşən Qafarov);* "Son zamanlar şagirdləri məktəb və təhsildən uzaqlaşdıran səbəblərdən biri "bunker müəllimlər" və "repetitor" hazırlıqlarıdır. Belə ki, ali məktəblərə hazırlaşan şagirdlərin bir hissəsi məktəb dərslərinin əvəzinə əlavə hazırlıqlara gedirlər. Düzdür, əlavə hazırlıqların köməyini inkar etmək olmaz, lakin bunun nəticəsi həmişə ürəkaçan olmur. Oxuyan, çalışan şagird üçün ali məktəbə qəbul olmaq çətin olmur, bəs 11 il ərzində heç kitab üzü açmayan şagirdin 8 əsas fənn əvəzinə 5 fənn üzrə hər şeyi cəmi 2 il ərzində öyrənə bilməsi nə dərəcədə mümkündür? Tez-tez bəzi valideynlərin ümidləri ilə birgə pullarının da itirməsinin şahidi oluruq" *(Kamran Əsədov).*

**Respondentlərin 86%-i repetitor xidmətindən istifadə edib.**




***Haşiyə:*** Aprelin 29-da Dövlət İmtahan Mərkəzində (DİM) 2019-cu ilin mart və aprel aylarında keçirilmiş buraxılış imtahanları ilə əlaqədar mətbuat konfransı keçirilib. Mətbuat konfransında çıxış edən Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə diqqətə çatdırıb ki, aprelin 7, 14 və 21-də keçirilmiş tam (11 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanlarında sual kitabçalarının dəyişdirilməsi, mobil telefon aşkar olunması və digər səbəblərdən ümumilikdə 31 abituriyent imtahandan xaric olunub və onların nəticələri ləğv olunub: "İlkin məlumatlara əsasən, dünən *(aprelin 28-də* – **müəll**.) keçirilən imtahanlarda da 17 nəfər tərəfindən qayda pozuntusu (5 – mobil telefon, 10 – sual kitabçalarının dəyişdirilməsi, 1 – çoxfunksiyalı elektron cihaz, 1 – başqasının yerinə imtahan binasına daxil olmağa cəhd) halına rast gəlinib. Bu imtahanlardan sonra aparılan araşdırmalar nəticəsində kommersiya məqsədilə fəaliyyət göstərən müxtəlif kurslar və orada repetitorluq fəaliyyəti ilə məşğul olan insanlar tərəfindən abituriyentlərin müxtəlif qayda pozuntularına yol verməyə sövq edilməsi halları aşkar olunub. Müxtəlif hazırlıq kurslarının əməkdaşları sosial şəbəkələrdə yaradılan səhifə və qruplarda imtahan suallarının əldə edilməsi, paylaşılması, hətta imtahandan öncə bir binada və zalda imtahan verən abituriyentlərin tapılması, tanış edilməsi və digər işlərin təşkil edilməsində fəallıq göstərirlər. Ötən il ali təhsil müəssisələrinə qəbul zamanı imtahanda iştirak etməli olan abituriyentin yerinə başqa birinin göndərilməsini təşkil edən (hazırda həmin şəxslərə qarşı cinayət işi açılıb), bu il






aprelin 7-də keçirilən buraxılış imtahanından sonra sosial şəbəkələrdə sual kitabçasının fotoşəklinin ilk dəfə paylaşılması da hazırlıq kurslarının əməkdaşları tərəfindən edilib. Bu şəxslərin əsas məqsədi daha çox abituriyent kütləsi toplamaqla maddi qazanc əldə etmək olur və abituriyentlərin gələcək taleyi, çox təəssüf ki, onları maraqlandırmır".

**II.6.3. Sınaq imtahanlarında iştirak: sınaq imtahanlarının az sayda keçirilməsi yeni modeli mənimsəməkdə çətinlik yaradıbmı?**

Rəyi soruşulan abituriyentlərin 85%-i (340 nəfər) yeni modeli mənimsəmək üçün sınaq imtahanlarında iştirak edib. 15% (60 nəfər) abituriyent isə sınaq imtahanlarında iştirak etməyib.

**Respondentlərin 85%-i yeni modeli mənimsəmək üçün sınaq imtahanlarında iştirak edib.**

Sınaq imtahanlarının sayının az olması bu il tətbiq olunan modeli mənimsəməkdə 20% respondent üçün "çox çətinlik yaradıb", 62% respondent üçün "müəyyən qədər çətinlik yaradıb". 18% respondent bu fikirdə olmuşdur ki, sınaq imtahanlarının sayının az olması bu il tətbiq olunan modeli mənimsəməkdə onlara "heç bir çətinlik yaratmayıb".

Abituriyentin sınaq imtahanlarında iştirak edib-etməməsi ilə onun buraxılış imtahanlarında istifadə edilən test tapşırıqlarının çətinlik dərəcəsinə münasibəti






arasında əlaqə aşkar edilməyib. Başqa sözlə, sınaq imtahanlarında iştirak edən və etməyənlər arasında buraxılış imtahanlarında istifadə edilən test tapşırıqlarının çətin, yaxud asan olmasına dair fərqli fikirlər mövcud deyil. Həmçinin, sınaq imtahanlarında iştirak edən və etməyən abituriyentlər arasında "buraxılış imtahanlarında tətbiq edilən fənlərin bölgüsü sizi qane edirmi?" sualına cavablar arasında fərq aşkar edilməyib.

Müəllim və valideyn respondentlərin 48,8%-i bu fikirdədir ki, yeni modelə dair sınaq imtahanlarının az sayda keçirilməsi abituriyentlər tərəfindən yenilikləri mənimsəməkdə maneələr yaradıb. Bu fikirlə 20,9% razı, 18,6% qismən razı olub, 9,3% bu fikirlə razı deyil, 2,4% heç razı deyil.

**Kağız daşıyıcılar vasitəsilə sınaq imtahanının az sayda keçirilməsi 80%-dən çox abituriyent üçün çətinlik yaradıb.**

Abituriyent və valideynlərlə müsahibə metodu ilə aparılmış sorğuda respondentlər tərəfindən yeni modeli tam mənimsəyə bilmək üçün kağız daşıyıcılar vasitəsilə əlavə sınaq imtahanlarının keçirilməsinin zəruri olduğu vurğulanıb.

DİM sınaq imtahanlarının az sayda keçirilməsi məsələsinə belə aydınlıq gətirib: "İmtahanlar ali təhsil müəssisələri və məktəblərdə tədris prosesinə mane olmamaq üçün həftə sonları keçirilir. DİM tərəfindən təşkil olunan ümumi və tam orta təhsil səviyyələri üzrə buraxılış imtahanları, qəbul imtahanları (iki şans), eləcə də digər müxtəlif təyinatlı imtahanlar və onların kütləvi xarakteri kağız daşıyıcılar vasitəsilə əlavə sınaq imtahanlarının keçirilməsini məhdudlaşdırır".

Qeyd edək ki, builki qəbul imtahanına qədər DİM tərəfindən yazı işləri bütün fənlər üzrə tətbiq olunmaqla 3 sınaq imtahanı keçirilib. Məsələn, fevralın 10-da yeni təhsil proqramları (kurikulumlar) üzrə 2019-cu ilin qəbul imtahanı modelinə uyğun respublikanın 26 şəhər və rayonunda sınaq imtahanları keçirib. Sınaq imtahanında iştirak etmək üçün qeydiyyatdan keçmiş 28 min 337 abituriyentdən 211 nəfəri imtahana gəlməyib. Bundan başqa, DİM tərəfindən 2019-cu il üzrə 5 dəfə onlayn sınaq imtahanları keçirilib. Abituriyentlər **http://otk.az** portalı vasitəsilə onlayn sınaq imtahanlarında iştirak ediblər. Qəbul imtahanlarının həm I, həm də II mərhələsinə aid yeni sual paketləri daimi olaraq portala yerləşdirilib.

Kağız daşıyıcılar vasitəsilə keçirilən sınaq imtahanları üçün ödəmə DİM-in saytında olan şəxsi kabinet və ödəmə üsulları vasitəsilə, onlayn sınaq imtahanlarına yazılma və ödəniş isə otk.az portalında aparılıb.

### II.7. Buraxılış və yaxud qəbul imtahanlarının çətinlik səviyyəsi

Rəyi soruşulan abituriyentlərin 62%-i (248 nəfər) üçün qəbul imtahanları, 29%-i (116 nəfər) üçün buraxılış imtahanları, 6%-i (24 nəfər) üçün hər ikisi çətin olub. Yalnız 3% (10 nəfər) abituriyent üçün heç bir imtahan çətin olmayıb.

Valideyn və müəllim respondentlərin 33%-nin fikrincə, buraxılış imtahanları, 37%-inin qənaətinə görə, qəbul imtahanı abituriyentlər üçün çətin olub. Respondentlərin 14%-i hər ikisinin çətin olduğunu, 2%-i heç birinin çətin olmadığını bildirib. 14% respondent cavab verməkdə çətinlik çəkib.




**Respondentlərin 62%-i üçün qəbul imtahanları, 29%-i üçün buraxılış imtahanları çətin olub.**

Təhsil ekspertlərinin bu məsələyə münasibəti müxtəlif olub: "Hər iki imtahan DİM tərəfindən keçirilir və burada buraxılış, yoxsa qəbul imtahanlarının çətin və ya yüngül keçməsi barədə cəmiyyətdə müxtəlif mövqelər var. Ən başlıcası isə DİM sözçüləri hər bir mövqe ilə bağlı mütəmadi açıqlamalar verir və məsələyə aydınlıq gətirirlər" *(Nadir İsrafilov);* "Ümumiyyətlə 2019-cu ildə keçirilən qəbul və buraxılış imtahanları əvvəlki illərlə müqayisədə aşağı nəticələrin olması ilə seçiləcək. Çünki bu il tətbiq olunan yeniliklər tam şəkildə imtahan iştirakçıları tərəfindən mənimsənilməyib. Hətta martda IX, apreldə XI siniflər üçün keçirilən buraxılış imtahanlarında da yüksək nəticə olmadı. Aprelin 7-də keçirilən imtahanda yalnız 2 şagird maksimum nəticə göstərdi ki, bu da çox aşağı nəticədir. Amma imtahan cavablarının iki ay müddət keçəndən sonra elan olunması şagirdlər arasında psixoloji gərginlik yaradır. Bir məqamı da qeyd edim ki, təhsildə yeni ənənələr hələ tam oturuşmayıb. Apreldə DİM tərəfindən keçirilən qəbul imtahanlarının I mərhələsində (eyni zamanda buraxılış imtahanı) bakalavrların çoxu tələb olunan 300 balı yığa bilmədi. Yalnız iki abituriyent bu nəticəni göstərə bildi. Bu isə bir daha dolayı olaraq orta təhsil sisteminin mükəmməl olmaması, şagirdlərin hazırlıq səviyyəsinin






çox aşağı enməsinin göstəricisidir. Nə qədər ki, orta məktəblərdə, ümumiyyətlə, təhsildə neqativ hallar qalacaq, bundan artıq nəticə gözləmək də əbəsdir" *(Kamran Əsədov);* "Bu model ilk dəfə tətbiq olunduğu üçün abituriyent və valideynlər sistemə tam öyrəşməyiblər. Eynilə repetitorlar və kurslar üçün də bu, ilk idi. Ancaq düşünmürəm ki, elə də çox çətindir, sadəcə Azərbaycanda yeni tətbiq olunan model olduğu üçün müəyyən çətinliklər yarandı. Ancaq bu, keçicidir, növbəti illərdə həm kurslar, həm repetitorlar, həm valideynlər, həm də hazırlaşanlar artıq buna öyrəşəcəklər" *(Elşən Qafarov).*

### II.7.1. Fənlərin bölgüsü

Abituriyentlərin 30,5%-ni (122 nəfər) **buraxılış imtahanlarında** tətbiq edilən fənlərin bölgüsü tam qane etmiş, 22,5 %-ni (90 nəfər) qane etmiş, 30,5 %-ni qismən qane etmiş, 10,5%-ni (42 nəfər) qane etməmiş, 6%-ni isə ümumiyyətlə heç qane etməmişdir.

**Qəbul imtahanlarında** fənlərin bölgüsünə gəldikdə isə abituriyentlərin 30%-ni (120 nəfər) tətbiq edilən fənlərin bölgüsü tam qane etmiş, 22%-ni (88 nəfər) qane etmiş, 29%-ni (116 nəfər) qismən qane etmiş", 12 %-ni (49 nəfər) qane etməmiş, 7%-ni (27 nəfər) heç qane etməmişdir.

**Buraxılış və qəbul imtahanlarında tətbiq edilən fənlərin bölgüsü 80%-dən çox respondenti qane edib.**






Eyni fənnin (məsələn, riyaziyyat) həm buraxılış, həm də qəbul imtahanlarına salınmasına abituriyentlərin münasibəti belə olmuşdur: 38,5 % (154 nəfər) bir mərhələdə saxlanılmasının, 56% (224 nəfər) hər iki mərhələdə qalmasının, 5,5% (22 nəfər) yeni fənlərin əlavə edilməsinin tərəfdarı kimi çıxış etmişdir.

**38% respondent eyni fənnin həm buraxılış, həm də qəbul imtahanlarına salınmasını düzgün hesab etmir.**

Eyni fənnin (məsələn, riyaziyyat) həm buraxılış, həm də qəbul imtahanlarına salınmasına abituriyentlərin münasibətinə dair müxtəlif coğrafi bölgələr arasında fərq aşkar edilməyib.

### II.7.2. Tapşırıqların mürəkkəblik səviyyəsi

Abituriyentlərin 24%-i (95 nəfər) bu fikirdədir ki, **buraxılış imtahanlarında** istifadə edilən test tapşırıqlarının içərisində sadə suallar üstünlük təşkil edib. Respondentlərin 52%-i (210 nəfər) orta çətinlikdə sualların, 24%-i (95 nəfər) isə çətin sualların olduğunu düşünür.

**Qəbul imtahanlarında** isə münasibət belə olmuşdur: abituriyentlərin 40%-i (160 nəfər) imtahanlarda istifadə edilən test tapşırıqlarının içərisində çətin sualların, 51%-i (205 nəfər) orta çətinlikdə sualların, 9%-i (35 nəfər) isə sadə sualların olduğu qənaətindədirlər.






Ümumilikdə abituriyentlərin cavablarından aydın olur ki, həm buraxılış, həm də qəbul imtahanlarında onlara çətin olan suallar salınıb.

**Respondentlərin 50%-dən çoxu bu fikirdədir ki, buraxılış və qəbul imtahanlarında orta çətinlikdə suallar olub.**

İxtisas qrupları üzrə abituriyentlər arasında buraxılış imtahanlarında istifadə edilən test tapşırıqlarının çətinlik dərəcəsinə münasibətdə statistik əhəmiyyətli fərq müəyyən edilib. Belə ki, əgər III qrupu seçən abituriyentlərin 23%-i üçün suallar asan olubsa, I, II və IV qrupları seçən abituriyentlər üçün bu göstərici müvafiq olaraq 3%, 8% və 0% təşkil edib.

**İmtahanlarda tapşırıqların sadə, orta və çətin olmaqla müxtəlif mürəkkəblik səviyyəsində təqdim olunması 80%-ə yaxın respondent üçün çətinlik yaradıb.**

**Buraxılış imtahanlarında** istifadə edilən test tapşırıqlarının sadə, orta və çətin olmaqla müxtəlif mürəkkəblik səviyyəsində təqdim olunması abituriyentlərin 11%-i (45 nəfər) üçün çox çətinlik yaradıb, 21%-i (83 nəfər) üçün çətinlik yaradıb, 46%-i (183 nəfər) üçün qismən çətinlik yaradıb, 18 %-i (74 nəfər) üçün çətinlik yaratmayıb, 4%-i üçün (15 nəfər) isə heç bir çətinlik yaratmayıb.

**Qəbul imtahanlarında** istifadə edilən test tapşırıqlarının sadə, orta və çətin olmaqla müxtəlif mürəkkəblik səviyyəsində təqdim olunması aşağıdakı kimi olmuşdur: abituriyentlərin 18%-i (72 nəfər) bunu onlar üçün çox çətinlik yaratdığını, 26%-i (103 nəfər) çətinlik yaratdığını, 39%-i (156 nəfər) qismən çətinlik yaratdığını, 13%-i (53 nəfər) çətinlik yaratmadığını, 4%-i (16 nəfər) isə heç bir çətinlik yaratmadığını qeyd edib.

Bəzi təhsil ekspertlərinin fikrincə, "buraxılış və qəbul imtahanlarının sualları çətin olub. Qəbul sualları tam orta təhsil kursunu əhatə edir. Burada söhbət ondan gedir ki, ali təhsil almağa iddialı məzun bu sualların qarşısında çətinlik çəkir, onun öhdəsindən gələ bilmir. Çünki onun orta məktəb pilləsində əldə etdiyi biliklər buna imkan vermir" *(Kamran Əsədov).*

## II.8. Azərbaycan testologiyasında ənənə və yenilik

### II.8.1. Açıq tipli test tapşırıqları: yeniliyi həzm etməyə qarşı təpki, yoxsa çətinlik? Problem haradan qaynaqlanır?

Sorğunun nəticələri, abituriyent və valideynlərlə aparılmış söhbətlər göstərir ki, yenilikləri mənimsəməkdə hər zaman olduğu kimi çətinliklər yaşanır. Yeni modelin əvvəlki modeldən əsas fərqli cəhəti odur ki, yeni tədris proqramının (kurikulumların) tələblərinə və mahiyyətinə uyğun olaraq imtahanlara qapalı test tapşırıqları ilə yanaşı açıq tipli test tapşırıqları salınıb. Bu fərq qapalı test tapşırıqlarının 70%-i, açıq tipli tap-

**Respondentlərin 50%-dən çoxu bu fikirdədir ki, imtahanlarda istifadə edilən açıq tipli tapşırıqlarla bağlı çatışmazlıqlar müşahidə edilib.**




şırıqların 30%-i nisbətində olub. Bu amili nəzərə alaraq respontentlərə açıq tipli test tapşırıqları ilə bağlı bir neçə sualla müraciət olunub. Belə ki, abituriyentlərin 54%-nin (217 nəfər) fikrincə, imtahanlarda istifadə edilən açıq tipli tapşırıqlarla bağlı çatışmazlıqlar müşahidə edilib, 46%-nin fikrincə (183 nəfər) isə heç bir çatışmazlıq olmayıb.

İmtahanlarda istifadə edilən açıq tipli tapşırıqlarla bağlı çatışmazlıqlar qismində abituriyentlərin 37%-i yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli tapşırıqların vaxt aparmasını, 21%-i uyğunluğu müəyyən etmək tipli tapşırıqların konkret olmamasını, 17%-i seçim tələb edən tapşırıqların mürəkkəbliyini, 25%-i hesablama tipli tapşırıqların çətinliyini göstəriblər.

Açıq tipli tapşırıqlarla bağlı çatışmazlıqlar qismində valideyn və müəllim respondentlərin 18,6%-i hesablama tipli tapşırıqların çətinliyini, 37,2%-i seçim tələb edən tapşırıqların mürəkkəbliyini, 2,6%-i uyğunluğu müəyyən etmək tipli tapşırıqların konkret olmamasını, 62,8%-i yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli tapşırıqların vaxt aparmasını qeyd ediblər. 2,3% respondent isə ümumiyyətlə imtahanlara açıq tipli sualların salınmasının əleyhinə olduğunu bildirib.

**37% respondentin/ abituriyentin fikrincə, yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli tapşırıqlar çox vaxt aparır.**

Bu məsələyə münasibətdə DİM-in mövqeyi belədir: "Ümumiyyətlə, açıq tipli tapşırıqlar niyə tətbiq olunur? Bu sistemin mahiyyəti ondan ibarətdir ki, uşaqlarda biliklərlə yanaşı, müəyyən bacarıqlar – riyazi qabiliyyətlər, düşüncə tərzi, yaradıcı təfəkkür formalaşmış olsun. Yəni "yaddaş" məktəbindən təfəkkürə əsaslanan məktəbə bir keçid olsun. Açıq tipli tapşırıqlar tətbiq olunur və onlara yazılı şəkildə cavab vermək tələb olunur. Burada isə köhnə qapalı tipli tapşırıqlardan fərqli olaraq hər hansı bir variant yoxdur, sadəcə şagird düşünməli, hər hansı situasiyaya uyğun tənliyi həll etməlidir. Burada artıq şagirdin riyazi bacarıqları özünü göstərməlidir. Eyni zamanda, Azərbaycan dilində verilən mətni, onun hissələri arasındakı məntiqi əlaqəni qurmağı bacarmalıdır. Bir sıra digər tapşırıqlarla şagirdlərin bacarığının nə dərəcədə formalaşdığını yoxlayırıq. İkinci tərəfdən burada açıq və qapalı tipli tapşırıqların sayı ilə bağlı nisbət qorunub saxlanılıb. Monitorinq və buraxılış imtahanlarının nəticələrinin statistik təhlili əsasında fənlər üzrə açıq tipli tapşırıqların sayı formalaşdırılıb. Ümumilikdə, 700 ballıq şkala saxlanılıb. Bilirsiniz ki, abituriyentlər imtahanın 1-ci və 2-ci mərhələsində birlikdə 700 bal toplaya bilirlər. Bu 700 baldan 495 balını onlar ənənəvi qaydada olan qapalı tipli tapşırıqlar və yaxud kodlaşdırıla bilən açıq tipli tapşırıqlardan, yerdə qalan 205 balı açıq tipli tapşırıqlardan toplayırlar. Burada məqsəd ondan ibarətdir və nisbət elə tətbiq olunmalıdır ki, abituriyentlər həmin tapşırıqlara cavab verə bilsinlər. Qiymətləndirmədə təşkilatı olaraq qarşımızda duran əsas məqsəd odur ki, verilmiş şkalaya uyğun olaraq imtahan iştirakçılarını bilik və bacarıqlarına görə sıralaya bilək. Daha bilikli və bacarıqlı abituriyenləri müəyyən etmək üçün bu açıq tipli tapşırıqlardan istifadə olunub və orada da nisbət də gözlənilib ki, hər hansı çətinlik olmasın. Ancaq 1-ci ildir ki, 11-ci sinifdə buraxılış və qəbul imtahanları bu model üzrə keçirilib. Bundan sonra daha dərin tədqiqatlar aparılacaq ki, dediyiniz nüansları, müsbət və mənfi tərəfləri müəyyən etmək mümkün olsun. DİM onsuz da hər il bütün imtahanlar yekun-




**Respondentlərə bir neçə cavab variantı qeyd etmək/seçmək imkanı verilib, buna görə də alınan cavabların ümumi sayı 100%-dən artıq olub.*

laşandan sonra 5-6 ay ərzində elmi-statistik təhlillər aparır. Daha geniş təhlillər isə müsabiqə başa çatdıqdan sonra aparılacaq və "Abituriyent" jurnalının 12-ci sayında dərc olunacaq".

### II.8.2. Açıq tipli test (situasiya, mətn və mənbə əsaslı) tapşırıqlarının qiymətləndirilmə meyarları: insan müdaxiləsi olan yerdə obyektivlikdən danışmaq mümkündürmü?

Dünya ölkələrinin imtahan təcrübəsi göstərir ki, imtahanların tipindən asılı olaraq cavabların qiymətləndirilməsində müxtəlif metodlardan istifadə edilir. Bu prosesdə insan fəaliyyəti/müdaxiləsi olanda istər-istəməz insanların düşüncəsində bəzi "şübhə toxumları cücərir". Bu məqamları nəzərə alıb respondentlərə bu mövzuda bir neçə sualla müraciət olunub.

**Situasiya, mətn və mənbə əsaslı tapşırıqların qiymətləndirilməsi respondentlərin 35%-dən çoxunu qane etmir.**

Situasiya, mətn və mənbə əsaslı tapşırıqların qiymətləndirilməsi rəyi soruşulan abituriyentlərin 19%-ni (77 nəfər) tam qane edir, 18%-ni (72 nəfər) qane edir, 27%-ni (108 nəfər) qismən qane edir, 25%-ni (99 nəfər) qane etmir, 11 %-ni (44 nəfər) heç qane etmir.

**Respondentlərin 80%-dən çoxu fənlərə verilən ballar haqqında əvvəlcədən məlumatlı olub.**

Fənlərə verilən ballar haqqında abituriyentlərin 57%-nin (228 nəfər) əvvəlcədən, 24%-nin (96 nəfər) qismən məlumatı olub, 19%-nin (76 nəfər) heç bir məlumatı olmayıb.

Abituriyentlərin 12,5%-i (50 nəfər) imtahanlara düşən sualların qiymətləndirilməsi prosesinin obyektiv aparılmasına çox inandığını, 37%-i (148 nəfər) inandığını, 27,5%-i (110 nəfər) qismən inandığını, 12%-i (47 nəfər) inanmadığını, 11%-i (45 nəfər) isə heç inanmadığını bildirib.

Valideyn və müəllimlər arasında keçirilmiş sorğunun nəticələrinə görə, qiymətləndirmənin obyektiv aparılmasına rəyi soruşulan respondentlərin 2,4%-i çox inandığını, 39,5%-i inandığını, 30,2%-i qismən inandığını, 16,3%-i inanmadığını, 11,6% heç inanmadığını qeyd edib.

Valideyn və müəllim respondentlərin 37,2%-i fənlərə verilən ballar haqqında əvvəlcədən məlumatlı olduğunu, 44,2%-i qismən məlumatı olduğunu, 18,6%-i heç bir məlumatı olmadığını qeyd edib.

**Respondentlərin 75%-dən çoxu qiymətləndirmənin obyektiv aparılmasına inanır.**

Araşdırmalar göstərir ki, respondentlər arasında əsas narahatlıq doğuran məqamlardan biri buraxılış və qəbul imtahanları başa çatdıqdan sonra yazı tipli tapşırıqların yoxlanılmasında yaranan problemlərlə bağlıdır. Burada əsasən iki məsələ narahatlıq doğurur: birincisi, yoxlama prosesində insan fəaliyyəti və ikincisi, yoxlama müddətinin uzun çəkməsi. Məhz bu iki məsələ abituriyentlər, valideynlər və müəllimlərdə psixoloji




gərginliyə səbəb olur. Müsahibədə iştirak edən ekspert və valideynlər qeyd edirlər ki, "əvvəl imtahandan 3 gün sonra cavablar çıxırdı və şagirdlər neçə bal topladığını bilib rahat olurdular. İndi isə abituriyent nəticələrini gec öyrənir deyə onda əlavə həyəcan yaranır. Bu da yeni modelin çatışmazlıqlarından biridir. Yazı tapşırıqlarının yoxlanılmasının uzun vaxt tələb etməsi qaçılmaz faktordur. Bunu nəzərə alaraq DİM bu tapşırıqların sayının azaldılması ilə bağlı düşünməlidir. Ümumilikdə belə sualların sayı çoxdur. Nəticədə həm yoxlayan, həm də imtahan verən üçün sıxıntı yaranır".

Bu məsələ ilə bağlı DİM-in mövqeyi belədir ki, yazı işləri (açıq tipli tapşırıqların cavabları) DİM və onun regional bölmələrində müvafiq təhlükəsizlik tələblərinə cavab verən ekspertiza (yoxlama) zallarında, qapalı şəraitdə, kompüter arxasında markerlər tərəfindən yoxlanılır. Yazı işlərinin yoxlanılması üçün proqram təminatı DİM-in mütəxəssisləri tərəfindən hazırlanıb.Hər bir yazı işi əvvəlcə "scan" olunur və 2 marker tərəfindən qiymətləndirilir (markerlərin qiymətləri arasında fərq yarandıqda həmin yazı işi proqram tərəfindən 3-cü markerə göndərilir). Yoxlama zamanı markerin kompüterinin monitorunda yazı işinin müəllifi haqqında heç bir məlumat (ad, soyad, ata adı, şagird kodu, ünvan və s.) verilmir. Monitorda yalnız yazı işi, yazı işini qiymətləndirmək üçün meyarlar və qiyməti daxil etmək üçün müvafiq sahə göstərilir.

Bundan əlavə, imtahanda şagirdlərə təqdim olunan hər bir tapşırıq üçün ayrıca qiymətləndirmə meyarı hazırlanıb və markerlər hər hansı bir tapşırığa aid yazı işini yoxladıqda məhz həmin tapşırığın qiymətləndirmə meyarına əsaslanırlar. Qiymətləndirmə meyarlarında tapşırığın mümkün həll üsulları və ehtimal olunan (gözlənilən) cavablar nəzərə alınır. Qiy-






mətləndirmə meyarı tapşırığın qiymətləndirilməsi üçün dolğun təlimatdır və marker yazı işini qiymətləndirərkən həmin tapşırığın qiymətləndirmə meyarından kənara çıxmır.

Bununla bağlı DİM əlavə olaraq bildirib ki, yoxlama prosesində müəyyən mərhələlər standart vaxt aparır. Məsələn, sənədlər gəldikdən sonra onların hər birinin "scan" olunması (burada 40000-45000 şagirdin işindən söhbət gedir) 2-3 gün, onların elektron fayllar üzrə ayrılması, tapşırıqlar üzrə kəsilməsi və bazaya yerləşdirilməsi daha 1 gün, yoxlama prosesinin keyfiyyətli getməsi üçün etalonların seçilməsi prosesi və kollibrovka mərhələsi də 1-2 gün vaxt aparır. Bu proseslər olmalıdır ki, yoxlama prosesi keyfiyyətli getsin, tapşırıqlar ayrı-ayrı yoxlanılsın. Hər bir iş "scan" olunur ki, yoxlama prosesi kağız üzərində yoxlanılmasın və yarana biləcək qarışıqlığın qarşısı alınsın. Kollibrovka olmalıdır ki, markerlər hər dəfə treninqdən keçərək prosesə adaptasiya olsunlar və işlərini keyfiyyətli görsünlər. Bu proseslərin vaxt aparması işin keyfiyyətli getməsinə xidmət edir. Əslində vaxt aparan hazırlıq prosesidir (4-5 gün), yoxlama prosesi 2-3 günə yekunlaşır. Məsələn, Azərbaycan dili fənninin yoxlanılması 3 günə, riyaziyyat və xarici dil fənninin yoxlanılması 1 və ya 2 günə yekunlaşır. Əgər hazırlıq prosesi olmasa, o zaman apellyasiyaya müraciət edənlərin sayı 100 qat artıq olar ki, bu da apellyasiyanın işini çətinləşdirə bilər, dolayısı ilə yoxlamanın keyfiyyəti aşağı düşər.

Onu da əlavə edək ki, aprelin 29-da 2019-cu ilin mart və aprel aylarında keçirilmiş buraxılış imtahanları ilə əlaqədar mətbuat konfransında DİM-in Direktorlar Şurasının sədri Məleykə Abbaszadə qeyd edib ki, ümumi yazı işlərinin sayı 3062546 olsa da, hər bir yazı işinin 2 marker tərəfindən qiymətləndirildiyini nəzərə alsaq (qeyd etdiyimiz kimi, markerlərin qiymətləri arasında fərq yarandıqda həmin yazı işi proqram tərəfindən 3-cü markerə göndərilir) ən azı 6125092 yoxlama işi həyata keçirilib.

Təhsil Nazirliyinin nümayəndəsi bu məsələ ilə bağlı münasibətini belə izah edir: "Testologiya bir elmdir, bizdə bu sahəni oxuyan adamlar demək olar ki, yoxdur. Bu, obyektiv səbəbdir və yenidir. Beynəlxalq qiymətləndirmənin bəlli standartları var. Azərbaycan bu standartlara uyğun məzun yetişdirmək istəyirsə, həmin standartı ölkədə tətbiq etməlidir. Burada təkmilləşmə nə ola bilər? Məsələn, sual tələb edir ki, verilmiş tənliyin köklərinin hasili nəyə bərabərdir? Siz kvadrat tənliyi həll edərkən diskriminantı hesablamalı, bundan sonra isə kökü tapmalı və ən sonda köklər bir-birinə vurulmalıdır. Əvvəlki modelə görə, siz bunu ya düz, ya səhv yazırdınız və ya heç yazmırdınız. Birincidə 10, ikincidə mənfi 2,5 bal (4 səhv bir düzü aparırdı), üçüncü halda isə sıfır bal alırdınız. Adam var ki, tənliyin diskriminantını hesablaya bilir, kökünü tapa bilmir, adam da var ki, kökünü tapır, ancaq vuranda səhv edir, eləsi də var ki, ümumiyyətlə, bu tənliyi həll edə bilmir. Nəticədə hamısı sıfır alır, bunları bir-birindən ayırmaq olmurdu. Ancaq indi bu misalda diskriminantı tapıbsa 1, kökü tapıbsa 2, kökləri bir-birinə vurub, düz cavabı tapıbsa 3 balla, heç nə yazmayıbsa sıfır balla qiymtləndirilir. Sual dəyişməsə də, insanları fərqləndirməyə imkan verir. Bizdə hazırda belə sualları yazanlar azdır. Bu, belə suallara cavab verənlər üçün də yenidir. Təkmilləşmə qiymətləndirmədə olacaq. Bu isə kifayət qədər mürəkkəb məsələdir. Burada iki həqiqət var. Birincisi, diskriminantı hesablayan heç nə hesablamayan adamla müqayisədə nəsə bilir. İkincisi, onların hər ikisi cavab verməyib. Təkmilləşmə daha çox burada olacaq".

Təhsil ekspertləri bu fikirdədirlər ki, "DİM-in ən böyük nailiyyətlərindən biri insan faktorunun imta-

han prosesinə müdaxiləsinin imkan daxilində məhdudlaşdırılmasına və şəffaflığın təmin olunmasına yönəlik həyata keçirdiyi tədbirlərdir. İmtahan prosesinin nəticələri, qiymətləndirmə əsasən yüksək texnologiyaların tətbiqi ilə həyata keçirilir. Son olaraq markerlər arasında qiymətləndirmədə fərqli yanaşma qeydə alındığı halda, daha obyektiv nəticənin əldə olunması üçün üçüncü marker prosesə cəlb olunur" *(Nadir İsrafilov)*; "Bu fikirlə razıyam ki, insan amili olan yerdə ideal obyektivlik mümkün deyil. DİM-in böyük infrasturukturu var, böyük maddi-texniki bazaya malikdir. Bu narazılıqların əsas kökü axtarılıb tapılmalıdır. Yeni mexanizmlər tətbiq olunduqda ilkin dövrdə buna adaptasiya ola bilmiriksə, bu o demək deyil ki, bu mexanizmlər yüzdəyüz problemlidir və yaxud da qəbuledilən deyil, zamanla buna öyrəşəcəyik. Məqsəd daha yaradıcı, məhsuldar gəncləri seçməkdir" *(Elşən Qafarov).*

### II.8.3. Xarici dillər üzrə dinləmə/anlama qurğusunun tətbiqi

Respondentlər arasında müsahibə (keyfiyyət intervüsü) metodu ilə apardığımız sorğunun nəticələri göstərir ki, imtahan prosesində yeni modellə bağlı ortaya çıxan problemlərdən biri xarici dillər üzrə dinləmə/anlama qurğusunun tətbiqi ilə bağlı olub. Valideynlər bu fikirdədirlər ki, xüsusilə rayon və kənd məktəblərində təhsil alan şagirdlər üçün dinləmə/anlama qurğusunun tətbiqi bir sıra problemlər yaradıb. Onlar bu qənaətdədirlər ki, dinləmə və anlama tipli mətnlər qurğularla işləmə və dinləmə respublikanın bütün ümumtəhsil məktəblərində tətbiq olunduqdan və sınaqdan keçirildikdən sonra istifadə edilməliydi. Hətta rayon və kənd yerlərində bəzi müəllimlərin belə bununla bağlı anlayışı yoxdursa, o, şagirdə bunu necə öyrədə bilər?!

DİM-in nümayəndəsi bu məsələyə belə aydınlıq gətirib: "Builki məzunlar yeni tədris proqramına uyğun təhsil alıblar. Bu proqramın da məqsədi ondan ibarətdir ki, müəyyən standartlara uyğun bilik və bacarıqlar formalaşsın. Bütün bu standartlarda nəzərdə tutulub ki, misal üçün, siz hər hansı təhsil pilləsini başa vurursunuzsa, sizdə hansı bacarıqlar olmalıdır. Xarici dildə də, təbii ki, həmin o standartlar nəzərdə tutulub ki, dinləmə/anlama bacarıqları da olmalıdır. Bu il artıq şagirdlər proqramı yekunlaşdırıblar, 2019-cu ildən bunun tətbiqinə start verilib, proqram və dərsliklər də var. Ona görə də bu 11 ilin yekununda artıq həmin bacarıqlar formalaşmalı idi. O ki qaldı maddi-texniki təminat baxımından şəhər və yaxud rayonlarda hər hansı avadanlığın olub-olmamasına bu, başqa mövzudur. Ancaq hazırda informasiya texnologiyalarının imkanları kifayət qədər genişdir. Elə bir məktəb yoxdur ki, orada kompüter və internet olmasın. İnternet olmasa belə, təkcə kompüter kifayətdir ki, hər hansı mətni dinləyib onun məzmununu ifadə etmək və yaxud o mətnə əsasən tapşırıqları yerinə yetirmək mümkün olsun. Bunların hamısı tədris proqramında öz əksini tapıb. Dövlət standartlarına əsasən şagirdlərdə həmin o bacarıqlar formalaşmalı idi. Orada xarici dillə bağlı tapşırıqların müəyyən hissəsidir, 30 tapşırıqdan 6-sı dinləmə qabiliyyətinin yoxlanılmasını müəyyən edir. Gələcəkdə danışıq qabiliyyəti də yoxlanıla bilər. Xarici dili bilmək, müxtəlif komponentləri mənsimsəmək, oxuma, yazma, danışıq və dinləmə bacarıqları – bu dörd komponent dünya standartlarıdır. Gələcəkdə imkanlar genişləndikcə danışıq qabiliyyəti də yoxlanılmalıdır ki, onlar hansı səviyyədə öz fikirlərini ifadə edirlər. Biz imtahanda proqramdan kənar nəyisə yoxlamırıq. Bütün test tapşırıqları qüvvədə olan dərslik və tədris proqramlarına uyğun olaraq hazırlanır".

DİM imtahan prosesi başa çatdıqdan sonra bu məsələyə belə aydınlıq gətirib ki, hər zalda yalnız 1 xarici dil imtahanı olur və zallarda dinləmə materialı üçün hər zala əvvəlcədən yoxlanılmış qurğular quraşdırılır. Rəsmi protokollar üzrə builki imtahanlar üçün (magistraturanın 1-ci mərhələsi, 9-cu və 11-ci siniflərin 4 istiqamət üzrə buraxılış imtahanları və payız imtahanları) DİM tərəfindən ümumilikdə təxminən 10000 qurğu hazırlanıb və istifadə üçün göndərilib. Builki imtahanlar zamanı səs qurğuları ilə bağlı DİM-ə yalnız 4 şikayət daxil olub və texniki problemlər imtahan rəhbərinin və ya imtahan nəzarətçisinin protokolunda qeyd olunub. DİM tərəfindən hər binaya öncədən ehtiyat qurğular yerləşdirildiyi üçün problem yerindəcə həll olunaraq, 4 nasaz qurğunun hər biri yeniləri ilə əvəz olunub.

Təhsil Nazirliyinin münasibəti isə belədir: "Birincisi, dinləyib anlama məsələsi çox vacibdir, çünki dilin daşıyıcısı yalnız dilin qrammatikasını deyil, o dildə oxuyub anlamağı da bacarmalıdır. Bu, özlüyündə yenilikdir, qəbula hazırlaşan məzunun maksimum balının 5 faizini təşkil edir, yəni xarici dilin yanlız bir hissəsidir. Bu isə ümumi imtahanın əhəmiyyətli bir hissəsini deyil, yalnız kiçik bir hissəsini dəyişib. Qurğulara gəldikdə, baxın, linqafon kabineti artıq XX əsrin qurğusudur. Mobil telefonla istənilən dinləyib anlama mətninə çıxış əldə edə bilirsiniz. Bu gün Azərbaycanda smartfonun əhatəlilik səviyyəsi çoxdur. Bu cür materiallar artıq daha çox əlçatandır. İngilis və ya hər hansı xarici dilin tədrisi zamanı istifadə olunan materiallara çıxış sonsuz həddədir. Yəni söhbət Nazirliyin mərkəzləşmiş qaydada metodiki tövsiyə yazması və hamının onu əzbərləyib imtahana getməsindən getmir. Məhz məsələnin mahiyyəti odur ki, şagird ona tanış olmayan bir mətni dinləyib anlamalı və o suallara cavab verməlidir. Bundan başqa, Təhsil Nazirliyi tez-tez ixtisasartırma təlimləri keçirir, metodiki tövsiyələrimiz olur. Ancaq bunlar sadə tətbiqlərdir və insan onu öyrənə bilər. Cəmiyyətdə

belə bir gözlənti olmamalıdır ki, Nazirlik gəlib onlara qurğudan istifadə ilə bağlı təlim keçəcək. Zərurət olduğu halda insanlar hansısa formada öyrənirlər. Əvvəl hansısa formada testlər çox az idi, insanlar bir testin nüsxəsini çıxarıb paylayırdılar. Bu gün isə kifayət qədər test var. Ümumiyyətlə, müasir təhsilin məzmununu bir mənbəyə bağlamaq səhvdir. İnsanın həyatda üzləşdiyi situasiyalar əvvəldən hazırlanmış yox, məlum olmayan situasiyalardır. Hər bir dəyişiklik, yenilik, insanlarda narahatlıq yaradır. Proses asan deyil, müəyyən mənada ballar da onu göstərir ki, şagirdlərin çətinliyi var. Ancaq bu, zaman məsələsidir, getdikcə hər növbəti sinif bunu daha asanlıqla cavablandıracaq”.

Təhsil ekspertləri də bu fikirdədirlər ki, “hər hansı bir yenilik cəmiyyətdə heç də bütün toplum tərəfindən birmənalı qarşılanmır və istər-istəməz müəyyən problemlərin ortalığa çıxması ilə müşayiət olunur ki, bu da nəticə etibarilə narazılıqsız ötüşmür. Bununla belə, buraxılış və qəbul imtahanlarında iştirak edəcək şagirdlərə və abituriyentlərə kömək məqsədilə yeni model əsasında sınaq imtahanları, o cümlədən də ingilis dili fənni üzrə monitorinq imtahanları keçirilib, qismən də olsa, müvafiq tədbirlər görülüb” *(Nadir İsrafilov);* “Bu, gecikmiş bir addımdır, çoxdan atılmalı idi. Bu addımı alqışlayıram. Ölkədə 151 min müəllim var və ibtidai sinif müəllimlərindən sonra təqribən ən çox müəllim sayı xarici dil üzrədir. Onların sayı 20-25 min arasındadır. Bu müəllimlərin yüzdə 95-i xarici dildə danışa bilmir. “Təhsil haqqında” Qanunun 19-cu maddəsinə, o cümlədən yeni qəbul olunmuş ümumtəhsil haqqında qanuna görə, tam orta təhsil səviyyəsini bitirən şagirdlər ən azı bir və yaxud da bir neçə xarici dildə ünsiyyət qurmağı bacarmalıdırlar. Bu sahədə müəllimlərin peşəkarlıq səviyyəsinin nə qədər aşağı səviyyədə olduğunu yuxarıdakı rəqəmlə izah etmək mümkündür” *(Elşən Qafarov).*

Bu kontekstdə onu da əlavə edək ki, ingilis dili fənni üzrə amerikalı mütəxəssis Neytn Kar DİM-də təlim keçirib. Təlim mərkəz tərəfindən ingilis dili fənni üzrə bilik və bacarıqların qiymətləndirilməsi istiqamətində görülən işlərə kömək göstərmək məqsədilə ABŞ-ın Azərbaycandakı səfirliyinin dəstəyi ilə səfirliyin “İngilis dili mütəxəssisi” (ELS) proqramı çərçivəsində təşkil olunub. Layihənin birinci mərhələsi aprelin 1-dən başlanıb və 12-dək davam edib. Bu mərhələ əsasən DİM-in ingilis dili fənni üzrə qiymətləndirmə təcrübəsinin nəzərdən keçirilməsi, o cümlədən yerli müəllimlərin qiymətləndirilmə bacarıqları (yazı, oxu, dinləmə üzrə) ilə tanışlıq xarakteri daşıyıb. Səfər çərçivəsində Neytn Kar DİM tərəfindən aprelin 7-də keçirilən tam (11 illik) orta təhsil bazasında buraxılış imtahanı materiallarının hazırlanma prosesində iştirak edib. Neytn Kar qeyd edib ki, beynəlxalq təcrübədə buraxılış imtahanında əksər hallarda ingilis dili fənni üzrə müstəqil imtahan keçirilir: “Hazırda Azərbaycanda ingilis dili imtahanı buraxılış imtahanının bir hissəsi kimi həyata keçirilir. Yaxşı olardı ki, ingilis dilinin nəticələrində dil üzrə yazı, oxu, dinləmə, danışma bacarıqlarının hamısı görünsün. Məsələn, elə ali məktəblər var ki, onlar konkret yazı ilə bağlı olan balı yüksək qiymətləndirirlər, çünki bu keyfiyyət orada təhsil alarkən tələbənin köməyinə gəlir. Ona görə də ingilis dili imtahanında müxtəlif bacarıqlara uyğun nəticələrin verilməsi vacibdir ki, bu da gələcəkdə həmin fənn üzrə müstəqil imtahan keçirmək imkanını zəruri edir. Digər tərəfdən, beynəlxalq standartlara əsasən imtahana 3 saat vaxt ayrılması tövsiyə olunur. İngilis dili ilə bağlı əlavə bacarıqlar daxil ediləcəyi halda, imtahanın müddəti çoxalacaq və bu, şagirdlərdə narahatlıq yaradacaq. Bütün bunları nəzərə almaq lazımdır”.

### II.9. 2018-ci və 2019-cu illərdə keçirilən imtahanların müqayisəli təhlili: “700 bal” problemi, aşağı göstəricilərin səbəbləri, yeni modellə əvvəlki modelin mürəkkəblik səviyyəsi

Builki buraxılış və qəbul imtahanlarının yeni modeli ətrafında gedən müzakirələrdə diqqət çəkən məqamlardan biri də 700 bal toplayanların sayı ilə bağlı idi. Milli Məclisin üzvləri, təhsil ekspertləri və media nümayəndələri arasında gedən müzakirələrə cavab olaraq DİM-in Direktorlar Şurasının sədri Məleykə Abbaszadə “700 bal toplayanlardan ötrü “ah-nalə” adlı məqalə ilə çıxış edərək müzakirələrə, belə demək mümkünsə, yekun vurdu. DİM rəhbərinin qeydinə görə, test imtahanları 1992-ci ildən etibarən keçirilsə də, ilk 700 bal toplayanlar 2007-ci ildə qeydə alınıb: “Vurğulamaq lazımdır ki, bundan öncə 2001-ci ildə ölkə Prezidentinin müvafiq Fərmanına əsasən qəbul imtahanlarında ən yüksək bal toplayan abituriyentlərə Prezident təqaüdü təyin edilmişdir. Bununla da, abituriyentlərdə nəinki bu və ya digər ixtisasa qəbul olunmaq üçün tələb olunan balları toplamaq, eyni zamanda təqaüd almaq üçün öz ixtisas qrupunda birinci olmağa motivasiya yaranmışdır. Məhz bunun nəticəsində 2007-ci ildə ilk “700 ballı”ları müşahidə etdik. Qeyd etmək lazımdır ki, pedaqoji nöqteyi-nəzərdən 650 baldan yuxarı nəticə göstərən abituriyentləri bir-birindən fərqləndirmək düzgün deyil. Onların hamısı çox savadlı və məqsədyönlü şəxslərdir. Lakin müsabiqənin xüsusiyyətləri və abituriyentlərin iddia etdikləri müxtəlif ixtisaslarda yerlərin məhdud sayı konkret bir parametrin, yəni bədnam insan amili olmadan (insan amili dedikdə tapşırıq və ya pul ilə nəyisə həll etmək nəzərdə tutulur) abituriyentləri sıralamağa imkan verən balın zəruriliyini diktə edir. Ballar məhz bunun üçün lazımdır”.

Bəzi təhsil ekspertləri də bu fikirdədir ki, balların aşağı düşməsini faciəyə çevirməyə və ya fəlakət kimi




qiymətləndirməyə, 700 bal ətrafında hay-küy salmağa heç bir lüzum yoxdur: "Bu, əsasən yeni modelə keçidlə, açıq tipli tapşırıqlara kifayət qədər adaptasiyanın olmaması ilə əlaqədar məsələdir. Əlbəttə, tapşırıqların çətinlik dərəcəsinin bölgüsü, səhv sualların yer alması halları da olub və DİM bəzi məqamları etiraf edib, bəzi məqamlara aydınlıq gətirib, bəzi məqamlar isə apellyasiya şikayətləri zamanı nəzərə alınıb. O ki qaldı bilik səviyyəsinin aşağı düşməsinə, bir ildə bilik səviyyəsi belə kəskin şəkildə nə aşağı düşə, nə də yüksələ bilər. Bunun üçün illər, hətta onilliklər tələb olunur" *(Nadir İsrafilov).*

Lakin bəzi təhsil ekspertləri fərqli düşünür: "Balların bu il aşağı düşməsi təhsil səviyyəsinin ildən-ilə, hətta aydan-aya aşağı düşməsi, eyni zamanda, buraxılış və qəbul imtahanları ilə bağlı modelin yeni olması və bu üzdən adaptasiyanın ləng getməsi ilə bağlıdır" *(Elşən Qafarov).*

**85%-dən çox respondent "Buraxılış və qəbul imtahanlarının ilkin nəticələri belə deməyə əsas verir ki, bu il 700 bal toplayan olmayacaq" fikri ilə razı olduğunu bildirib.**

Sorğunun nəticələrinə gəlincə, *"Buraxılış və qəbul imtahanlarının ilkin nəticələri belə deməyə əsas verir ki, bu il 700 bal toplayan olmayacaq"* fikri ilə abituriyentlərin 63%-i (251 nəfər) tam razı, 16,5%-i (66 nəfər) razı, 10%-i (40 nəfər) qismən razı olduğunu,






8%-i (33 nəfər) razı olmadığını, 2,5%-i (9 nəfər) isə heç razı olmadığını bildirib.

Valideyn və müəllim respondentlərin 41,8%-nin fikrincə, bu il 700 bal toplayan olmayacaq. 20,9% respondent bu fikirlə razı, 20,9% qismən razıdır, 9,2%-i razı deyil, 2,1%-i heç razı deyil, 5,1%-i cavab verməkdə çətinlik çəkib.

İmtahanlarda 700 bal toplaya bilməməyin səbəbləri sırasında abituriyentlərin 35%-i (193 nəfər) buraxılış və qəbul imtahanlarının modelinin yeni olmasını, 18%-i (102 nəfər) sualların forma və məzmununun mürəkkəb olmasını, 13%-i (70 nəfər) çətin tapşırıqların olmasını, 9%-i (49 nəfər) daha çətin tapşırıqların olmasını, 10%-i (56 nəfər) təhsilin (abituriyentlərin) bilik səviyyəsinin getdikcə aşağı düşməsini, 15 %-i (81 nəfər) isə açıq tipli sualların imtahana salınmasını qeyd ediblər.

**Respondentlərin 35%-i 700 bal toplaya bilməməyin səbəbləri sırasında buraxılış və qəbul imtahanlarının modelinin yeni olmasını qeyd edib.**

Ümumilikdə sorğunun nəticəsi göstərir ki, balların aşağı düşməsinin əsas səbəbi buraxılış və qəbul imtahanlarının modelinin yeni olması və bununla bağlı olaraq sualların forma və məzmununun mürəkkəb olmasıdır.

*"Buraxılış və qəbul imtahanlarının yeni modeli əvvəlki illərin qəbul modeli ilə müqayisədə mürəkkəb idimi?"* sualına abituriyentlərin cavabları aşağıdakı kimi olmuşdur:






Respondentlərin 31%-i (123 nəfər) **buraxılış imtahanlarının** yeni modelinin əvvəlki illərin qəbul modeli ilə müqayisədə çox mürəkkəb, 31%-i (123 nəfər) mürəkkəb, 21%-i (83 nəfər) qismən mürəkkəb olduğu, 11%-i (43 nəfər) mürəkkəb olmadığı, 6%-i (26 nəfər) heç mürəkkəb olmadığı qənaətindədirlər.

**80%-dən çox respondent üçün buraxılış və qəbul imtahanlarının yeni modeli əvvəlki illərin qəbul modeli ilə müqayisədə mürəkkəb olub.**

**Qəbul imtahanlarına** gəlincə, respondentlərin 33,5%-i (133 nəfər) qəbul imtahanlarının yeni modelinin əvvəlki illərin qəbul modeli ilə müqayisədə çox mürəkkəb, 32,5%-i (130 nəfər) mürəkkəb, 22,5%-i (90 nəfər) qismən mürəkkəb olduğu, 8%-i (43 nəfər) mürəkkəb olmadığı, 3,5%-i (14 nəfər) heç mürəkkəb olmadığı fikrindədirlər.

Göründüyü kimi, abituriyentlərin 80%-indən çoxu üçün həm buraxılış, həm də qəbul imtahanlarının yeni modeli əvvəlki illərin modeli ilə müqayisədə mürəkkəb olmuşdur.

### II.10. Buraxılış və qəbul imtahanlarının keçirilmə vaxtına münasibət: Təhsil ili başa çatmamış imtahanların keçirilməsi nə dərəcədə düzdür? DİM nə deyir?

Respondentlərin 35%-ni (140 nəfər) **buraxılış imtahanlarının** keçirilmə vaxtı tam qane edir, 28%-ni (112 nəfər) qane edir, 12,5%-ni (50 nəfər) qismən qane edir, 15%-ni (60 nəfər) qane etmir, 9,5%-ni (38 nəfər) isə heç qane etmir.

Respondentlərin 40,5%-ni (162 nəfər) **qəbul imtahanlarının** keçirilmə vaxtı tam qane edir, 29%-ni (116 nəfər) qane edir, 15%-ni (59 nəfər) qismən qane edir, 9,5%-ni (38 nəfər) qane etmir, 6%-ni (25 nəfər) isə heç qane etmir.

**Respondentlərin 70%-dən çoxunu buraxılış, 80%-dən çoxunu qəbul imtahanlarının keçirilmə vaxtı qane edir.**

Göründüyü kimi, abituriyentlərin 75%-dən çoxunu buraxılış və qəbul imtahanlarının keçirilmə vaxtı, demək olar ki, qane edir. Lakin sorğuda iştirak edən bəzi valideynlər bu fikirdədirlər ki, imtahanların 2 dəfə keçirilməsi abituriyentlərdə gərginlik yaradır. Hətta onların arasında imtahanların yayda keçirilməsinin düzgün olmadığını qeyd edənlər də var.

**Təhsil ekspertlərinin əksəriyyəti tədris ili başa çatmamış imtahanların keçirilməsini düzgün hesab etmir.**

Təhsil ekspertləri bu fikirdədirlər ki, "geniş ictimaiyyət arasında ən çox hallanan məsələlərdən biri də məhz tədris ili başa çatmamış imtahanların keçirilməsi ilə əlaqədar məsələdir. Bunu əsasən il ərzində iki tədris həftəsinin artırılması və dərs ilinin başlanmasının ənənəvi olaraq sentyabrın 1-i deyil, 15-nə keçirilməsi nəticəsində yaranan fəsad kimi qiymətləndirmək olar. Burada əsasən beynəlxalq təcrübə və iqlim amili əsas gətirilir. DİM isə imtahanların tədris ili başa çatmamış keçirilməsini iş qrafikinin həd-

dən artıq yüklü olması ilə izah edir" *(Nadir İsrafilov);* "2019-cu ildə ali məktəblərə qəbul imtahanlarındakı yeniliklərdən biri də buraxılış imtahanlarının tədris ili bitməmiş, yəni 11-ci sinif proqramı tam mənimsənilməmiş keçirilməsi oldu. Xatırladaq ki, əvvəlki illərdə qəbul imtahanları tədris ili başa çatmamış, mayda keçirilsə də, buraxılış imtahanları tədris ili başa çatandan sonra, iyun ayında keçirilirdi. Bu ildən etibarən isə həm buraxılış imtahanı, həm də qəbul imtahanı tədris ili başa çatmamış keçirildi. Tədris proqramının mənimsənilməsi tədris ili başa çatmamış ancaq repetitor və hazırlıq kurslarında mümkündür. 2017-2018-ci il üçün keçirilən qəbul imtahanlarında I ixtisas qrupu üzrə 5 abituriyent, II ixtisas qrupu üzrə 2 abituriyent, III ixtisas qrupu üzrə 1 abituriyent, IV ixtisas qrupu üzrə isə 2 abituriyent orta məktəbdə oxumasına və tədris proqramını bitirməməsinə baxmayaraq, bütün mövzulardan təqdim olunmuş test tapşırıqlarına doğru cavab verib. 2018-2019-cu tədris ilində isə 19 abituriyent tədris ili başa çatmamış tədris proqramını mənimsəyib 700 bal toplamışdı. Əlbəttə, abituriyentlərin yüksək bal toplaması sevindirici haldır. Burada bir ziddiyyətli məqam ortaya çıxır. Əgər şagird apreldə keçirilən buraxılış imtahanından və mayda keçirilən qəbul imtahanından yüksək nəticə göstərsə və müsabiqə şərtlərini ödəsə, o, orta məktəbə dərsə getməyə bilər, çünki potensial tələbə hesab edilir. Qəbul və buraxılış imtahanlarının tədris ili başa çatmamış keçirilməsi orta məktəblərin 11-ci siniflərində davamiyyətə mənfi təsir göstərə bilər" *(Kamran Əsədov).*

DİM-in bu məsələyə münasibəti belədir ki, buraxılış imtahanlarının 1-ci mərhələsi aprel ayının əvvəlindən sonunadək 4 istiqamət üzrə keçirilib və nəticələr may ayının 12-dən etibarən elan olunub. Daha sonra qəbul imtahanlarının 1-ci mərhələsi may ayının 12-si və 19-da keçirilib. May ayının 12-də keçirilən imtahanların nəticələri 9 gün ərzində, 19-da keçirilən imtahanların nəticələri isə (3-cü qrup üzrə) 10-13 gün ərzində elan olunub. Şagirdin nəticələri məlum olduqdan sonra məktəbdə davamiyyətinin zəif olmasını ali məktəbə qəbul imtahanları ilə əlaqələndirmək düzgün deyil. Əgər şagird məktəbə mütəmadi olaraq getməsə, burada başqa problemlər ortaya çıxa bilər (məsələn, şagird attestat almaya bilər).

### II.11. Apellyasiya Komissiyasının fəaliyyətinə münasibət

Yuxarıda qeyd olunduğu kimi, sorğu iyunun 23-də (I və IV ixtisas qrupları üzrə ikinci imtahan) və iyulun 7-də (II və III ixtisas qrupları üzrə ikinci imtahan – yay imtahanı) keçirilib. Bundan əvvəl isə abituriyentlər ali təhsil müəssisələrinə I və IV ixtisas qrupları üzrə birinci (yaz) qəbul imtahanını mayın 12-də, II və III ixtisas qrupları üzrə isə mayın 19-da veriblər. Bunu nəzərə alaraq respondentlərə Apellyasiya Komissiyasına müraciət edib-etməməsi və ümumilikdə komissiyanın fəaliyyətinə münasibət öyrənilmişdir.

**Respondentlərin 97%-i DİM-də yaradılmış Apellyasiya Komissiyasına müraciət etməyib.**

Rəyi soruşulan respondentlərin 97%-i (388 nəfər) DİM-də yaradılmış Apellyasiya Komissiyasına müraciət etməmiş, yalnız 3%-i (12 nəfər) müraciət et-



mişdir. Qeyd etmək lazımdır ki, bizim seçmədə apellyasiyaya müraciət edənlərin sayı çox az olduğuna görə Apellyasiya Komissiyasının fəaliyyətinə abituriyentlərin münasibəti barədə əsaslı fikir söyləmək mümkün deyil.

DİM-də yaradılmış Apellyasiya Komissiyasına cavablarının qiymətləndirilməsindən narazı qalan abituriyent və valideynlərin heç də hamısı müraciət etmir. Məsələn valideynlərdən biri qeyd edir: "Mənim övladım buraxılış imtahanlarının nəticələrindən razı deyildi. Dedi ki, mənim düz cavablarım səhv hesablanıb. Xüsusilə qapalı yox, açıq tipli suallara verdiyim cavablar səhv hesablanıb. Biz Apellyasiya Komissiyasına müraciət etdik. Ərizəmizə baxdılar və həqiqətən məlum oldu ki, verilən cavablar səhv hesablanıb. Yəni biz sübut edə bildik ki, oğlum düz yazıb, lakin səhv hesablanıb. Övladım özü də cavabların yenidən yoxlanılması prosesində iştirak etdi, mən də bir valideyn kimi yanında oldum. Beləliklə, balımızın üzərinə ballar əlavə olundu. Mənim müşahidələrimə görə müraciət edənlərin 90%-i müsbət nəticə əldə edirlər. Bu problem birdəfəlik həll olunmalıdır. Xüsusilə açıq tipli sualların düzgün hesablanması və qiymətləndirilməsində problemlər var. Yəni sistemdə boşluq var. Mən müşahidə etdim ki, cavabları yoxlayanların əksəriyyəti cavanlar idi. Düzdür, mən onların elminə, biliyinə şübhə etmirəm. Lakin, fikrimcə, bu prosesə daha təcrübəli mütəxəssislər cəlb edilməlidir. Çünki həm abituriyentlər, həm də valideynlər bu səbəbdən əziyyət çəkirlər. Axı hamının da vaxtı olmur ki, gəlib müraciət etsin. Mən şəxsən 2 dəfə gəlib-getmişəm. Onu da qeyd edim ki, bəzi valideynlər deyirlər ki, müraciət etməyin heç bir xeyri yoxdur. Qeyd etmək istəyirəm ki, valideynlərin əksəriyyəti ya vaxtlarının olmaması, yaxud da məlumatsızlıq ucbatından Apellyasiya Komissiyasına müraciət etmirlər. Tövsiyə edərdim ki, valideynlər və abituriyentlər bu hüquqlarından istifadə etsinlər".

Təhsil ekspertləri məsələyə fərqli yanaşırlar: "Mən ekspert qismində dəfələrlə Apellyasiya Komissiyasının fəaliyyətini izləmişəm və hər hansı bir pozuntuya və şikayətçilərə qarşı qeyri-etik davranışlara yol verilməsinin şahidi olmamışam" *(Nadir İsrafilov)*; "Elə insanlar var ki, Apellyasiya Komissiyası onların mövqeyini müdafiə edir və ballarını bərpa edir. Eləsi də var ki, heç gedib oraya çıxa bilmir. Axı bir bal da bəzən bir gəncin taleyini həll edir. Ümumiyyətlə, bu prosesdə bu qədər şikayətin olması ürəkaçan deyil" *(Elşən Qafarov)*.

Qeyd edək ki, DİM-in verdiyi məlumata görə, tam (11 illik) orta təhsil səviyyəsi üzrə təhsilalanların biliyinin yekun qiymətləndirilməsi (attestasiyası) və ali təhsil müəssisələrinə qəbul imtahanlarının nəticələri ilə bağlı yaradılmış Apellyasiya Komissiyasına (Nəsimi rayonu, Abdulvahab Salamzadə küçəsi, 28) 1593 nəfər buraxılış imtahanları üzrə, 54 nəfər I qrup üzrə, 111 nəfər II qrup üzrə, 55 nəfər III qrup üzrə, 45 nəfər isə IV qrup üzrə olmaqla ümumilikdə 1858 məzun və ya abituriyent (bütün imtahan verənlərin 1,11 faizi) qiymətlərinin araşdırılması üçün ərizə ilə müraciət edib. Bu müraciətlərdə buraxılış imtahanlarından 14 minə yaxın, qəbul imtahanlarından isə 800-dək olmaqla ümumilikdə 14800 (bütün yazı işlərinin 0,49 faizi) yazı işi (tapşırıq) üzrə qiymətlərin araşdırılması üçün müraciət olunub. Bütün müraciətlər araşdırılıb və onları yazanlar dəvət edilərək iş üzrə birlikdə müzakirə aparılıb (regionlarda yaşayanlar ilə telefonla əlaqə saxlanılıb, apellyasiyanın nəticəsi bildirilib və müvafiq izahlar verilib).

Apellyasiyaya müraciət edənlərdən 726 şagird və ya abituriyentin (bütün imtahan verənlərin



0,43 faizi) cəmi 892 tapşırıq (bütün tapşırıqların 0,03 faizi) üzrə qiymətində dəyişiklik edilib, digər iddialarla bağlı isə şagirdlərə yazı işinin yerinə yetirilməsində yol verdikləri səhvlər izah olunub. Təxminən 70 müraciətdə edilən düzəliş imtahan verənin tapşırığın həllini (və ya cavabını) başqa tapşırıq üçün ayrılan yerdə yazması ilə bağlı meydana gələn hallara aiddir.

200-dən çox şagird və ya abituriyent bu və ya digər fənn üzrə bütün tapşırıqlarla bağlı müraciət edib, amma araşdırma zamanı məlum olub ki, müraciət etdikləri fənn üzrə heç bir yazı işini yerinə yetirməyiblər. 58 şagird və ya abituriyent ərizə yazmalarına baxmayaraq apellyasiyada iştirakdan imtina edib və ya apellyasiyaya gəlməyib. Bununla belə, onların da ərizələri araşdırılıb və qiymətləndirmə meyarlarına uyğun qərarlar verilib. Həmçinin Apellyasiya Komissiyasının qərarı ilə 2019-cu il aprelin 7-də keçirilmiş imtahanın bir tapşırığının (B variantında 48 nömrəli, D variantında 47 nömrəli, F variantında 47 nömrəli, H variantında 47 nömrəli) qiymətləndirmə meyarına "hadisələri" sözü də doğru cavab kimi daxil edilib və həmin tapşırığı bu şəkildə cavablandıran 136 şagirdin nəticəsində müvafiq dəyişiklik edilib.

Xatırladaq ki, buraxılış imtahanlarında 100 minə yaxın, dörd qrup üzrə qəbul imtahanlarında 67600-ə yaxın şagird iştirak edib və bu şagirdlərin ümumilikdə 3 milyondan çox tapşırıq üzrə yazı işi yoxlanılıb.

Beləliklə, müşahidələr göstərir ki, bu il Apellyasiya Komissiyasına müraciət edənlərin sayı əvvəlki illərlə müqayisədə çoxdur. Üstəlik, apellyasiyada abituriyentlərin haqlı çıxma halları da bu il daha çox müşahidə olunub. DİM-in markerlərinin xətası üzə çıxdıqca imtahan verəndə imtahan götürən müəssisəyə qarşı inam azalır. Növbəti illərdə hazırda müşahidə olunan bu problemi ciddi surətdə aradan qaldırmaq lazımdır. Çünki müəllimlərin də, abituriyentlərin də DİM-in imtahan peşəkarlığına inamı yüksəkdir. Sualların yoxlanılmasında yarana biləcək sıxıntılar bu inamı azalda bilər. Yoxlamada markerlərin peşəkarlığının artırılması DİM-i ciddi düşündürən məsələlərdən biri olmalıdır.

### II.12. Qəbul imtahanlarında iştirakla bağlı ödənişin məbləğinə münasibət

DİM-in qəbul imtahanlarında iştirakla bağlı tətbiq etdiyi ödənişin məbləği respondentlərin 11%-ni (44 nəfər) tam qane edir, 21%-ni (83 nəfər) qane edir, 21,5%-ni (86 nəfər) qismən qane edir, 29,5%-ni (118 nəfər) qane etmir, 17%-ni (69 nəfər) heç qane etmir.

DİM-in qəbul imtahanlarında iştirakla bağlı tətbiq etdiyi ödənişin məbləği valideyn və müəllim respondentlərin 30,8%-ni heç qane etmir, 33,3%-ni qane etmir, 18%-ni qismən qane edir, 17,9%-ni qane edir.

**İmtahanlarda iştirakla bağlı ödənişin məbləği respondentlərin (valideyn və müəllimlərin) 60%-dən çoxunu qane etmir.**

Ümumilikdə imtahanlarda iştirakla bağlı ödənişin məbləği respondentlərin 60%-dən çoxunu qane etmir. Respondentlər ödənişin məbləğinin orta hesabla 19-20 manat arasında olmasını arzu ediblər.

Qəbul imtahanlarında iştirakla bağlı ödənişin məbləğinə abituriyentin və ya onun valideyninin münasibətinə dair müxtəlif coğrafi bölgələr arasında fərq aşkar edilməyib.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2017-ci il tarixli sərəncamına əsasən Tarif (qiymət) Şurasının 6 mart 2017-ci il tarixində keçirilmiş iclasında Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəz tərəfindən göstərilən ödənişli xidmətlərin tariflərinin tənzimlənməsi məsələsinə baxılmış və müvafiq qərar qəbul edilmişdir. Belə ki, tələbə qəbulu ilə bağlı ödənişli xidmətlərin tarifləri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 8 fevral tarixli müvafiq qərarları ilə təsdiq edilən qaydalara uyğun 9 qrup üzrə təsnifatlaşdırılmaqla imtahanın növündən asılı olaraq 10-100 manat arasında müəyyənləşdirilmişdir. Qeyd edək ki, sonrakı illərdə bəzi imtahanlara ƏDV əlavə edildikdən sonra ödənişin məbləğində az da olsa artım müşahidə edilmişdir.

Əlavə edək ki, "Azərbaycan Respublikasında ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu imtahanlarının təşkilinin tənzimlənməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən ali təhsil müəssisələrinə tələbə qəbulu ilə bağlı imtahanda iştirak üçün ilk dəfə müraciət edən Azərbaycan Respublikası vətəndaşlarının (yalnız ümumtəhsil müəssisələrini bitirən) cari ildə keçirilən qəbul imtahanında (imtahanın ikinci mərhələsi üzrə keçirilən imtahanlarda ikinci dəfə iştirak istisna olmaqla) iştirakı dövlət büdcəsinin vəsaiti hesabına ödənilib. Digər abituriyentlər isə ərizəni təsdiq etmək üçün tələb olunan məbləği (40 manat) şəxsi kabinetindəki hesabına əlavə ediblər. Həmin məbləğ ərizə təsdiq olunduqdan sonra onların şəxsi kabinetindəki hesabından çıxılır.

### II.13. İmtahan prosesinin abituriyentlərin mənəvi-psixoloji vəziyyətinə təsirləri. Psixoloq və sosioloq rəyi

Adətən, imtahan prosesi həm abituriyentlər, həm də valideynlər üçün stress və gərginliklə




müşayiət olunur. Çox vaxt sosial çevrənin təzyiqi altında imtahanların mənası təhrif olunur, nəticədə gənclər və yeniyetmələr yanlış olaraq imtahanlara özlərinin bir şəxs kimi dəyərinin müəyyən olunması vasitəsi kimi baxırlar. Bu cür yanaşma həm imtahanlardan əvvəl, həm də imtahandan sonra lazımsız dərəcədə psixoloji gərginliyə, imtahan zamanı təlaşa, sonra isə məyusluğa səbəb olur. Belə hallarda düşüncələrin düzgün idarə edilməsi və sosial çevrə ilə münasibətlərin tənzimlənməsi imtahan verənlərin gərginliyinin azalmasına, diqqətin və hazırlığın səmərəsinin artmasına, imtahan nəticələrinin yüksəlməsinə və düzgün nəticələr çıxarılmasına töhfə verə bilər. Bəzən bu gərginlik və məsuliyyət hissi imtahanda uğur qazana bilməyən abituriyentlərin intihar etməsinə də gətirib çıxarır. Bu da hər şeydən öncə ailə-məktəb-cəmiyyət üçbucağında kompleks tədbirlərin görülməsi zərurətini diktə edir. Ailədaxili, məktəbdaxili, cəmiyyətdaxili münasibətlər düzgün istiqamətdə tənzimlənməsə, münasibətlər sosial dialoq müstəvisinə köçürülməsə, ölkəmiz üçün sağlam düşüncəli vətəndaş yetişdirə bilmərik. Sosial dialoqun təmin edilməsi üçün ilk növbədə sosial-psixoloji istiqamətdə ünsiyyətin davamlılığının təmin edilməsi vacib amildir.

Bu məqamları nəzərə alıb imtahan prosesinin abituriyentlərin mənəvi-psixoloji vəziyyətinə təsirlərini müəyyən etmək üçün abituriyent və valideynlərə bir neçə sualla müraciət olunub.

*"İmtahanların bir neçə mərhələdə keçirilməsi abituriyentlərdə gərginlik yaradır"* mülahizəsi ilə respon-






dentlərin 28%-i (111 nəfər) tam razıdır, 17%-i (68 nəfər) razıdır, 12%-i (49 nəfər) qismən razıdır, 21,5%-i (86 nəfər) razı deyil, 21,5%-i (86 nəfər) heç razı deyil.

**Respondentlərin 55%-dən çoxu bu fikirdədir ki, imtahanların bir neçə mərhələdə keçirilməsi abituriyentlərdə gərginlik yaradır.**

*"İmtahanların bir neçə mərhələdə keçirilməsi abituriyentlərə əlavə şans verir"* mülahizəsi ilə respondentlərin 65,5%-i (262 nəfər) tam razıdır, 21,5 %-i (86 nəfər) razıdır, 6,5%-i (25 nəfər) qismən razıdır, 3,5%-i (14 nəfər) razı deyil, 3%-i (12 nəfər) heç razı deyil.

Hər iki mülahizənin müqayisəsi göstərir ki, abituriyentlərin 55%-dən çoxu imtahanın bir neçə mərhələdə keçirilməsinin abituriyentdə gərginlik yaratması qənaətindədirsə, 90%-dən çoxu bunun abituriyentə əlavə şans verdiyini düşünür.

DİM-in bu məsələyə münasibəti belədir ki, abituriyentlərə builki qəbul imtahanında verilən ikinci şansı qeyd etməklə yanaşı, əldə olunan hər iki imtahan üzrə nəticələrin abituriyentin istədiyi qrup üzrə dəyərləndirməsini də ayrıca bir əlverişli şans kimi təqdim etmək vacibdir. Həmçinin, abituriyentin ixtisas seçimi zamanı kodlaşdırmada hər iki qrupun ixtisaslarını seçə bilmə şansı da vacib faktordur. Bu, əslində qəbul modelində (yalnız imtahan modelində deyil) fərqli və ali təhsilin arzu olunan sahələr üzrə əlçatan olma imkanını bir neçə dəfə artırmış olur.






Abituriyentlərin 45%-i (237 nəfər) imtahana mənəvi-psixoloji cəhətdən hazırlaşmağında valideynlərinin, 33%-i (172 nəfər) müəllimlərinin, 1%-i (7 nəfər) psixoloqun, 12 %-i (60 nəfər) qohumların/dostların, 2%-i (10 nəfər) internetin/sosial şəbəkələrin rolu olduğunu bildirib, 7%-i (35 nəfər) isə bu barədə düşünməyə heç vaxtı olmadığını qeyd edib.

**Respondentlərin 90%-dən çoxu bu fikirdədir ki, imtahanların bir neçə mərhələdə keçirilməsi abituriyentlərə əlavə şans verir.**

*"Övladınızın imtahana mənəvi-psixoloji cəhətdən hazır olmasına yardım göstərmisinizmi, göstərmisinizsə necə?"* sualına valideyn respondentlərin 48,2%-i "Bəli, ona səbrli olmağı tövsiyə etmişəm", 45,5%-i "Çalışmışam hər zaman yanında olduğumu hiss etsin", 6,3%-i "Xeyr, heç bir məsləhət verməmişəm" cavabını verib.

**Respondentlərin 45%-i imtahana mənəvi-psixoloji cəhətdən hazırlaşmağında valideynlərinin, 33%-i müəllimlərinin rolu olduğunu bildirib.**

*"Övladınızın imtahana psixoloji cəhətdən hazırlaşmağında kimlərin/nələrin rolu olub?"* sualına valideyn respondentlərin 56%-i valideynlərinin, 24%-i müəllimlərinin, 6%-i psixoloqun, 5%-i qohumların/dostların, 3%-i internetin/sosial şəbəkələrin rolu olduğunu qeyd edib. 6% respondentin "bu barədə düşünməyə heç vaxtı olmayıb" cavabını verib.

*"Övladınız ali məktəbə qəbul olmasa, nə edərdiniz?"* sualına respondentlərin 36,4%-i "Çalışaram üstünə çox getməyim, özünə qapanmasın", 21,2%-i "Təskinlik verməyə çalışaram", 39,3%-i "Qəbul ola bilməməsinin səbəbləri ilə maraqlanardım", 3,1%-i "Heç bir söz deməzdim" cavabını verib.

Ümumilikdə sorğunun nəticələri və müşahidələr göstərir ki, abituriyentlərin imtahana mənəvi-psixoloji cəhətdən hazırlaşmasında valideynlərin və müəllimlərin böyük rolu var. Maraqlıdır ki, abituriyentlərin 1%-i psixoloq yardımından istifadə etdiyini, valideynlərin 6%-i övladının imtahana hazırlaşarkən psixoloqun köməyi olduğunu bildirmişdir. Ola bilsin ki, aradakı 5%-lik fərq abituriyentlərin psixoloq yardımından istifadə etməsini dilə gətirmək istəməməsindən qaynaqlanır. Araşdırmalar da sübut edir ki, şagirdlərin mənəvi-psixoloji cəhətdən sağlam ruhda böyüməsi üçün ailə-məktəb-cəmiyyət üçbucağındakı hər bir tərəf üzərinə düşən məsuliyyəti dərk etməlidir. Orta məktəblərdə "məktəb psixoloqu" sosial təsisatının fəaliyyətinin gücləndirilməsi, xüsusilə bu sahədə mütəxəssis hazırlığına və bu işin məhz hazırlıqlı mütəxəssislərə həvalə edilməsinə nəzarət edilməsi, orta məktəb rəhbərliyinin, müəllimlərin, psixoloqların iştirakı ilə məktəblilərin psixoloji "portretinin" tərtib edilməsi, həssas şagird qruplarının müəyyənləşdirilməsi, onlar barədə ətraflı məlumatların hazırlanması və s. vacibdir.

Digər bir məqam: bəzi mental davranışlardan, stereotiplərdən getdikcə xilas olmalıyıq. "Mən dəli deyiləm ki, psixoloqa müraciət edim" zehniyyətindən xilas olub, bir az da problemlərə lap elə avropalı düşüncəsindən yanaşmalıyıq. Əslində normal cəmiyyətdə hər bir insan problemlərdən çıxış yolu




tapmayanda, müəyyən "beyin krizi" keçirəndə psixoloqa müraciət edir. Təəssüf ki, biz hələ də müəyyən sterotiplərdən xilas ola bilmədiyimizdən və həm də heç şübhəsiz, peşəkar psixoloq azlığından bu addımı ata bilmirik. Bundan başqa, Azərbaycanda 2018-ci ilin sonunda "Psixoloji yardım haqqında" Qanun qəbul edilsə də, hələ ki əməli fəaliyyətdə heç bir inkişaf görünmür.

Mövzu ilə bağlı təhsil üzrə psixoloq və sosioloqlara bir neçə sualla müraciət olunub. *"Sizcə, buraxılış və qəbul imtahanlarının bir neçə mərhələdə keçirilməsi abituriyentlərin mənəvi-psixoloji vəziyyətinə təsir edirmi?"* sualına ekspetlərin cavabları belə olub: "Hər bir imtahan mərhələsi özlüyündə yeni bir həyəcan gətirir, "imtahanlar abituriyentlər üçün emosional baxımından ağır prosesdir", "abituriyentlər imtahan ərəfəsində kövrək olurlar" (*Cavid İmamoğlu*); "ikimərhələli qəbul imtahanı abituriyent üçün müəyyən qədər şans məsələsidir", "psixoloji yöndən yanaşanda, birinci imtahan kəskin həyəcan prosesi ilə müşahidə edilir, eyni zamanda abituriyent təcrübə qazanır" *(İlahə Dadaşova).*

Ekspertlərin fikrincə, abituriyentlərin buraxılış və qəbul imtahanlarına psixoloji cəhətdən hazır olmaları üçün "ehtiyac yarandığı təqdirdə psixoloji dəstək göstərilməli, terapiya, konsultasiya keçirilməlidir. Təəssüflər olsun ki, bu gün hər bir ailəyə bu müyəssər olmur. Çünki psixoloji xidmət baha olduğu üçün bundan demək olar ki, 20-30 min abituriyentdən 5 faizi faydalanır, yerdə qalanları faydalanmır" (*Cavid İmamoğlu*). Bundan başqa, valideynlər uşağa psixoloji olaraq necə yanaşmalı olduqları haqda məlumatlı deyillər: "Çox az valideyn var ki, bu barədə bilir, bilməyən də müəyyən qədər psixoloq yanına qaçır, ancaq sırf özlərinin maariflənməsi halları çox az müşahidə edilir. Psixoloq yanına gedənlər də həddindən artıq azdır, əksəriyyəti uşağı təzyiqlə əldə saxlamağa çalışır. Yəni "sən qəbul olmağa məcbursan, biz sənə müəyyən qədər maddi vəsait xərcləyirik", "sən bizim adımızsan, sanımızsan" sözləri həddindən artıq psixoloji təcavüz sayılır. Ona görə də bunları nəzərə alanda, bizdə valideynlərin maariflənməsinə də böyük ehtiyac var" *(İlahə Dadaşova).*

*"Artıq buraxılış və qəbul imtahanları arxada qalıb. Bu prosesin başa çatmasından sonra ən çox narahatlıq doğuran məqam imtahanlarda uğur qazana bilməyən abituriyentlərin depressiyaya düşməsi və hətta intihar etməsidir. Yeniyetmələr arasında son illər artmağa başlayan bu cür halların qarşısını necə almaq olar?"* sualına ekpertlərin cavabları belə olmuşdur: "İmtahan prosesi insanların gözündə sanki həyatın imtahanı kimi göstərilir, bunun sadəcə bir sınaq, biliklərin yoxlanılması məqsədi daşıdığı heç kəs tərəfindən aşılanmır. Belə olan halda yeniyetmələr valideynləri, ətrafı tərəfindən yüklənilir və hər kəs ondan nəticə gözləyir. Nəticə etibarilə uyğun nəticəni yığmayan, istəyinə nail ola bilməyənlər, kövrək psixologiyaya sahib olanlar və şəxsiyyət baxımından zəif olanlar sınırlar. Bunun da müxtəlif yolları ola bilər: özünəqapanma, depressiya, özünəqəsd və s. Nə qədər ki, imtahana baxış, imtahandan gözlənti forması dəyişməyib, bu kimi hallar olacaq. İmtahan hər zaman istənilən yaşda ola bilər. Məsələn, baxçaya və məktəbə gedəndə də imtahan olunuruq. Məsələn, yadımdadır ki, məktəbə gedəndə o proses mənə o qədər ağır idi ki, məktəbdən qaçmışdım. Yəni bu proses o qədər yumşaq göstərilməlidir ki, o həyəcan hədsiz olmamalı, yeniyetmələr yüklənməməli və bunu həyatın imtahanı kimi başa düşməməlidirlər. Bu məqam sadəcə biliklərin imtahanı kimi nəzərə alınmalıdır. Ümumiyyətlə, hazırda abituriyent imtahanı ən böyük sınaq kimi qarşılanır. Bu gün 5-ci sinifdə

oxuyan uşaq belə dərk edir ki, 11-ci sinifdə abituriyent kimi imtahan verəcək və bu, onun üçün ayrıca bir dərdə çevrilib. Ona görə də bu üzdən intihar edən şəxslərə hamı cababdehdir" (*Cavid İmamoğlu); "*Abituriyent nəyə görə imtahandan sonra intihara cəhd edir və dərin depressiyaya düşür? Çünki öncədən ona aşılanmış sözlər var: "sən mütləq universitetə daxil olmalısan", "qohum-qonşunun yanında başımızı aşağı etmə". İmtahandan sonra bu sözlər uşağın ağlında qalır və onun psixologiyasında depressiyaya bir cığır açır. Bu yolun sonu da gəlib intihara çıxır. Yaxud da uşaq dərin depressiyaya düşməsə belə, ani "mən nə edərəm" emosional boşluğuna düşür. Ona görə də psixoloji iş imtahandan sonra deyil, əvvəl aparılmalıdır ki, uğursuz son ən azından depressiyaya gətirib çıxarmasın" *(İlahə Dadaşova).*

Ekspertlər imtahanlara mənəvi-psixoloji cəhətdən hazır olmaq üçün abituriyentlərə və onların valideynlərinə aşağıdakı tövsiyələrini bildiriblər: "Valideynlər imtahanlara bir neçə gün qalmış uşaqların yükdən azad olması və rahatlaması üçün imkan yaratmalıdırlar. Övladlarını hazırlıq prosesində – 1-2 il müddətində mənəvi və emosional baxımdan yükləməsinlər, hədə-qorxu gəlməsinlər, əksinə, dəstək olsunlar və anlasınlar ki, "zorla sevgi olmur". Valideynin övladına münasibəti, tərbiyə münasibətləri dəyişməlidir, ümumiyyətlə, uşaq ana bətnində olanda münasibət dəyişməlidir. Yeni evlənənlər uşaqların tərbiyə olunması və abituriyent hazırlığı ilə bağlı təlimatlandırılmalıdır." (*Cavid İmamoğlu); "*Ümumiyyətlə, uşaqlar var ki, hər şeyi normada qəbul edirlər, yəni stress və həyəcan normada olur. Ancaq stress və həyəcanı normadan artıq olan uşaqlarda valideyn mütləq mütəxəssis köməyi almalıdır, yaxud özü internetdən araşdırıb, ən azından elmi məqalələri oxuyub müəyyən tədbirlər görməlidir. Uşaqların imtahanı onların yeniyetməlik vaxtına düşdüyü üçün burada yeniyetməlik xüsusiyyətləri də özünü göstərir. Burada yenə də psixoloqların, psixoloji maariflənmənin rolu gücləndirilməlidir. Bütün müəssisələr psixoloqdan istifadə etməlidir, kursların da mütləq psixoloqu olmalıdır. Kurslarda repetitor mərhələlərində psixoloqlar uşaqları davamlı nəzarət və diaqnostikada saxlamalı və valideynə məlumat verməlidir. Valideyn özü də düzgün yanaşmağı öyrənməlidir" *(İlahə Dadaşova).*

*"Ümumiyyətlə, son illərdə xüsusilə məktəblilərin intiharından sonra ailə-məktəb-cəmiyyət üçbucağında kompleks tədbirlərin görülməsi zərurəti yaranıb. Bu həm də orta məktəblərdə psixoloq kadrların fəaliyyətinin qənaətbəxş olmaması və ya ümumiyyətlə, peşəkar psixoloqların olmamasından qaynaqlanır. Sizcə, bu sahədə hansı addımlar atılmalıdır?"* sualının cavabında ekspertlər bildiriblər ki," məktəblərdə psixoloqlardan əlavə, sosial işçilər də olmalıdır. Çünki hər zaman psixoloji xidmətə ehtiyac olmur. Ümumiyyətlə, uşağın karyera və imtahana hazırlıq dövründə sosial işçilər məktəblərdə uşaqların ailə və ya hansısa başqa istiqamətlərdə problemlərini müəyyənləşdirməli və onlara lazım olan dəstəyi göstərməlidir (*Cavid İmamoğlu); "*Həqiqətən məktəblərdə psixoloji kadrların vəziyyəti normadan aşağıdır. Ancaq digər tərəfdən də məktəblərdə psixoloqa yaradılan şərait də yaxşı deyil. Düzdür, savadlı psixoloq öz işini görür. Burada ilk növbədə qeyri-ixtisasların təmizlənməsi işi getməlidir. Müəyyən bir dövr var idi ki, psixoloq kadrlar çatışmırdı, müəllimlərin əksəriyyəti sadəcə 3-6 aylıq ixtisasartırma ilə bu sahəyə keçirdilər. İkincisi, məktəbdə psixoloqun sözünün rolu artırılmalıdır. Elə məktəblər var ki, psixoloqlar önəmsənilmir, onlara şərait yaradılmır. Müəyyən meyarlar var ki, tənzimlənməlidir. Çünki son hadisələr də göstərdi ki, məktəblərdə psixoloqların rolu mütləqdir" *(İlahə Dadaşova).*

### II.13.1. DİM-in həyata keçirdiyi psixoloji xidmət layihəsi

2019-cu ilin 03 iyul – 16 avqust tarixlərində DİM imtahan verənlərə psixoloji xidmət çərçivəsində "Onlayn və telefon vasitəsilə psixoloji maarifləndirmə" layihəsi həyata keçirib. Layihə müddətində könüllü əsaslarla cəlb olunmuş gənc peşəkar psixoloqlar həftənin iş günləri ikinövbəli iş rejimi formatında fəaliyyət göstəriblər. Psixoloqlar əsasən qaynar xətt vasitəsilə müraciət edən şəxslərə psixoloji dəstək göstərib və onlara maarifləndirici məsləhətlər veriblər.

Layihə müddətində psixoloqlarla əlaqə yaradan şəxslərin müraciətlərinin təhlili bu müraciətlərin əsasən imtahan öncəsi təşviş, imtahan qorxusu və nəticələrin gözləntisindən yaranan stress halları ilə əlaqəli olduğunu göstərir. Qeyd olunmalıdır ki, müraciət edənlər arasında imtahan verməyə hazırlaşan məktəblilərlə yanaşı onların valideynləri də olub. Müraciət edən şəxslərdən bəziləri davamlı psixoloji seanslara yazılmaq istədiklərini ifadə ediblər. Xidmətdən istifadə edən şəxslər əsasən göstərilən xidmətdən razı qaldıqlarını bildiriblər.

Layihə çərçivəsində könüllü əsaslarla 8 nəfər peşəkar psixoloq fəaliyyət göstərib. Real psixoloji problemlərlə əlaqədar ehtimal ediləndən az, digər mövzularla əlaqədar isə çoxlu sayda müraciət qeydə alınıb. Digər mövzularla əlaqədar müraciət edən şəxslərdə əsəbilik müşahidə olunduğu hallarda psixoloqlar onları sakitləşdirməyə çalışıb və lazımi istiqamətə yönləndiriblər.

Layihə çərçivəsində əldə olunan məlumatlar, eləcə də DİM-in sosial media səhifələrinə edilən müraciət və yazılan şərhlərin məzmun təhlili göstərir ki, cəmiyyətdə, xüsusilə də DİM-in hədəf əhali qrupunda ciddi psixoloji maarifləndirmə işinin apa-

rılmasına ehtiyac vardır. Bunun ən bariz nümunəsi kimi onu göstərmək olar ki, xidmətin hər hansı formasından istifadə edən, o cümlədən maarifləndirici məqalələri oxuyan, video mühazirələri dinləyən şəxslərin əksəriyyəti razılıq, minnətdarlıq kimi müsbət əks əlaqələr qurub, materialları dostları ilə paylaşıb və mövzular üzrə suallar verərək məsləhətlər almağa çalışıblar. Psixoloji xidmətin tərkib hissəsi olan Pozitiv Zəka sosial media bloqu (https://www.facebook.com/pozitivzeka/) bu günə kimi 5200 daimi abunəçi toplayıb, bloqun nəşrlərinə ümumilikdə 30 minə yaxın baxış olub, böyük əksəriyyəti müsbət olmaqla 10 mindən artıq aktiv reaksiya (bəyənmə və şərh) göstərilib. Nəşrlər arasında ən böyük marağın təhsildə stress mövzusuna göstərildiyi müşahidə olunub.

Telefon xətti vasitəsilə psixoloji dəstək xidmətindən istifadə edənlərin sayının azlığı cəmiyyətimizdə psixoloqa müraciət etmənin ayıb sayılması kimi neqativ xüsusiyyətlə izah oluna bilər. Xidmətdən istifadə edənlərin razı qalması, hətta minnətdarlıq bildirməsi isə bu xidmətin səmərəliliyinin göstəricisidir.

## NƏTİCƏ:
## tamam, yoxsa davam/ənənə, yoxsa yenilik

Buraxılış və ali məktəblərə qəbul imtahanlarında bu il tətbiq edilən yeni model ilə bağlı keçirilən sosioloji sorğunun nəticələri bir daha sübut etdi ki, hər bir yenilik cəmiyyət tərəfindən, adətən, birmənalı qarşılanmır və istər-istəməz müəyyən problemlərin ortalığa çıxması ilə müşayiət olunur. Bunun ilkin səbəbləri sırasında cəmiyyətin bu yeniliklər haqqında məlumatlılıq səviyyəsinin azlığı gəlirsə, yeniliklərin cəmiyyətin üzvləri tərəfindən mənimsənilməsi, onlar üçün anlaşıqlı olması, hətta əksinə mənimsəməyə cəhdin azlığı (bəzən asan yola üz tutulması) da vacib məqamdır. Beləliklə, yeni qəbul modeli ilə bağlı apardığımız tədqiqatın nəticələrini aşağıdakı kimi ümumiləşdirmək olar:

- Sorğunun nəticələrinin təhlili bu qənaətə gəlməyə əsas verir ki, Azərbaycanda müasir testologiyaya uyğun test modelinin tətbiqi, kurikulum standartları əsasında hazırlanmış qiymətləndirmə mexanizmləri, yeni qaydalar, onların abituriyentlər və bütövlükdə cəmiyyət tərəfindən mənimsənilməsi üçün DİM tərəfindən yanvar ayının ilk günlərindən etibarən respublikanın əksər bölgə və rayonlarında müxtəlif fənlər üzrə hazırlıq kursları, elmi-metodiki seminarlar, sınaq imtahanları təşkil edilmişdir. Lakin təhsil sisteminin öz daxilindən qaynaqlanan bir sıra səbəblərdən yeni modelin mənimsənilmə səviyyəsi bütün abituriyentləri əhatə edə bilməmişdir. Ənənəvi (qapalı) test tapşırıqları ilə yanaşı, yeni tipli, o cümlədən açıq tipli test tapşırıqları ilə bağlı verilən suallardan da görünür ki, abituriyentlərin bir çoxu bu tip sualları cavablandırmaqda çətinlik çəkiblər. Qeyd edək ki, yalnız keçən il Azərbaycanda dörd min şagird sinifdə qalıb. Təhsil naziri bu yaxınlarda keçirdiyi mətbuat konfransında bildirib ki, bu fakt təhsil sistemi üçün narahatedici məqamdır: “Əgər sinifdə saxlanılan şagirdlərin sayı dörd mindən çoxdursa, deməli, onlar bir çox fənlərdən proqramı mənimsəyə bilməyiblər. Yaxud üzrsüz səbəbdən uzun müddət dərslərdə iştirak edə bilməyiblər. Bu da tədris proqramının mənimsənilmədiyini göstərir”.
- Sorğunun nəticələrinə əsasən respondentlərin əksəriyyəti bu fikirlə razıdır ki, ümumilikdə yeni modelin tətbiqi orta məktəblə ali təhsil arasındakı əlaqəni gücləndirir, həmçinin orta ümumtəhsil müəssisələrinin müəyyən mənada rolu artır və xüsusilə məktəblərdə yeni proqramın – kurikulumların tədrisinə daha məsuliyyətlə yanaşılması tələbini qarşıya qoyur.
- Sorğunun nəticələrindən belə aydın olur ki, respondentlərin ümumilikdə 45%-ə yaxını yeni modeli təhsil sistemimiz üçün faydalı hesab etmir. Lakin bunun əksinə olaraq ekspertlər bu qənaətdədirlər ki, yeni qəbul modelində aparılan axtarışlar və islahatlar tədrisin keyfiyyətinin yüksəldilməsinə xidmət edəcək. Onların fikrincə, builki imtahan modeli ideal olmasa da, bu gün üçün optimal model sayıla bilər və bu sahədə təkmilləşmə prosesi, şübhəsiz ki, qaçılmaz xarakter alacaq.
- Rəyi soruşulan abituriyentlərin əksəriyyəti yeni qəbul imtahanının məzmununun orta ümumtəhsil müəssisələrində tədris olunan fənlərə və yeni proqrama (kurikulumlara) uyğun tərtib olunduğunu qeyd etsələr də, ekspertlər orta ümumtəhsil müəssisələrində tətbiq olunan yeni proqramla (kurikulumlarla) bağlı problemlərin hələ də qaldığı qənaətindədirlər. Təhsil Nazirliyi yeni tədris proqramı ilə bağlı problemləri köhnə sistemdən yeni sistemə keçidlə əlaqələndirsə də, təhsil ekspertləri 2008-ci ildən, yəni kurikulumların tətbiqindən sonra yazılan dərsliklərdə varislik və vahidlik prinsipinin gözlənilmədiyini, bunun da nəsillərarası əlaqələri pozduğunu, əvvəlki illərdə məzun olanların yeni dərslikləri oxuyub anlamaqda çətinlik çəkdiklərini, ümumilikdə çətinlik səviyyəsinə görə dərslikləri həm müəllimlərin, həm də şagirdlərin tam mənimsəyə bilmədiklərini, ali məktəb müəllimlərinin dərsliklərin yazılması prosesində iştirakının məqsədəuyğun olmadığını və s. bildiriblər. Yeni tədris proqramının səmərəli və effektli olması üçün müəllimlərlə işləmək, onlara treninq və təlimlər keçmək lazımdır. Aparılacaq tədqiqatlar və monitorinqlər nəticəsində proqramın harada və niyə səmərə vermədiyini müəyyənləşdirmək lazımdır. Ekspertlərin fikrincə, dərslik fikir laboratoriyasıdır, tapşırıqlarda əlavə göstərişlər olmalı, şagirdə seçim imkanı verilməlidir.
- 1992-ci ildən Azərbaycanda tətbiq edilən test üsuluna münasibətə gəlincə, ekspertlər bu fikirdədirlər ki, test üsulu dünyanın ən inkişaf etmiş ölkələrində tətbiq olunan mütərəqqi bir üsuldur. Test imtahanının əsas üstünlükləri insan faktorundan asılılığın minimum səviyyədə olması, qiymətləndirmə prosesində nəticələrin müəyyən mənada insan faktorundan asılı olmayaraq həyata keçirilməsidir. Sorğunun nəticələri sübut edir ki, respondentlərin əksəriyyəti test üsulunun qalması, lakin onun təkmilləşdirilməsinin tərəfdarıdırlar. Sorğuda iştirak etmiş əksər respondentlər “Test üsulu əz-

bərçi nəsil yetişdirir" fikri ilə razı olduqlarını, bunun qarşısını almaq üçün açıq tipli sualların sayının artırılmasının vacib olduğunu bildiriblər. Təhsil ekspertləri də bu fikirdədirlər ki, test əsasən məntiqi təfəkkürü inkişaf etdirdiyindən və daha çox əzbərçiliyə meyil yaratdığından yazı vərdişlərini inkişaf etdirmək üçün imtahanlara qapalı testlərlə yanaşı, açıq tipli tapşırıqlar da salınıb.

- Azərbaycan cəmiyyətində təhsillə bağlı müzakirələrdə ən çox toxunulan mövzulardan biri də repetitor hazırlığı ilə bağlıdır. Ümumrespublika kampaniyası xarakteri alan repetitor fəaliyyətini məktəblərdə tədris səviyyəsinin bütün fənlər üzrə eyni keyfiyyətdə olmaması, müəllimlərin əmək haqlarının azlığı, hətta bu üsulun bir növ adət halını alması və s. səbəblərlə əlaqələndirirlər. Sorğunun nəticələri də sübut edir ki, abituriyentlərin əksəriyyəti repetitor xidmətindən istifadə edib. "İmtahanlara necə hazırlaşmısınız?" sualına abituriyentlərin 86%-i repetitorun yanına getməklə, 8%-i məktəbdə verilən dərslərlə, 6%-i isə "özüm hazırlaşmışam" cavabını verib. Qeyd edək ki, DİM tərəfindən verilən məlumata görə, builki imtahanlardan sonra aparılan araşdırmalar nəticəsində kommersiya məqsədilə fəaliyyət göstərən müxtəlif kurslar və orada repetitorluq fəaliyyəti ilə məşğul olan insanlar tərəfindən abituriyentlərin müxtəlif qayda pozuntularına yol verməyə sövq edilməsi halları aşkar olunub. Müxtəlif hazırlıq kurslarının əməkdaşları sosial şəbəkələrdə yaradılan səhifə və qruplarda imtahan suallarının əldə edilməsi, paylaşılması, hətta imtahandan öncə bir binada və zalda imtahan verən abituriyentlərin tapılması, tanış edilməsi və digər işlərin təşkil edilməsində fəallıq göstəriblər.
- Respondentlərin əksəriyyəti tərəfindən yeni modeli tam mənimsəyə bilmək üçün kağız daşıyıcılar vasitəsilə sınaq imtahanlarının bir neçə dəfə keçirilməsinin zəruri olduğu vurğulanıb. DİM sınaq imtahanlarının az keçirilməsi məsələsinə belə aydınlıq gətirib: "İmtahanlar ali təhsil müəssisələri və məktəblərdə tədris prosesinə mane olmamaq üçün həftə sonları keçirilir. DİM tərəfindən təşkil olunan ümumi və tam orta təhsil səviyyələri üzrə buraxılış imtahanları, qəbul imtahanları (iki şans), eləcə də digər müxtəlif təyinatlı imtahanlar və onların kütləvi xarakteri kağız daşıyıcılar vasitəsilə əlavə sınaq imtahanlarının keçirilməsini məhdudlaşdırır".
- Rəyi soruşulan abituriyentlərin 60%-dən çoxu üçün qəbul imtahanları, 30%-ə yaxını üçün buraxılış imtahanları çətin olub. Ümumiyyətlə, 2019-cu ildə keçirilən qəbul və buraxılış imtahanları əvvəlki illərlə müqayisədə aşağı nəticələrin olması ilə seçilir. Buna əsas səbəb bu il tətbiq olunan yeniliklərin imtahan iştirakçıları tərəfindən tam şəkildə mənimsənilməməsidir.
- Sorğunun nəticələrindən aydın olur ki, abituriyentlərin 80%-dən çoxunu həm buraxılış, həm də qəbul imtahanlarında tətbiq edilən fənlərin bölgüsü qane edir. Eyni fənnin (məsələn, riyaziyyat) həm buraxılış, həm də qəbul imtahanlarına salınmasına abituriyentlərin 56%-i (224 nəfər) müsbət cavab verib. Respondentlərin 38,5%-i (154 nəfər) bir mərhələdə saxlanılmasının, 5,5%-i (22 nəfər) isə yeni fənlərin əlavə edilməsinin tərəfdarı kimi çıxış ediblər. Qeyd edək ki, bəzi ekspertlər imtahanlara Azərbaycan tarixi fənninin daxil edilməsini, bəziləri isə ingilis dilinin imtahanın tərkib hissəsi kimi deyil, ayrıca bir imtahan kimi keçirilməsini təklif ediblər.
- Ümumilikdə respondentlərin 70%-dən çoxu bu fikirdədir ki, buraxılış imtahanlarında istifadə edilən test tapşırıqları çətin və orta çətinlik dərəcəsində olub. Qəbul imtahanlarında istifadə edilən test tapşırıqları ilə bağlı bu cür düşünənlərin faiz dərəcəsi 90%-dən çoxdur. Ekspertlər bunun səbəbini abituriyentlərin orta məktəb pilləsində əldə etdikləri biliklərin aşağı səviyyədə olması ilə izah edirlər.
- Abituriyentlərin 54%-nin (217 nəfər) fikrincə, imtahanlarda istifadə edilən açıq tipli tapşırıqlarla bağlı çatışmazlıqlar müşahidə edilib. Bu çatışmazlıqlar qismində abituriyentlərin 37%-i yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli tapşırıqların vaxt aparmasını, 25%-i hesablama tipli tapşırıqların çətinliyini, 21%-i uyğunluğu müəyyən etmək tipli tapşırıqların konkret olmamasını, 17%-i seçim tələb edən tapşırıqların mürəkkəbliyini göstəriblər. Açıq tipli tapşırıqlarla bağlı çatışmazlıqlar qismində valideyn və müəllim respondentlərin 62,8%-i yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli tapşırıqların vaxt aparmasını, 37,2%-i seçim tələb edən tapşırıqların mürəkkəbliyini, 2,6%-i uyğunluğu müəyyən etmək tipli tapşırıqların konkret olmamasını, 18,6%-i hesablama tipli tapşırıqların çətinliyini qeyd ediblər.
- Respondentlər arasında əsas narahatlıq doğuran məqamlardan biri buraxılış və qəbul imtahanları başa çatdıqdan sonra yazı tipli tapşırıqların yoxlanılmasında yaranan problemlərlə bağlıdır. Burada əsasən iki məsələ narahatlıq doğurur: birincisi, yoxlama prosesində insan fəaliyyəti və ikincisi, yoxlama müddətinin uzun çəkməsi. Məhz bu iki məsələ abituriyentlər, valideynlər və müəllimlərdə psixoloji gərginliyə səbəb olur. Müsahibədə iştirak edən ekspert və valideynlər qeyd edirlər ki, əvvəl imtahandan 3 gün sonra cavablar elan olunurdu və şagirdlər neçə bal topladığını bilib rahat olurdular. İndi isə abituriyent nəticələrini gec öyrənir deyə onda əlavə həyəcan yaranır.
- Respondentlər arasında müsahibə (keyfiyyət intervüsü) metodu ilə apardığımız sorğunun nəticələri göstərir ki, imtahan prosesində yeni model-

lə bağlı ortaya çıxan problemlərdən biri xarici dillər üzrə dinləmə qurğusunun tətbiqi ilə bağlı olub. Valideynlər bu fikirdədirlər ki, xüsusilə rayon və kənd məktəblərində təhsil alan şagirdlər üçün dinləmə qurğusunun tətbiqi bir sıra problemlər yaradıb. Onlar bu qənaətdədirlər ki, dinləmə tipli mətnlər, qurğularla işləmə və dinləmə respublikanın bütün ümumtəhsil məktəblərində tətbiq olunduqdan və sınaqdan keçirildikdən sonra istifadə edilməliydi. Hətta rayon və kənd yerlərində bəzi müəllimlərin belə bununla bağlı anlayışı yoxdursa, o, şagirdə bunu necə öyrədə bilər? Bu məsələ ilə bağlı DİM-in mövqeyi belə olmuşdur ki, hazırda informasiya texnologiyalarının imkanları kifayət qədər genişdir. İnternet olmasa belə, təkcə kompüter kifayətdir ki, hər hansı mətni dinləyib onun məzmununu ifadə etmək və yaxud o mətnə əsasən tapşırıqları yerinə yetirmək mümkün olsun. Bunların hamısı tədris proqramında öz əksini tapıb. Dövlət standartlarına əsasən şagirdlərdə həmin o bacarıqlar formalaşmalı idi. Yalnız 30 tapşırıqdan 6-sı dinləmə qabiliyyətinin yoxlanılmasını müəyyən edir. Gələcəkdə danışıq qabiliyyəti də yoxlanıla bilər. Xarici dili bilmək, müxtəlif komponentləri mənimsəmək, oxuma, yazma, danışıq və dinləmə bacarıqları – bu dörd komponent dünya standartlarıdır. Təhsil Nazirliyi isə fikrini belə əsaslandırıb: "İngilis və ya hər hansı xarici dilin tədrisi zamanı istifadə olunan materiallara çıxış sonsuz həddədir. Yəni söhbət Nazirliyin mərkəzləşmiş qaydada metodiki tövsiyə yazması və hamının onu əzbərləyib imtahana getməsindən getmir. Məhz məsələnin mahiyyəti odur ki, şagird ona tanış olmayan bir mətni dinləyib anlamalı və o suallara cavab verməlidir. Bundan başqa, Təhsil Nazirliyi tez-tez ixtisasartırma təlimləri keçirir, metodiki tövsiyələrimiz olur. Ancaq bunlar sadə tətbiqlərdir və insan onu öyrənə bilər. Cəmiyyətdə belə bir gözlənti olmamalıdır ki, Nazirlik gəlib onlara qurğudan istifadə ilə bağlı təlim keçəcək. Zərurət olduğu halda insanlar hansısa formada öyrənirlər".

- DİM və bəzi təhsil ekspertləri bu fikirdədir ki, bu il balların aşağı düşməsini faciəyə çevirməyə və ya fəlakət kimi qiymətləndirməyə, 700 bal ətrafında hay-küy salmağa heç bir lüzum yoxdur. Bu, əsasən yeni modelə keçidlə, abituriyentlərin açıq tipli tapşırıqlara kifayət qədər adaptasiya ola bilməməsi ilə əlaqədar məsələdir. Ekspertlərin fikrincə, tapşırıqların çətinlik dərəcəsinin bölgüsü, səhv sualların yer alması halları da buna təsir edir. DİM bəzi məqamları etiraf edib, bəzi məqamlara aydınlıq gətirib, bəzi məqamlar isə apellyasiya şikayətləri zamanı nəzərə alınıb. Onu da qeyd edək ki, bəzi təhsil ekspertləri bu il balların aşağı düşməsini ümumilikdə respublika üzrə təhsil səviyyəsinin getdikcə aşağı düşməsi ilə bağlayırlarsa, bəziləri bunu modelin yeni olması ilə izah edir və şagirdlərin bilik səviyyəsinin aşağı düşməsi üçün illərin, hətta onilliklərin tələb olunduğunu qeyd edirlər. İmtahanlarda 700 bal toplaya bilməməyin səbəbləri sırasında abituriyentlərin 35%-i (193 nəfər) buraxılış və qəbul imtahanlarının modelinin yeni olmasını, 18%-i (102 nəfər) sualların forma və məzmununun mürəkkəb olmasını, 13%-i (70 nəfər) çətin tapşırıqların olmasını, 9%-i (49 nəfər) daha çətin tapşırıqların olmasını, 10%-i (56 nəfər) təhsilin (abituriyentlərin) bilik səviyyəsinin getdikcə aşağı düşməsini, 15%-i (81 nəfər) isə açıq tipli sualların imtahana salınmasını qeyd ediblər.
- Sorğunun nəticələrinə görə, əvvəlki illərin qəbul modeli ilə müqayisədə abituriyentlərin 60%-dən çoxu üçün builki buraxılış imtahanları, 80%-dən çoxu üçün isə qəbul imtahanları mürəkkəb olub.
- Abituriyentlərin 75%-dən çoxunu buraxılış və qəbul imtahanlarının keçirilmə vaxtı, demək olar ki, qane edir. Təhsil ekspertləri bu fikirdədirlər ki, geniş ictimaiyyət arasında ən çox hallanan məsələlərdən biri də məhz tədris ili başa çatmamış imtahanların keçirilməsi ilə əlaqədar məsələdir ki, bu da əsasən il ərzində iki tədris həftəsinin artırılması və dərs ilinin başlanmasının ənənəvi olaraq sentyabrın 1-i deyil, 15-nə keçirilməsi nəticəsində yaranan fəsad kimi qiymətləndirmək olar. Burada əsasən beynəlxalq təcrübə və iqlim amili əsas gətirilir. DİM isə imtahanların tədris ili başa çatmamış keçirilməsini iş qrafikinin həddən artıq yüklü olması ilə izah edir.
- Müşahidələr göstərir ki, bu il Apellyasiya Komissiyasına müraciət edənlərin sayı əvvəlki illərlə müqayisədə çoxdur. Üstəlik, Apellyasiyada abituriyentlərin haqlı çıxma halları da bu il daha çox müşahidə olunub. Xüsusilə açıq tipli tapşırıqların bəzilərinin DİM-in markerləri tərəfindən qiymətləndirilməsindən sonra ortaya çıxan bəzi xətalar imtahan verəndə imtahan götürən müəssisəyə qarşı inamı istər-istəməz azaldır.
- İmtahanlarda iştirak etmək üçün ödənişin məbləği respondentlərin (valideyn və müəllimlərin) 60%-dən çoxunu qane etmir. Respondentlər ödənişin məbləğinin 19-20 manat aralığında olmasını arzu ediblər.
- Sorğuda irəli sürülmüş iki mülahizənin müqayisəsi göstərir ki, respondentlərin 55%-dən çoxu imtahanın bir neçə mərhələdə keçirilməsinin abituriyentdə gərginlik yaratması qənaətindədirsə, 90%-dən çoxu bunun abituriyentə əlavə şans verdiyini düşünür. Bəzi valideynlər də bu fikirdədirlər ki, imtahanların 2 dəfə keçirilməsi abituriyentlərdə gərginlik yaradır.
- Sorğunun nəticələri və müşahidələr göstərir ki, abituriyentlərin imtahana mənəvi-psixoloji cəhətdən hazırlaşmasında valideynlərin (45%) və müəllimlərin (33%) böyük rolu var.

- Maraqlıdır ki, respondentlərin 22%-i (98 nəfər) bu fikirdədir ki, buraxılış və qəbul imtahanlarının yeni modeli təkmilləşdirilməlidir. 53,5% (242 nəfər) respondent imtahanların əvvəlki model üzrə keçirilməsinin, 4,5%-i (19 nəfər) test üsulu ilə qəbulun ləğv olunmasının, 8%-i (38 nəfər) imtahanların bir dəfə keçirilməsinin tərəfdarı kimi çıxış etmişdir. Ekspertlər arasında da bu məsələ ilə bağlı fikir ayrılığı müşahidə edilir. Belə ki, onların bir qismi ikipilləli imtahan modelini qəbul edir, lakin bu il keçirilən imtahanların nəticələrini ətraflı təhlil edib çatışmazlıqları aradan qaldırmaq, bu sahədə axtarışlar və islahatlar aparmaqla yeni modeli daha da təkmilləşdirmək haqqında düşünürlərsə, digərləri təkpilləli, yəni yalnız qəbul imtahanlarının keçirilməsinin tərəfdarı kimi çıxış edirlər.
- Ümumilikdə hər iki tərəf bu qənaəti bölüşür ki, orta məktəblərin tədris proqramlarında, kurikulumların mahiyyətinin mənimsənilməsində, dərsliklərin yazılmasında, ciddi problemlər mövcuddur. Ağır prosesi yüngülləşdirmək, nəticənin şagirdə çatdırılmasını asanlaşdırmaq lazımdır. Əsas məsələ imtahanların düzgün keçirilmə tezliyini və effektivliyi müəyyənləşdirməkdir.

# TƏKLİFLƏR

Abituriyentlərin bilik və bacarıqlarının qiymətləndirilməsi məqsədilə tam (11 illik) orta təhsil səviyyəsi üzrə buraxılış, ali və orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanlarının yeni modelinə dair keçirilən sorğunun nəticələrini, aparılan araşdırmaları və təhlilləri nəzərə alaraq ümumilikdə Azərbaycanda təhsilin səviyyəsinin ölçülməsi üçün tətbiq edilən test üsulu ilə bağlı aşağıdakı tədbirlərin həyata keçirilməsi tövsiyə edilir:

- İmtahanlarda yeni modelin tətbiqi (ikimərhələli imtahan prosesi) ilə bağlı müxtəlif fikirlərin olmasına rəğmən Azərbaycanda testologiyanın indiki reallığını nəzərə alıb bu modelin daha da təkmilləşdirilməsi, yeni test banklarının hazırlanması tövsiyə edilir. Bunun üçün yeni tədris proqramı (kurikulumlar) əsasında tərtib edilən açıq tipli tapşırıqların daha sadə və anlaşıqlı olması, tədricən sayının artırılması məqsədəuyğundur.
- Yeni modelin mahiyyətinin abituriyentlər tərəfindən tam mənimsənilməsi, onların qəbul imtahanlarına daha səmərəli hazırlaşmaları üçün kağız daşıyıcıları vasitəsilə sınaq imtahanlarının sayının artırılması məqsədəuyğundur. Sorğunun nəticələri də sübut edir ki, respondentlərin əksəriyyəti yeni modelin tam anlaşılması və mənimsənilməsi üçün sınaq imtahanlarının bir neçə dəfə keçirilməsini zəruri hesab edirlər.
- Yazı tipli tapşırıqların yoxlanılması prosesinə ayrılan vaxtın azaldılması məqsədəuyğundur. Yoxlama müddətinin uzun çəkməsi abituriyentlər, valideynlər və müəllimlər arasında psixoloji gərginliyin yaranmasına səbəb olur.
- İngilis dilinin nəticələrində dil üzrə yazı, oxu, dinləmə, danışma bacarıqlarının hamısının əksini tapması üçün beynəlxalq təcrübəni də əsas götürərək ingilis dili imtahanının müstəqil olaraq təşkil edilməsi tövsiyə edilir.
- DİM-in açıq tipli tapşırıqları yoxlayan markerlərinin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, ümumiyyətlə, getdikcə yoxlama prosesinin elektron qaydada aparılması, insan faktorundan istifadə edilməməsi arzu olunandır. Çünki müəllimlərin də, abituriyentlərin də DİM-in imtahan keçirmə peşəkarlığına inamı yüksək olsa da, sualların yoxlanılması prosesində yaranan sıxıntılar bu inamı azaldır.
- Yeni modellə bağlı çatışmazlıqları aradan qaldırmaq üçün zal nəzarətçiləri və məktəb müəllimlərinin peşəkarlıq səviyyəsini yüksəltmək məqsədi ilə əlavə treninqlərin təşkil olunması arzuolunandır.
- Sorğunun nəticələrinə əsaslanaraq imtahanlarda iştirak etmək üçün ödənişin məbləğinin aşağı salınması (təqribən 20-25 manat arasında olması) arzu olunandır.
- Xarici dillər üzrə dinləmə qurğusu ilə bağlı problemlərin aradan qaldırılması üçün respublikada fəaliyyət göstərən ümumtəhsil məktəblərində, xüsusilə rayon və kənd məktəblərində kurslar və seminarların təşkil edilməsi məqsədəuyğundur.
- Bəzi abituriyentlərin imtahana gələndə tələb edilən sənədlərdən hər hansı birini (şəxsiyyəti təsdiq edən sənəd; şəxsiyyəti təsdiq edən sənədində şəkli olmayan abituriyentlər, digər sənədlərlə yanaşı, təhsil müəssisəsi tərəfindən verilmiş və fotoşəkilləri yapışdırılmış arayışı; imtahana buraxılış vərəqəsi) unudub gətirməməsi problem yaradır. DİM tərəfindən abituriyentin kimliyini müəyyən edən üz tanıma qurğusunun tətbiq edildiyini nəzərə alıb həmin abituriyentlərin imtahana buraxılması məqsədəuyğundur.
- Müşahidələr göstərir ki, qəbul proqramlarında edilən dəyişikliklər tam şəkildə bütün abituriyentlərə aydın deyil, şagirdlər test tapşırıqlarını cavab kağızına və cavab vərəqinə köçürməklə bağlı sıxıntılar yaşayırlar. İmtahanlardan sonra abituriyentlərə sual kitabçalarının verilməməsini nəzərə alıb bu vərdişlərin onlarda formalaşması üçün məktəblərə boş cavab kağızlarının verilməsi və məktəblərdə müəllimlər tərəfindən seminarların təşkil edilməsi tövsiyə edilir.
- Son imtahan prosesində baş verən hadisələri nəzərə alıb repetitorlara və hazırlıq kurslarına nəzarətin gücləndirilməsi, buna alternativ olaraq ali məktəblərin nəzdində ödənişli əsaslarla hazırlıq qruplarının təşkil edilməsi məqsədəuyğundur. Qeyd edək ki, Nazirlər Kabinetinin qərarına əsasən, normativlərə uyğun olaraq ali təhsil müəssisələri hazırlıq qruplarını təşkil edə bilərlər. Ödənişli əsasla da həyata keçirildiyi üçün bu qruplarda təhsil haqqı təhsil müəssisələri tərəfindən müəyyən edilə bilər.
- Araşdırmalar da sübut edir ki, şagirdlərin mənəvi-psixoloji cəhətdən sağlam ruhda böyüməsi üçün ailə-məktəb-cəmiyyət üçbucağındakı hər bir tərəf üzərinə düşən məsuliyyəti dərk etməlidir. Orta məktəblərdə “məktəb psixoloqu” sosial təsisatının fəaliyyətinin gücləndirilməsi, xüsusilə bu sahədə mütəxəssis hazırlığına və bu işin məhz hazırlıqlı mütəxəssislərə həvalə edilməsinə nəzarət edilməsi, orta məktəb rəhbərliyinin, müəllimlərin, psixoloqların iştirakı ilə mək-

təblilərin psixoloji “portretinin” tərtib edilməsi, həssas şagird qruplarının müəyyənləşdirilməsi, onlar barədə ətraflı məlumatların hazırlanması və s. vacibdir.

- Abituriyentlərin təkliflərinin təhlili göstərir ki, qəbul imtahanlarının keçirildiyi ekoloji mühit diqqət mərkəzində olmalıdır. Adətən, yay aylarında keçirildiyindən imtahan zamanı zalların pəncərələri təlimata zidd olsa da açıq olur. Nəticədə, aparılan tikinti işləri, valideynlərin səs-küyü imtahan prosesinə maneələr yaradır. Bunları nəzərə alıb imtahan keçirilən gün respublika ərazisində günün birinci yarısında (adətən, imtahanlar bütün respublika ərazisində eyni vaxtda – saat 11.00-da başlayır, 14.00-da başa çatır) tikinti işlərinin dayandırılması, valideynlərin isə hüquq-mühafizə orqanlarının işçiləri tərəfindən imtahan binasından bəlli bir uzaqlıqda saxlanılması tövsiyə edilir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı. /Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 iyun tarixli 168 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir/ – http://www.e-qanun.az/framework/5363
2. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. /Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir/ – https://president.az/articles/9779
3. Azərbaycan Respublikasında ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu imtahanlarının təşkilinin tənzimlənməsi ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı /Bakı şəhəri, 24 fevral 2017-ci il/ – https://president.az/articles/22924
4. Azərbaycan Respublikasinda ümumi təhsilin konsepsiyasi (Milli Kurikulumu). /Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 oktyabr 2006-cı il tarixli qərarı ilə təsdiq edilmişdir./ – http://portal.edu.az/index.php?r=article/item&id=194&mid=5&lang=az
5. Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin Nizamnaməsi. /Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli Fərmanı ilə təsdiq edilmişdir/ – https://president.az/articles/19243
6. Dövlət İmtahan Mərkəzi 2019/2020-ci tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu elan edir. – http://eservices.dim.gov.az/erizebak/erize/App_Docs/HTMLEQElanAli.htm?time=3/14/2019%205:44:18%20PM
7. Ümumi təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. /27 may 2019-cu il/ – https://president.az/articles/33288
8. "Ümumi təhsil pilləsinin dövlət standartı və proqramlarının (kurikulumların) təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı. /Bakı şəhəri, 3 iyun 2010-cu il/ – http://www.e-qanun.az/framework/19682

## ƏLAVƏLƏR

Dövlət İmtahan Mərkəzi tərəfindən 2018/2019-cu tədris ili üçün Azərbaycan Respublikasının ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu və ümumtəhsil müəssisələri üzrə buraxılış imtahanlarının nəticələrinin elmi-statistik təhlili "Abituriyent" jurnalının 2018-ci il üçün 12-ci sayında dərc edilib. Sosial Tədqiqatlar Mərkəzinin əməkdaşları tərəfindən hazırlanmış Analitik hesabatın mövzusuna uyğun olaraq bəzi statistik göstəriciləri təqdim edirik.

### Qəbul və buraxılış imtahanlarının nəticələrinin gender aspektləri

2018-ci ildə ali təhsil müəssisələrinə qəbul imtahanlarında iştirak etmək üçün 82724 abituriyent ərizə verib. Onların 52.55 %-i oğlan, 47.45%-i qız abituriyent olub. Qeyd edək ki, artıq altıncı ildir ki, qəbul imtahanlarında iştirak etmək üçün ərizə verən abituriyentlər arasında oğlanların sayı qızlardan çox olub. Azərbaycan və rus bölmələrində oğlan və qız abituriyentlərin say nisbəti fərqli olub. Belə ki, Azərbaycan bölməsində oğlanlar (53.06%), rus bölməsində isə qızlar (53.09%) sayca üstünlük təşkil edib.

Respublikanın müxtəlif bölgələrini təmsil edən oğlan və qız abituriyentlərin say nisbəti müxtəlifdir və bu göstərici geniş diapazonda dəyişir. Bunun səbəbini respublikanın müxtəlif bölgələrini təmsil edən oğlan və qızların qəbul kampaniyasında müxtəlif dərəcədə iştirak etməsi ilə izah etmək olar. Əgər eyni bir zonaya aid olan Yardımlı, Lerik, Cəlilabad və Masallı bölgələrindən olan abituriyentlər arasında qızların nisbi sayı 22-37% təşkil edirsə, respublikanın şimal-qərbində yerləşən Qax, Zaqatala və Balakən bölgələrindən olan abituriyentlər arasında onların nisbi sayı 54-57%-dir.

Buraxılış imtahanlarında iştirak edən şagirdlərin gender tərkibi göstərir ki, 9-cu siniflər üzrə buraxılış imtahanında iştirak edən şagirdlərin 53,94%-ni (58130 nəfər) oğlanlar, 46,06%-ni (49638 nəfər) qızlar təşkil edib. 11-ci siniflər üzrə buraxılış imtahanında da mənzərə, demək olar ki, buna oxşar olub və imtahanda iştirak edən şagirdlərin 54,99%-i (44272 nəfər) oğlan, 45,01%-i (36230 nəfər) qız şagirdlər olub. Başqa sözlə hər iki imtahanda oğlan və qız şagirdlərin nisbəti bir-birinə yaxındır. Qeyd edək ki, 2016-cı ildə 9-cu siniflər üzrə buraxılış imtahanında iştirak edən şagirdlərin 53,93%-i (56484 nəfər) oğlan, 46,07%-i (48245 nəfər) qız şagirdlər olub.

Məlum olduğu kimi, 2018-ci ildə 11 siniflər üzrə buraxılış imtahanında iştirak edənlər 2016-cı ildə 9-cu sinfi bitirənlər olub. Ayrı-ayrı bölgələr üzrə bu göstəricilər arasında kəskin fərqlər müşahidə olunur. Məsələn, cənub rayonlarında (Lənkəran,

BÖLGƏLƏR ÜZRƏ **OĞLAN VƏ QIZ ABİTURİYENTLƏRİN** NİSBİ SAYI



BÖLGƏLƏR ÜZRƏ **OĞLAN VƏ QIZ MƏZUNLARIN NİSBİ SAYI**
(9-cu siniflər üzrə buraxılış imtahanı)




Astara, Lerik, Yardımlı, Cəlilabad və Masallı) 2016-cı ildə 9-cu sinif şagirdlərinin 47,21 faizini qızlar təşkil edibsə, 2018-ci ildə 11-ci sinif şagirdləri arasında bu göstərici 41,95 faizə bərabər olub. Göründüyü kimi, qızların təhsildən uzaqlaşmasına ailələrin sosial-iqtisadi vəziyyəti, erkən nikahlar və s. səbəb ola bilər.

Buraxılış imtahanı fənləri üzrə oğlan və qız şagirdlərinin qabiliyyət göstəricilərinin müqayisəli təhlili göstərir ki, bütün fənlər üzrə qızların bilik və bacarıqları nisbətən yüksəkdir. 9-cu və 11-ci siniflərin oğlan və qız şagirdlərinin tədris dili fənnindən qabiliyyət göstəricilərinin paylanmasının inteqral əyrisi təqdim olunmuşdur. İnteqral əyrilərinin müqayisəli təhlili zamanı nəzərə almaq lazımdır ki, bir əyri digər əyridən nə qədər yüksəkdirsə, məzunların müvafiq altseçməsinin (oğlan, yaxud qız) nəticələri də digəri ilə müqayisədə bir o qədər aşağıdır.

BÖLGƏLƏR ÜZRƏ **OĞLAN VƏ QIZ MƏZUNLARIN NİSBİ SAYI**
(11-ci siniflər üzrə buraxılış imtahanı)



TƏDRİS DİLİ FƏNNİNDƏN OĞLAN VƏ QIZ ŞAGİRDLƏRİN QABİLİYYƏT GÖSTƏRİCİLƏRİNİN PAYLANMASININ İNTEQRAL ƏYRİSİ
(9-cu siniflər üzrə buraxılış imtahanı)




Qrafiklərdən göründüyü kimi, həm 9-cu, həm də 11-ci sinifdə qızların qabiliyyət göstəriciləri daha yüksək olub. Bu tendensiya özünü ali təhsil müəssisələrinə qəbul imtahanlarında da göstərir.

2018/2019-cu tədris ili üçün tələbə qəbulu və ümumi təhsil müəssisələri üzrə buraxılış imtahanlarının nəticələrinin elmi-statistik təhlili göstərir ki, ali məktəblərə qəbul imtahanlarında qızların qabiliyyət göstəriciləri oğlanlara nisbətən daha yüksək olub.

2018-ci ildə ali təhsil müəssisələrinə qəbul olan abituriyentlərin topladıqları balların paylanma diaqramı (I-IV qruplar üzrə) aşağıda göstərilib:

TƏDRİS DİLİ FƏNNİNDƏN OĞLAN VƏ QIZ ŞAGİRDLƏRİN QABİLİYYƏT GÖSTƏRİCİLƏRİNİN PAYLANMASININ İNTEQRAL ƏYRİSİ
(11-ci siniflər üzrə buraxılış imtahanı)



### AZƏRBAYCAN BÖLMƏSİ

| OĞLAN ABİTURİYENTLƏR | QIZ ABİTURİYENTLƏR |
|---|---|
|  |  |





Buradan belə qənaətə gəlmək olar ki, ali təhsil almaq imkanı verilən qızlar imtahanlarda yüksək nəticə göstərirlər.

#### Buraxılış sinfi şagirdlərinin təhsilə davamiyyəti və imtahan nəticələrinin müqayisəsi

Dövlət İmtahan Mərkəzi, bir qayda olaraq, ölkə və regionlar üzrə həm buraxılış imtahanlarında iştirakı nəzərdə tutulan şagirdlərin sayını və tərkibini dəqiqləşdirir, həm buraxılış imtahanlarında müvəffəqiyyət qazananların növbəti təhsil səviyyələri və pillələrindəki göstəricilərini araşdırır, həm də təhsilini davam etdirməkdən (buraxılış imtahanlarında iştirakdan) kənarda qalan, 9-cu və 11-ci sinfi bitirdikdən sonra haqqında məlumatı olmayanların sayını və bunun səbəblərini müəyyənləşdirməyə çalışır. 2018-ci ildə də ümumi orta (9 illik) və tam orta (11 illik) təhsil səviyyələrini bitirən şagirdlərin təhsilə davamiyyətinin vəziyyəti, bilik səviyyəsi və bütövlükdə bu sahədə gedən dəyişikliklərin dinamikası müqayisəli şəkildə təhlil edilib.

Belə ki, 2018-ci ildə 11-ci sinfi bitirən şagirdlər 2007-ci ildə 1-ci sinfə daxil olublar. Dövlət Statistika Komitəsinin verdiyi məlumata əsasən, 2007-ci ildə 1-ci sinfə daxil olan şagirdlərin sayı 118290 nəfər olub. 2016-cı ildə 9-cu sinfi bitirən şagirdlərin sayı 108734 nəfər idi. Həmin ildə 9-cu siniflər üzrə buraxılış imtahanında iştirak edən şagirdlərin sayı isə faktiki olaraq 104729 nəfər olub və 4005 şagird buraxılış imtahanında bu və ya digər səbəbdən iştirak etməyib. Göründüyü kimi, **2007-ci ildə 1-ci sinfə daxil olan 118290 şagirdin təxminən 8.1%-i**

### RUS BÖLMƏSİ

| OĞLAN ABİTURİYENTLƏR | QIZ ABİTURİYENTLƏR |
|---|---|
|  |  |

Cədvəl 1.

## 2018-Cİ İLDƏ ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLAN OĞLAN VƏ QIZ ABİTURİYENTLƏRİN ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİ ÜZRƏ PAYLANMASI

| № | ALİ TƏHSİL MÜƏSSİSƏSİ | Qəbul olanlar | | | |
|---|---|---|---|---|---|
| | | Oğlan | | Qız | |
| | | Sayı | Faizi | Sayı | Faizi |
| 1 | Bakı Dövlət Universiteti | 1901 | 34.84 | 3556 | 65.16 |
| 2 | Azərbaycan Dövlət Neft və Sənaye Universiteti | 2009 | 73.67 | 718 | 26.33 |
| 3 | Azərbaycan Texniki Universiteti | 1470 | 81.44 | 335 | 18.56 |
| 4 | Azərbaycan Memarlıq və İnşaat Universiteti | 1176 | 68.77 | 534 | 31.23 |
| 5 | Azərbaycan Tibb Universiteti | 242 | 36.12 | 428 | 63.88 |
| 6 | Azərbaycan Dövlət Pedaqoji Universiteti | 493 | 16.94 | 2417 | 83.06 |
| 7 | Azərbaycan Dövlət İqtisad Universiteti | 2096 | 58.50 | 1487 | 41.50 |
| 8 | Azərbaycan Dillər Universiteti | 232 | 16.20 | 1200 | 83.80 |
| 9 | Bakı Slavyan Universiteti | 147 | 14.91 | 839 | 85.09 |
| 10 | Bakı Mühəndislik Universiteti | 721 | 64.20 | 402 | 35.80 |
| 11 | Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası | 178 | 48.11 | 192 | 51.89 |
| 12 | ADA Universiteti | 254 | 57.60 | 187 | 42.40 |
| 13 | Bakı Musiqi Akademiyası | 27 | 18.49 | 119 | 81.51 |
| 14 | Azərbaycan Milli Konservatoriyası | 72 | 52.94 | 64 | 47.06 |
| 15 | Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti | 203 | 40.60 | 297 | 59.40 |
| 16 | Azərbaycan Dövlət Rəssamlıq Akademiyası | 59 | 17.72 | 274 | 82.28 |
| 17 | Azərbaycan Turizm və Menecment Universiteti | 301 | 68.25 | 140 | 31.75 |
| 18 | Bakı Xoreoqrafiya Akademiyası | 59 | 39.60 | 90 | 60.40 |
| 19 | Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası | 1111 | 89.67 | 128 | 10.33 |
| 20 | Milli Aviasiya Akademiyası | 260 | 70.46 | 109 | 29.54 |
| 21 | Azərbaycan Dövlət Dəniz Akademiyası | 194 | 97.98 | 4 | 2.02 |
| 22 | Bakı Ali Neft Məktəbi | 122 | 68.16 | 57 | 31.84 |
| 23 | Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası | 28 | 63.64 | 16 | 36.36 |
| 24 | Naxçıvan Dövlət Universiteti | 561 | 53.48 | 488 | 46.52 |
| 25 | Naxçıvan Müəllimlər İnstitutu | 61 | 20.82 | 232 | 79.18 |
| 26 | Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə şəhəri) | 909 | 70.36 | 383 | 29.64 |
| 27 | Gəncə Dövlət Universiteti | 509 | 34.60 | 962 | 65.40 |
| 28 | Azərbaycan Texnologiya Universiteti (Gəncə şəhəri) | 486 | 73.08 | 179 | 26.92 |
| 29 | Sumqayıt Dövlət Universiteti | 652 | 46.74 | 743 | 53.26 |
| 30 | Mingəçevir Dövlət Universiteti | 282 | 50.09 | 281 | 49.91 |
| 31 | Lənkəran Dövlət Universiteti | 511 | 52.25 | 467 | 47.75 |
| 32 | Azərbaycan Kooperasiya Universiteti | 612 | 68.46 | 282 | 31.54 |
| 33 | Azərbaycan İlahiyyat İnstitutu | 29 | 48.33 | 31 | 51.67 |
| 34 | Azərbaycan Universiteti | 203 | 54.57 | 169 | 45.43 |
| 35 | Qərbi Kaspi Universiteti (əvvəlki Qərb Universiteti) | 399 | 48.84 | 418 | 51.16 |
| 36 | Xəzər Universiteti | 203 | 38.37 | 326 | 61.63 |
| 37 | Bakı Avrasiya Universiteti | 275 | 44.79 | 339 | 55.21 |
| 38 | Bakı Qızlar Universiteti | 0 | 0.00 | 387 | 100.00 |
| 39 | Odlar Yurdu Universiteti | 205 | 36.35 | 359 | 63.65 |
| 40 | Bakı Biznes Universiteti | 172 | 67.98 | 81 | 32.02 |
| 41 | Naxçıvan Universiteti (Naxçıvan şəhəri) | 205 | 63.86 | 116 | 36.14 |
| 42 | Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası | 66 | 69.47 | 29 | 30.53 |
| | **CƏMİ** | **19695** | **49.79** | **19865** | **50.21** |




**ümumi orta təhsil almayıb və onların təhsili haqqında heç bir məlumat yoxdur.** Qeyd olunduğu kimi, 2016-cı ildə ölkədə 9-cu sinif üzrə buraxılış imtahanında iştirak edən şagirdlərin sayı **104729 nəfər olub və bu şagirdlərin təxminən 16%-i təhsilini davam etdirmə**yib. Həmin şagirdlərin IX sinfin buraxılış imtahanlarında aldıqları qiymətlərə görə paylanması yuxarıdakı diaqramda verilib.

Diaqramdan göründüyü kimi, bu kontingent buraxılış imtahanlarında, əsasən, "2" və "3" qiymət alanlardır. Qeyd etmək lazımdır ki, belə **zəif nəticə göstərən şagirdlərin 69%-i kənd məktəblərini təmsil edir** (bax: cədvəl 2).

IX sinfi bitirənlərin yalnız 7%-i təhsilini peşə liseylərində və orta ixtisas təhsili müəssisələrində davam etdirib. Şagirdlərin qalan 72%-i isə 2018-



**2018-ci ildə ali təhsil müəssisələrinə və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə ərizə vermiş abituriyentlərin buraxılış imtahanlarında aldıqları qiymətlərə görə paylanması**




ci ildə tam orta təhsilini başa vurub. Nəticədə, **2007-ci ildə 1-ci sinfə daxil olan 118290 şagirdin 68%-nin tam orta təhsil səviyyəsini, 24%-nin isə ümumi orta təhsil səviyyəsini başa vurduğu məlum olub**. 2018-ci ildə tam orta təhsilini başa vurmuş şagirdlərin təxminən 23%-i təhsilini davam etdirməməyi qərara almış və ali təhsil müəssisələrinə və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul üçün müraciət etməyib (onların 66%-i oğlan, 34%-i qız şagirdlərdir).

**Cədvəl 2. 2016-cı ildə 9-cu sinfi bitirdikdən sonra haqqında məlumat olmayan məzun seçməsinin tərkibi**

| Oğlan | Qız | Şəhər | Kənd |
|---|---|---|---|
| 51% | 49% | 31% | 69% |

Həmin şagirdlərin buraxılış imtahanlarında aldıqları qiymətlərə görə paylanması yuxarıdakı diaqramda göstərildiyi kimidir.

Diaqramdan göründüyü kimi, bu şagirdlər, əsasən, təhsildə zəif nəticə göstərənlərdir. Acınacaqlısı

**2018-ci ildə ali təhsil müəssisələrinə qəbul olan abituriyentlərin buraxılış imtahanlarında aldıqları qiymətlərə görə paylanması**



## 2007-ci ildə I sinfə daxil olan şagirdlərin təhsil pillələri üzrə paylanması (2023-ci ilə olan proqnoz)




odur ki, onların 81%-i kənd məktəblərini bitirib (bax: cədvəl 3).

2018-ci ildə ali təhsil müəssisələrinə və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul üçün 63178 şagird, **yəni 2007-ci ildə 1-ci sinfə daxil olan şagirdlərin yalnız 53%-i ərizə verib** (Cədvəl 4-dən göründüyü kimi, onların 52%-i oğlan, 48%-i qız, 40%-i şəhər, 60%-i kənd rayonlarından olan şagirdlərdir). Bu şagirdlərin 7798 nəfəri təhsilini orta ixtisas təhsili müəssisələrində, 33419 nəfəri isə ali təhsil müəssisələrində davam etdirmək imkanı əldə edib. Ali məktəblərə qəbul üçün ərizə vermiş, eləcə də qəbul olmuş abituriyentlərin buraxılış imtahanlarında aldıqları qiymətlərə görə paylanması yuxarıdakı diaqramlarda verilib. Ali məktəblərə qəbul üçün ərizə vermiş, həm də qəbul olmuş abituriyent seçmələrinin tərkibi ayrı-ayrılıqda 4 və 5 saylı cədvəllərdə verilib.

**Cədvəl 3. 2018-ci ildə ali təhsil müəssisələrinə ərizə verməyən məzun seçməsinin tərkibi**

| Oğlan | Qız | Şəhər | Kənd |
|---|---|---|---|
| 66% | 34% | 19% | 81% |

**Cədvəl 4. 2018-ci ildə ali təhsil müəssisələrinə qəbul üçün ərizə vermiş abituriyent seçməsinin tərkibi**

| Oğlan | Qız | Şəhər | Kənd |
|---|---|---|---|
| 52% | 48% | 40% | 60% |

**Cədvəl 5. 2018-ci ildə ali təhsil müəssisələrinə qəbul olan abituriyent seçməsinin tərkibi**

| Oğlan | Qız | Şəhər | Kənd |
|---|---|---|---|
| 50% | 50% | 46% | 54% |

Diaqramlardan göründüyü kimi, ali məktəblərə ərizə verən abituriyentlər buraxılış imtahanlarında, əsasən, "3", "4" və qismən "5" qiymət alanlardırsa, qəbul olanların böyük əksəriyyəti "4" və "5" qiymət alanlardır.

Onu da qeyd edək ki, Dövlət İmtahan Mərkəzi əvvəlki illərin qəbul imtahanlarının statistik nəticələrinin təhlili əsasında 2018-ci ildə ali təhsil müəssisələrinə qəbul üçün ərizə verən, lakin qəbul olmayan kontingentin sonrakı 5 ildə neçə faizinin ali təhsil müəssisələrinə qəbul olacağını da proqnozlaşdırıb. Bu proqnoza əsasən, həmin

**TƏDRİS DİLİ** fənni üzrə




kontingentin **təxminən 18%-nin sonrakı 5 il ərzində ali təhsil müəssisələrinə qəbul olacağı** ehtimal olunur.

Yuxarıda sadalananları ümumiləşdirərək qeyd etmək olar ki, **2007-cı ildə 1-ci sinfə daxil olan 118290 şagirdin 53%-i əmək bazarına heç bir peşə və ixtisas üzrə təhsil almadan çıxacaqdır.**

Burada 2016-cı ildə 9-cu sinif üzrə buraxılış imtahanlarında tədris dili və riyaziyyat fənlərindən "2", "3", "4" və "5" qiymət alan şagirdlərin 2018-ci ildə 11-ci sinif üzrə buraxılış imtahanlarında həmin fənlərdən aldıqları qiymətlərin paylanması diaqramları təqdim edilib.

Göründüyü kimi, şagirdlər 11-ci sinfin buraxılış imtahanlarında da 9-cu sinfin buraxılış imtahanlarındakı səviyyəyə uyğun bilik nümayiş etdiriblər. Məsələn, **2016-cı ildə tədris dili fənnindən 9-cu sinif üzrə buraxılış imtahanında "2" alan şagirdlərin 93.9%-i 2018-ci ildə 11-ci sinif üzrə buraxılış imtahanında da "2" və "3" qiymət alıb**. 9-cu sinif üzrə buraxılış imtahanında "5" qiymət alan şagirdlərin 79.0%-i 11-ci sinif üzrə buraxılış imtahanında da "5" qiymət alıb. Qeyd edək ki, 2016-cı ildə 9-cu sinif üzrə buraxılış imtahanında həmin şagirdlərin tədris dili fənni üzrə 15%-i "2", 45%-i "3", 24%-i "4", 16%-i "5", riyaziyyat fənni üzrə 19%-i "2", 37%-i "3", 21%-i "4", 23%-i "5" qiymət alıb.

**RİYAZİYYAT** fənni üzrə



# QEYD ÜÇÜN

# QEYD ÜÇÜN

“Azərbaycan barometri” jurnalı 06 avqust 2019-cu il tarixində
Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində
4247 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə daxil edilib.



SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ

Azərbaycan AZ1006, Bakı, Yasamal rayonu, İsmayıl bəy Qutqaşınlı küç., 18
Telefon: (+994 12) 510-70-78; (+994 12) 510-23-75; (+994 12) 510-70-69

info@stm.az   www.stm.az